**FİRUDİN İBRAHİMİ**

# SÜLH UĞRUNDA

*(Paris Sülh Konfransı barədə qeydlər. 1946)*



**Firudin Ibrahimi**
*Azərbaycan Milli Hökumətinin Baş Prokuroru*

**"Elm və təhsil"**
**Bakı – 2018**

***Kitab İranda milli-demokratik hərəkatın nəticəsi olaraq
12 dekabr 1946-cı il (21 Azər) tarixində
qurulmuş Azərbaycan Milli Hökumətinin
Baş prokuroru Firudin Qəni oğlu İbrahiminin
anadan olmasının
100 illiyi münasibətilə çap edilmişdir***



*“Hər bir millət həqiqi azadlıq əldə etmək və*
*öz müqəddəratına sahib olmaqdan ötrü*
*yalnız bir qüvvəyə söykənməlidir.*
*O da millətin birliyi və bu birlikdən*
*əmələ gələn qüvvədir”*

***Firudin Ibrahimi***

*Azərbaycan Milli Elmlər Akademiyası*
*akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun*
*Elmi Şurasının 26 yanvar 2018-ci il tarixli*
*01 saylı qərarı ilə çap edilmişdir*

***Tərtibçi, əski əlifbadan latına çevirəni,***
***nəşrə hazırlayan, ön söz, səhifəaltı istinadlar və***
***şərhlərin müəllifi:***
**BAYRAMZADƏ SƏMƏD ZÜLFƏLİ OĞLU**

**Kitabın sponsoru:**
**FİRUDİN ƏNUŞİRƏVAN OĞLU İBRAHİMİ**
***"İranlı Mühacirlər Cəmiyyəti" İctimai Birliyinin sədrinin 1-ci müavini***

**Firudin İbrahimi. Sülh uğrunda (Paris Sülh Konfransı barədə qeydlər. 1946),** Bakı, "Elm və təhsil" nəşriyyatı, 2018, 132 **səh.**

1945-ci ilin dekabr ayının 12-də (21 Azər) Cənubi Azərbaycanda qurulmuş Milli Hökumətin baş prokuroru Firudin İbrahiminin Avropaya, xüsusilə də Paris şəhərinə səfəri onun həyatında ən mühüm və diqqətçəkən hadisələrdən biri olmuşdur. O, 29 iyul – 15 oktyabr 1946-cı il tarixləri arasında Parisdə 21 dövlətin iştirakı ilə təşkil olunmuş Sülh Konfransında Azərbaycan Milli Hökumətinin mətbuat nümayəndəsi kimi iştirak etmiş, bu konfrans barədə qeyd və mülahizələrini Azərbaycan Demokrat Firqəsi (ADF) Mərkəzi Komitəsinin orqanı "Azərbaycan" qəzetinin 9 noyabr – 10 dekabr 1946-cı il tarixləri arasında çıxmış 23 sayında "Sülh uğrunda" başlığı altında çap etdirmişdir.

F.İbrahiminin oxuculara təqdim olunan bu kitabı Azərbaycanın diplomatiya tarixini, milli ideologiyamız olan azərbaycançılığın formalaşması və inkişafını izləmək və öyrənmək baxımından çox faydalıdır. Belə ki, Azərbaycan adına, onun azadlıq və istiqlaliyyət, sülh uğrunda mübarizə tarixinə kölgə salanlar, böhtan atanlar, iftira söyləyənlər, siyasi və milli qərəzçilik, nadanlıq və ya müvafiq siyasi qurumların sifarişilə iş görənlər bu gün də öz çirkin, məntiqsiz, insanlığa sığmayan işlərindən əl çəkməmişlər.

"Sülh uğrunda" başlıqlı kitabın tərtibçisi F.İbrahiminin yazı üslubuna toxunmadan onun oxuculara təqdim olunan qeydlərinin müasir Azərbaycan ədəbi dilinə uyğunlaşdırılmasına və səslənməsinə çalışmış, bir sıra ərəb-fars ifadələrinin azərbaycanca qarşılığını vermişdir.

**İSBN:978-9952-37-025-6**



*Azərbaycan Milli Hökumətinin tərkibi: Baş nazir-Seyid Cəfər Pişəvəri, Daxili İşlər naziri-Salamullah Cavid, Xalq Qoşunları naziri-Cəfər Kavyan, Fəlahət (kənd təsərrüfatı) naziri-Məhtaş, Maarif naziri-Məhəmməd Biriya, Səhiyyə naziri-Ourəngi (Övrəngi), Maliyyə naziri-Qulamrza İlhami, Ədliyə naziri-Yusif Əzimi, Yol, poçt, teleqraf və telefon naziri-Mirzə Rəbi Kəbiri, Ticarət və iqtisadiyyat naziri-Rza Rəsuli, İş və əmək nazi təyin olunana kimi o işlərə baş nazir S.C.Pişəvəri özü nəzarət etmişdir, Ali Məhkəmənin sədri-Zeynalabdin Qiyami, Baş prokuror-Firudin İbrahimi*

# Firudin İbrahimi
# və
# azərbaycançılıq

Firudin İbrahimi 1945-ci ilin sentyabr ayında Azərbaycan Demokrat Firqəsi (ADF) sıralarına qoşulmuş, 1 oktyabr 1945-ci il tarixində ADF-nin Təbrizdə təşkil olunmuş I qurultayında iştirak edən 237 nəfər Azərbaycan xalq nümayəndələrindən biri olmuş, Azərbaycan Milli Məclisi təşkil olunduqdan sonra isə Seyid Cəfər Pişəvərinin başçılığı ilə təşkil edilmiş 39 nəfərdən ibarət Azərbaycan Milli Hökumətinin tərkibində Baş prokuror vəzifəsinə təyin olunmuşdur.

O özünün çox qısa sürən şüurlu ömrünü Azərbaycanı, millətini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, milli kimliyini, milli varlığını dünyaya tanıtdırmağa həsr etmiş, istər ədəbi-bədii, istər elmi-publisistik, istərsə də Paris Sülh Konfransında iştirakı zamanı qələmə aldığı qeydlərində ardıcıl olaraq azərbaycançılıq düşüncəsinin inkişafına, onun təbliğinə və təntənəsinə xüsusi diqqət yetirmiş, bu yolda əlindən gələn bütün səyləri ortaya qoymuşdur.

F.İbrahimi 21 noyabr 1918-ci il tarixində İran tərəfindəki Astara şəhərində dünyaya gəlmişdir. O,

1941-ci ildə, Tehran Universitetinin hüquq fakültəsində təhsil aldığı zaman, İran Xalq Partıyası (İXP) sıralarına qoşulmuş və eyni zamanda da tələbə hərəkatında fəal şəkildə iştirak etmişdir. Ədəbi fəaliyyətinə universitetə qəbul olduğu ildən başlamış və tez bir zamanda siyası məqalələr də yazmağa başlamışdır.

1943-cü ildə Seyid Cəfər Pişəvərinin vasitəsilə “Ajir” qəzeti təsis olunduqdan sonra F.İbrahimi bu mətbu nəşrlə əməkdaşlığa başlamış və həmin ildə də redaksiya heyətinin üzvü seçilmişdir. O, öz məqalələrində imperializmi, onun yerli əlaltılarını ifşa etmişdir. “Ajir” qəzetində fəaliyyəti ilə yanaşı F.İbrahiminin yazıları ardıcıl olaraq İXP-nin rəsmi orqanı olan “Rəhbər”, antifaşist “Mərdom”, Fəhlə və Zəhmətkeşlər Birliyinin Birləşmiş Mərkəzi Şurasının orqanı olan “Zəfər” qəzetlərində və digər mütərəqqi mətbuat orqanlarında çap olunmuşdur. Azərbaycanda çıxan “Xavər-e nou” (Yeni Şərq), “Azərbaycan” qəzetləri və s. demokratik mətbuat orqanları ilə də əməkdaşlıq etmiş, onlar üçün günün ictimai-siyasi məsələlərinin təhlilinə həsr olunmuş çoxlu sayda məqalələr yazmışdır.

1945-ci ilin may ayında Tehran Universitetinin hüquq fakültəsini bitirən F.İbrahimi İran Xarici İşlər Nazirliyi və “Ettelaat” qəzeti tərəfindən dəfələrlə iş təklifi alsa da, xalqına xidməti özünün əsas vəzifəsi hesab edərək bu təklifləri qəbul etmir və öz ana yurdu Azərbaycana qayıdır.



*Firudin İbrahimi hüquq fakültəsində oxuduğu illərdə*

5 sentyabr 1945-ci il tarixində ADF-nin rəsmi orqanı "Azərbaycan" qəzetinin ilk sayı nəşr olunur və elə həmin tarixdən də F.İbrahimi "Azərbaycan" qəzeti ilə əməkdaşlığa başlayır.

Onun Azərbaycan mədəniyyəti, tarixi barədə məqalələri Azərbaycan xalqının milli qürur hissinin oyanmasında mühüm rol oynadı. F.İbrahiminin "Azərbaycan danışır... İftixarlı tariximizdən bir neçə parlaq səhifə" adlı silsilə məqalələri 31 oktyabr – 21 noyabr 1945-ci il (9-30 aban 1324-cü il) tarixləri arasında "Azərbaycan" qəzetinin (ADF orqanı) 42-ci sayından başlayaraq 60-cı sayı da daxil olmaqla ayrı-ayrı başlıqlar altında çap olunmuşdur. Bu yazılar F.İbrahiminin müqəddiməsindən və Azərbaycanın qədim tarixi, əhalisi, azərbaycanlıların milli kimliyi, bu diyarın azadlığı, istiqlaliyyəti uğrunda apardıqları mübarizə və fədakarlıqları, mədəniyyət tarixi, dövlət və ordu quruluşu, ədəbiyyatı, xətti, dili, siyasi təşkilatları, məzhəbləri, geyim, adət-ənənələri barədə 19 məqalədən ibarətdir. F.İbrahiminin sözügedən məqalələri 1946-cı ildə toplu şəklində "Sovet Mədəniyyəti Evi" tərəfindən "Azərbaycanın qədim tarixi haqqında" adı ilə Təbrizdə Azərbaycan dilində əski əlifbada çap olunmuşdur.

Bu dövrdə F.İbrahiminin həyatında ən mühüm və diqqətçəkən hadisələrdən biri onun Avropaya, xüsusilə də Paris şəhərinə səfəri idi. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra qalib dövlətlər dünyanın gələcəyi və Avropada sülhün bərqərar

edilməsi barədə danışıq və müzakirələr aparmaq məqsədilə "Paris Sülh Konfransı" adlı beynəlxalq bir toplantını təşkil etdilər.[1] Sözügedən toplantı elə bir mərhələdə təşkil ounmuşdu ki, müstəmləkə və yarımmüstəmləkə ölkələri xalqları yaranmış şəraitdən daha çox faydalanaraq ayağa qalxdılar, ölkələrinin tam istiqlalını və öz haqlarını tələb etdilər. Konfrans açılmamış bu düyünləri çözməli və qarşıda duran bütün suallara cavab verməli, onların həllinə çalışmalı idi. Qeyd olunmalıdır ki, Paris Sülh Konfransında İkinci Dünya müharibəsində qalib gəlmiş antihitler koalisiyası dövlətləri ilə faşist Almaniyasının Avropadakı keçmiş müttəfiqləri arasındakı sülh müqavilələri barədə İrana öz hökumətinin mövqeyini şərh etmək imkanı verilmişdi.

F.İbrahimi də Azərbaycan Milli Hökuməti adından mətbuat nümayəndəsi sifəti ilə bu konfransa gedir və 1946-cı il avqust ayının 10-dan Paris şəhərinin "Lüksemburq" adlanan ən məşhur tarixi qəsrində[2] keçirilən konfransın iclaslarında iştirak edir və sona kimi də bütün müzakirələrin gedişini diqqətlə izləyir. Təəssüflər olsun ki, bu gün də Azərbaycan adına, onun azadlıq və istiqlaliyyət, sülh uğrunda mübarizə tarixinə kölgə salanlar, böhtan atanlar, iftira söyləyənlər öz çirkin, məntiqsiz, insanlığa sığ-

[1] Paris Sülh Konfransı – 1946-cı il iyulun 29-da Parisdə 21 dövlətin iştirakı ilə öz işinə başlamış və həmin ilin oktyabr ayının 15-də öz işini başa çatdırmışdır.

[2] II Dünya müharibəsindən öncə Fransa Senatı bu qəsrdə fəaliyyət göstərirdi.

mayan işlərindən əl çəkmirlər. Bunun da bir neçə səbəbi var; siyasi və milli qərəzçilik, nadanlıq və ya müvafiq siyasi qurumların sifarişilə iş görmək.

Fatimə Müəzzi adlı müəllif "Tarix-e moaser-e İran" (İranın müasir tarixi) dərgisinin 2008-ci ilin yayında çıxan 46-cı sayında dərc olunmuş "Pəhləvi dövrünün siyasi xadimləri – Firudin İbrahimi" başlıqlı yazısında F.İbrahiminin Paris Sülh Konfransında iştirakı barədə Ənvər Xameinin "Siyasi xatirələr"nə[1] istinadən yazır: "Sülh Konfransının gedişi barədə hesabatları hazırlayıb göndərmək üçün 1946-cı ilin iyulunda 4 nəfər mətbuat nümayəndəsi sifəti ilə İrandan Parisə yola düşdü. Firudin İbrahimi bu heyətin tərkibinə Azərbaycanın mətbuat nümayəndəsi kimi qatılmışdı. O, konfransın işi başa çatandan sonra Parisdə qaldı və 2 aydan sonra Azərbaycana qayıtdı."[2] Aydın görünür ki, xanım Müəzzi çox ciddi məsələlərə həsr olunmuş konfransın açılış və bağlanış tarixi, oradakı məsələlərin məzmunu barədə ən bəsit məlumalara belə malik deyildir. Belə ki, sözügedən konfransın işi iki ay yarım davam etmişdir. Yazı müəllifi Fatimə Müəzzi və "Siyasi xatirələr" müəllifi Ənvər Xamei F.İbrahiminin Azərbaycana döndükdən sonra Paris Sülh Konfransının gedişi barədə "Sülh uğrunda" başlığı altında "Azərbaycan" qəzeti səhifələrində dərc olunmuş silsilə yazılarını oxusaydılar, bu qədər məsuliyyət-

[1] انور خامه‌ای.خاطرات سیاسی.تهران،گفتار و علم،1372.ص 537

[2] شرح حال رجال پهلوی (فریدون ابراهیمی) نوشته:فاطمه معزّی /http://solanzh.blogfa.com/post-325.aspx

siz hökmlər verə bilməzdilər. Ənvər Xamei "Siyasi xatirələrində" yazır: "Firudin İbrahimi özü ilə gətirdiyi bütün pulları iki ay müddətində eyş-işrətə xərcləyib qurtarmışdı. Mən Parisə gəlməmişdən öncə Azərbaycana qayıtmağı qərara aldı".[1] Belə çıxır ki, Sülh Konfransında İranın mətbuat nümayəndəsi sifəti ilə iştirak etmək üçün Parisə getmiş Ə.Xamei konfransın yalnız açılış və bağlanış mərasimlərində iştirak etmiş, iclasların gedişini isə nə izləmiş, nə də hesabatlar hazırlayıb göndərmişdir. Əslində onun özü İran dövləti tərəfindən bu vəzifəni icra etmək üçün ayrılmış pulları təyinatı üzrə deyil, öz şəxsi maraqları üçün xərc etmişdir.

Bu konfransın iclaslarında iştirakın nəticəsi olaraq F.İbrahimi ADF orqanı olan "Azərbaycan" qəzetinin 9 noyabr – 10 dekabr 1946-cı il tarixləri arasında çıxmış 23 sayında "Sülh uğrunda" başlığı altında Paris Sülh Konfransı barədə geniş hesabat xarakterli silsilə məqalələrini çap etdirir. O, bu yazılarında ABŞ və İngiltərənin ikiüzlü siyasətini və həmin siyasəti təqib edən Fransanı ifşa edir, bu konfransda iştirak edən həmin dövlətlərin nümayəndələrinin keçmiş müstəmləkə dövlətlərində öz nüfuzlarını qorumaqla yanaşı, hətta yeni regionlar əldə etmək və onlarda da müstəmləkəçilik siyasətini genişləndirmək cəhdlərini aydın bir şəkildə açıqlayır.

F.İbrahimi Paris Sülh Konfransına yola düşdüyü gündən qayıdana kimi oradakı fəaliyyətində, Azər-

[1] http://solanzh.blogfa.com/post-325.aspx

baycana göndərdiyi hesabatlarında, "Azərbaycan" qəzetində bu konfrans barədə "Sülh uğrunda" başığı altında çap etdirdiyi silsilə yazılarında da Azərbaycanı, onun xalqını, milli varlığını, qurduğu Milli Hökumətin islahatlarını, azərbaycançılıq ideyalarını özü üçün əsas fəaliyyət xətti kimi qəbul etmiş və son nəfəsinə kimi də bu prinsiplərə sadiq qalmışdır.

F.İbrahimi konfrans barədə azərbaycançılıq ruhu ilə yoğrulmuş "Sülh uğrunda" başlıqlı hesabatlarına belə başlayır: "**Əsas mətləbə başlamadan əvvəl səfərimin bir neçə müxtəsər yaddaş və xatirələrinə işarə etməyə məcburam və xəyal edirəm ki, bu hissə oxucuların diqqətini cəlb edəcəkdir...**

**Ana dilimizin düşmənləri:** Mənim pasportum Təbriz polis idarəsi tərəfindən verilmiş və nəticədə Azərbaycan dilində yazılmışdır. Ona görə mən bu pasportu həmişə bir əziz yadigar kimi saxlayacağam.

Tehrandan Parisə getməkdən ötrü Fransa vizasından əlavə İraq, Suriya, İordaniya, Livan, Fələstin və Misir tranzit vizalarına da ehtiyac var idi. Bu iş adətən Xarici İşlər Nazirliyinin əli ilə olmalı idi. Ona görə mən Xarici İşlər Nazirliyinin pasport və viza şöbəsinə müraciət etdim. Bu nazirlikdə uzun illərdən bəri mühüm və həssas postları tutub, bürokratizmin daşlaşmış fiqurlarına çevrilmiş idarə işçiləri mənim pasportumu Azərbaycan dilində gördükdə ildırım vurmuş kimi mat qaldılar: "Ağa, bağışlayın, biz bu pasportu qəbul edə bilmərik, çünki Azərbaycan dili rəsmi dil deyil", - deyə pasportu əldən-ələ verib

müxtəlif və çoxlu sayda şöbələrdə gəzdirdilər. Nəhayət, pasport idarəsinin rəisi cənab Ərdəşir mənim dəlillərimi eşitdikdən sonra[1], göstərilən dövlətlərin səfirliklərinə notalar hazırlayıb göndərdi. Pasportun Azərbaycan dilində yazılması Xarici İşlər Nazirliyi üçün həllolunmaz bir məsələ açmış və ömürlərini idarə mizinin dalında çürütmüş bürokratlar üçün əngəl olmuşdu.

Bunlar Azərbaycan dilində yazılan pasportu rəsmiyyət ilə tanımaq istəmirdilər, lakin həmin şəxslər İran xalqının xəzinəsini talayanlar və məşhur qaçaqçılar üçün siyasi, ya xidməti pasportu hazırlayıb iki əlli onlara təqdim edir və bu oğrular üçün İrandan xaricdə hər cür diplomatik toxunulmazlıq şəraiti yaradırdılar.

Azərbaycan dili mərkəzi hökumət tərəfindən rəsmi bir dil kimi tanınmağına baxmayaraq, Xarici İşlər Nazirliyini özləri, ya ailələri üçün daimi "tiyul"a[2] çevirən məmurlar Azərbaycan dilinə müxalifət və düşmənçilik göstərməkdən çəkinmədilər.

**Lakin orada da Azərbaycan dili öz mövcudiyyətindən müdafiə edib qalib çıxdı.**

[1] Şübhəsiz ki, F.İbrahiminin cənab Ərdəşir ilə görüşü zamanı ortaya qoyduğu dəlillər 1946-cı il aprelin 22-də (2 ordibeheşt 1325) İranın Qəvamüssəltnə hökumətinin Azərbaycan barədə 7 maddədən ibarət bəyannaməsinin 3-cü (ADF MK orqanı "Azərbaycan" qəzeti, 27 ordibeheşt 1325/17 may 1946) və 13 iyun 1946-cı ildə Təbriz şəhərində Azərbaycan Milli Hökuməti və Qəvamüssəltənə dövləti arasında arasında imzalanmış müqavilənin 12-ci (ADF MK orqanı "Azərbaycan" qəzeti, 26 xordad 1325/16 iyun 1946) maddəsinə söykənirdi.
2 Hədiyyə edilən torpaq mənasını daşıyır.

**Piramidlər ətəyində vətənimizin adı.** Bizi Parisə aparan böyük hərbi təyyarə çərşənbə günü 7 avqust 1946-cı il tarixində saat 7-də "Mehrabad" aeroportundan uçub saat 9-da "Həbaniyə" (Bağdad) aeroportuna yetişdi. Bir saatdan sonra təyyarə hərəkət edib İraq, Cənubi Suriya, İordaniya, Cənubi Fələstin və Süveyş kanalının üstündən keçib günortadan sonra saat 4-də Helio Polis aeroportu "Əl-Məza"ya yetişdi. Müsafirlər pasportları polis dairəsinə təhvil verdikdən sonra kobud və tərbiyəsiz gömrük məmurlarının əlindən qurtarıb, "Helio Polis palas" mehmanxanasına tərəf aparıldılar. Planım bu idi ki, bu dayanacaqdan istifadə edib dərhal məşhur piramidləri görməyə gedəm. Taksi Helio Polis və Qahirə arasındakı məsafəni arxada qoyub, Nil çayının üstündəki böyük körpülərdən keçərək piramid şossesində irəli gedirdi. Piramida ətəyində mən bir neçə nəfər cavan tələbə ilə tanış oldum. Onlardan fransız dilinə bələd olan birisi məni azərbaycanlı bildikdən sonra mənə çox maraqla yaxınlaşdı və müxtəlif tarixi abidələr barədə şərh verdi...

Mənim Misir cavanlarının siyasi həyatına dair verdiyim suallara misirli cavan çox ehtiyatla cavab verirdi. Dediyinə görə, xalqın fikir və əqidələrini təftiş edənlərdən çəkinirdi.

Misirdə mütərəqqi və demokratik hərəkat açıq surətdə fəliyyət göstərməyə imkan tapa bilmir. Əsas Qanun "hazırkı vəziyyəti" pozan hər bir hərəkəti qadağan etmiş və cinayət qismində tanımışdır.

Mən cavan misirli üçün əldə etdiyimiz müvəffəqiyyətlər barəsində danışdım. Azərbaycan xalqının böyük hərəkatı, kəndlilər arasında yer bölgüsü məsələsi, universitet təsisi və xüsusilə Təbriz radiosu onu ciddi surətdə maraqlandırırdı: "Biz Təbriz radiosunun xəbərlərini maraqla dinləyirik. Fransa proqramı az və müxtəsər olduğuna görə türk dilinə bələd olan yunanlılar bu işdə bizə kömək edirlər", – deyirdi...

**Xalqımızın azadlıq vədəsi verən nidası bütün Yaxın Şərq ölkələrini bürümüş və piramida ətəklərində öz vətəninin həqiqi azadlığını arzu edən misirli cavana mübarizə dərsi öyrətmişdir."**[1]

Paris Sülh Konfransı barədə Firudin İbrahimidən ardıcıl, izahlı, doğru və düzgün məlumat alan S.C.Pişəvəri 3 sentyabr 1946-cı il tarixində ADF-nin təsis olunmasının bir illiyi münasibətilə Təbriz teatr salonunda təşkil olunmuş bayram mərasimindəki nitqində böyük bir fəxrlə qeyd etdi: **"İndi Sülh Konfransında**[2] **Yaxın Şərqdən yox, həm də Əlcəzair və Tunisdən gələn mətbuat nümayəndələri də bizim nümayəndələrə demişlər ki, onlar da bizim böyük işimizi alqışlayırlar."**[3]

Paris Sülh Konfransının gedişini əvvəldən axıra kimi izləyən F.İbrahimi orada iştirak edən Sovet nü-

---

[1] "Azərbaycan" qəzeti (ADF orqanı), say 56 (345), 9 noyabr 1946

[2] 29 iyul-15 oktyabr tarixlərində Fransanın Paris şəhərində keçirilən Sülh Konfransı nəzərdə tutulur.

[3] "Azərbaycan" qəzeti (ADF orqanı), say 1 (290), 5 sentyabr 1946

mayəndə heyəti üzvlərinin mövqelərini təqdir və təşviq edirdi. Belə ki, o, Sovet İttifaqını kiçik dövlətlərin istiqlalını, milli mənafelərini müdafiə edən, dünyada qlobal, regional qarşıdurma və münaqişələrin qarşısının alınması istiqamətində çox böyük səylər xərc edən dövlət kimi tanıyırdı. F.İbrahimi "Azərbaycan" qəzetində çap etdirdiyi "Sülh uğrunda" başlıqlı silsilə məqalələr sırasında "Sülhün qüdrətli müdafiəçiləri" adlı yazısında deyir: "Sosialist quruluşunun əsaslı mahiyyətilə əlaqədar olaraq, Sovet hökuməti xalqlar arasında dostluq yaratmaq və davamlı bir sülh icad etmək siyasətini təqib etməkdədir. Sovet nümayəndələri Paris Sülh Konfransında demokratik və ədalətli bir sülh yaradılması yolunda böyük fədakarlıqlar göstərmişlər. Sovet nümayəndələri üç böyük dövlət arasında qəbul olunan qərarlara vəfadar qalıb və bu qərarlara əsaslanaraq, sülh düşmənlərinə qarşı ciddi mübarizə aparırdılar. Sülh konfransı qurulan zaman böyük Sovet hökumətinin sülh tələbi siyasətinə qarşı geniş təbliğat gedirdi. Bu qəbil təbliğatlardan məqsəd sülh konfransını nəticəsiz qoymaq, gələcək sülh və təhlükəsizliyin əsaslarını zəiflətmək idi. Bu qorxulu hədəfə çatmaq üçün bütün mürtəce mətbuat təchiz olunmuşdu. Sovet hökuməti, sovet xalqları çox böyük maraqla konfransın gedişinii təqib edirdilər. Yalnız Sovet mətbuatında konfransın bütün müzakirələrini görmək olurdu."[1]

F.İbrahimi Parisdə olduğu müddətdə Fransanın müstəmləkəsi olan ölkələrin istiqlaliyyət və azadlıq

[1] "Azərbaycan" qəzeti (ADF orqanı), say 74 (363), 2dekabr 1946

hərəkatı rəhbərləri və nümayəndələri ilə əlaqə yaradır, onlarla fikir mübadiləsi aparırdı. Elə həmin zamanda da o, Mərakeş İstiqlal Partiyasının nümayəndə heyəti ilə də görüşür və danışıqlar aparır. O, bu danışıqlar barədə yazır: "Sentyabr ayının 19-da "Lutsiya" otelində mən bir demokrat qəzet yazarının vasitəsi ilə Mərakeşin İstiqlal Partiyasının nümayəndə heyəti ilə tanış oldum. Otelin salonunda biz bir saatdan artıq söhbət etdik. Azərbaycan hərəkatı haqqında geniş məlumatları var idi. Amma təəccüb edirdilər ki, bir müsəlman milləti Ərəb Dövlətləri Liqasının köməkliyi olmadan necə öz azadlığını əldə etməyə müvəffəq olmuşdur. Danışıqdan başa düşdüm ki, Mərakeş İstiqlal Partiyası nümayəndələri Ərəb Dövlətləri Liqasının başında duranları və imperialist dövlətlərin planlarını icra edənləri tamamilə tanımamışlar. Ərəb Dövlətləri Liqası onların nəzərində böyük bir milli qüvvə kimi görünürdü və ona görə belə düşünürdülər ki, bütün müsəlman xalqlarının nicatı bu qüvvədən asılıdır. Mən Ərəb Dövlətləri Liqasının nə olduğunu və həqiqi mahiyyətini onlar üçün izah etdim ki, **hər bir millət həqiqi azadlıq əldə etmək və öz müqəddəratına sahib olmaqdan ötrü yalnız bir qüvvəyə söykənməlidir. O da millətin birliyi və bu birlikdən əmələ gələn qüvvədir**."[1]

F.İbrahimi nəinki təcrübəli bir yazıçı və məşhur hüquqşünas, eyni zamanda da kamil bir diplomat

[1]"Azərbaycan" qəzeti (ADF orqanı), say 59 (348), 12 noyabr 1946

idi. O, ana dilindən başqa fars, fransız və ərəb dillərini də mükəmməl bilirdi. Bu qabiliyyəti də sözügedən sahələrdə ona yüksək manevr etmə imkanları verirdi.

F.İbrahimi "Sülh uğrunda" başlıqlı məqalələr toplusunun birinci hissəsini 10 dekabr 1946-cı il tarixində tamamladı. Belə ki, 23-cü son yazı həmin tarixdə "Azərbaycan" qəzetində çap olundu. Zaman fürsət vermədi. İki gün sonra - 12 dekabr 1946-ci il tarixində İran şah ordusu 13 iyun 1946-cı il tarixli Təbriz-Tehran müqaviləsinin şərtlərini pozaraq Azərbaycana hücum etdi. Həmin gün F.İbrahimi öz məsləkdaşları ilə birlikdə ADF MK-nın binasında səngər yaradaraq 34 saatlıq silahlı çatışmadan sonra  həbs olundu və zindana salındı.

İranın xəbər agentliklərinin nümayəndələri mətbuat səhifələrində F.İbrahimi ilə zindanda keçirdikləri görüşləri əks etdirən yazılar dərc etmişdilər. Nümunə kimi onlardan birini oxucuların diqqətinə təqdimedirik:

"Ondan soruşduq: – Siz prokuror olduğunuz zaman hansı işləri icra etmisiniz?

O cavabında dedi: – Biz məhbusların cinayət işlərini araşdırdıq, mürtəce qanunlar əsasında həbs olunan günahsız insanları azad etdik. Xalqın hüquqlarını müdafiə etməklə onları satqın hakimlərin zülmündənxilasetdik.

Sual etdik: – Bəs, o xalq haradadır, niyə sizin ölümünüzüistədilər?

Cavab verdi: – Mənim kimilərin ölümünü istəyənlər imperialist ağalarının göstərişlərini yerinə

yetirən mürtəce Tehran hökumətidir. Bu gün xalqımızın əl-ayağı, fəhlə, kəndli, zəhmətkeş və həmçinin əli qələm tutan ziyalıların dili bağlanmışdır. Amma bu əsarət zəncirləri əbədi deyil və onların qüdrətli əlləri ilə açılacaqdır."[1]

Zindanda qaldığı 6 ay ərzində ağır işgəncələrə məruz qalan, bütün çətinliklərə dözən F.İbrahimi fəxrlə deyirdi: **"Mən öz ömrümü Azərbaycan zəhmətkeşlərinin və bütün İranın azadlığı, səadəti yolunda sərf etmişəm. Bu zaman içərisində çalışdım ki, öz vəzifəmi şərəflə yerinə yetirim. Mən xalq mübarizəsinin şölələri içərisində tərbiyə olunmuşam. Bu üzdən də özümü xalqa xidmətdə borclu bilirəm və müqəddəs mübarizə yolunu tutduğum üçün fəxr edirəm. Mübarizəmin bu axır mərhələlərində də öz iradə və cəsarətimi qoruyacağam."**[2]

O, satqın şah rejiminin təşkil etdiyi məhkəmədə özünü müdafiə edərkən, əslində bütün İran xalqlarının və zəhmətkeşlərinin hüquqlarını müdafiə edirdi və imperialistlərin cinayətlərini, onların daxili nökərlərini ifşa edirdi. F.İbrahimi məhkəmədəki çıxışlarında demişdi: "Gələcək zəhmət təri tökən, işin çoxluğundan əlləri qabar bağlamış insanlarındır. Həmin qabarlı əllər bütün zindanların və işgəncə yerlərinin qapılarını açacaq, bütün cəllad və zülmkarları məhv

[1] Sitat 1982-ci ildə İXP tərəfindən çap olunmuş «Tudə şəhidləri" kitabının I cildindəki "Şəhid yoldaş: Firudin İbrahimi" adlı başlıqdan götürülmüşdür/http://www.sedayemardom.net/?p=26580

[2] Yenə orada

edəcəkdir. **Gün gələcəkdir ki, bütün İran xalqını öz hüquqlarından məhrum edənlər, onların mədəniyyət və milli qürurlarını tapdalayanlar, öz ciblərini və kisələrini qızılla doldurmaq xatirinə zəhmətkeş insanları istismar edənlər xalq qarşısında törətdikləri xəyanət və cinayət əməllərinə görə cavab verməyəməcburolacaqlar.**”[1]

Edamdan iki gün öncə F.İbrahimi Paris Sülh Konfransına gedərkən aldığı kostyumun zindana göndərilməsini istədi. Sübh tezdən, üzünü qırxdıqdan sonra ağ köynəklə kostyumunu geyindi, qırmızı rəngli qalstukunu boynuna vurdu. Səliqəsinə xüsusi diqqət yetirdi. O, bəzi yoldaşlarının təəccübünü görüb onlara dedi: **“Biz öz həyatımızı bütünlüklə paklıq və şərəf içərisində keçirdik, niyə dar ağacı altında pərişan halda görünməliyik?”**[2]

F.İbrahimi 1947-ci ilin 23 may gününün səhəri saat 4-də Təbrizin Səttarxan xiyabanında, “Gülüstan” bağının qarşısındakı meydanda edam olundu. Kəndir boynuna salınmamışdan öncə gözlərini qapadı və vida əlaməti olaraq üzünü Savalan dağı istiqamətinə tutaraq başı ilə təzim etdi və sonra cəlladların cəkic zərbəsi kimi fərqinə vardıqları uca səslə dedi:

[1] Sitat 1982-ci ildə İXP tərəfindən çap olunmuş «Tudə şəhidləri” kitabının I cildindəki “Şəhid yoldaş: Firudin İbrahimi” adlı başlıqdan götürülmüşdür/http://www.sedayemardom.net/?p=26580

[2] Yenə orada

*"Yaşasın Azərbaycan!*
*Yaşasın azadlıq!*
*Məhv olsun istibdad!*
*Yaşasın İran xalqlarının birliyi!"*[1]

Həmin gün bütün Azərbaycan xalqı matəmə qərq oldu. Təbrizin mübariz cavanları mitinq və etiraz nümayişləri, "intiqam komitələri" təşkil etdilər.

İnanırıq ki, F.İbrahimi şəxsiyyəti, sürdüyü ömür, Azərbaycanın azadlığı uğrunda keçdiyi mübarizə yolu, göstərdiyi qəhrəmanlıq, milli kimliyimizi və varlığımızı bütün dünyaya tanıtdırmaq işində qələmindən çıxan yazıları günümüzün gəncliyi və gələcək nəsillərimiz üçün örnək olacaq və uğrunda şəhid olduğu gün də gələcəkdir.

F.İbrahimi həm yazıları, həm də əməlləri ilə millətinin layiq olduğu yeri bütün dünyaya tanıtdıra bildi, Azərbaycanın şəhidlik tarixində ən müqəddəs və uca zirvə də məhz ona aiddir.


**Bayramzadə Səməd Zülfəli oğlu,**
*tarix üzrə fəlsəfə doktoru,*
*AMEA akad.Z.Bünyadov adına*
*Şərqşünaslıq İnstitutunun*
*Cənubi Azərbaycan şöbəsinin müdiri*


[1]Sitat Firudin İbrahiminin ölümünün 63-cü ildönümü münasibətilə 21 may 2010-cu il tarixində Behruz Mətləbzadənin "Azrbaycan" saytında dərc olunmuş "Tutuqluların prokuroru!" adlı məqaləsindən götürülmüşdür/http://www.azer-online.com/azer/?p=14535

# Firqəmizin bir illik bayramı münasibətilə dövlət teatrı salonunda cənab Pişəvərinin nitqi

*(3 sentyabr 1946-cı il)*

Çərşənbə axşamı günü, şəhrivər ayının 12-də dövlət teatrı səhnəsində "12 Şəhrivər"[1] münasibətilə təşkil olunmuş təntənəli yığıncaqda cənab Pişəvərinin etdiyi nitqin xülasəsi:

"Mən bu bayramı əvvələn öz tərəfimdən və firqə tərəfindən təbrik edirəm və firqəmizin banilərindən və müəssislərindən olan cənab Şəbüstəti, cənab Badiqan burada olmadıqlarına görə, onların tərəfindən də bayramı təbrik edib, buraya zəhmət çəkib gələn qonaqlardan təşəkkür edirəm.

"12 Şəhrivər" mənim nəzərimcə, çox tez keçdi, mənim yadımdadır ki, keçən 12 şəhrivərdə həmin bu salonda cənab Övrənginin istisna icazəsilə eliyə bilmişdik, birinci dəfə olaraq bütün təbəqlərdən bu salona yığıb və firqəmizin məqsədini xalqa elan edək və biz istədiklərimizi xalqa dedik ki, bu bəyanatın nöqsanlarını onlardan soruşduq və xahiş etdik ki, əgər bəyanatda islah etməli bir şey varsa, onu desinlər ta biz düzəldib və çap edək.

---

[1] 1945-ci il sentyabr ayının 3-də Təbrizin "Şir-o-xorşid" (Şir və günəş) salonunda (Azərbaycan Milli Hökuməti qurulduqdan sonra bu salon dövlət teatrı statusu aldı) S.C.Pişəvəri başda olmaqla 48 nəfərin imzası ilə "12 Şəhrivər" adlı Bəyannamə qəbul edildi və bu Bəyannamə ilə Azərbaycan Demokrat Firqəsinin əsası qoyuldu.

Mən o zaman həmin bu salonda İranın planını şərh etdim və bizim islahat və azadlığımızın İran mühiti içində olmağını qeyd etdim. İndi bir ildir ki, bizim firqəmizin təsisindən keçir və bu bir il içində dünyaya sabit olub ki, bizim hərəkatımız tək Azərbaycanı islah etməkdən ötrü deyil, bəlkə bütün İranda istiqlalın təminindən ötrü idi.

İndi bizim düşmənlərimiz verdiklərimiz imtahanlara baxmayaraq, bizi **separatçı** adlandırırlar və bizi İran azadlığının düşməni hesab edirlər.

Biz bir tərəfdən xoşbəxtik, çünki bu adamlar İran xalqının düşmənləri və onları əsarətdə saxlayan adamlardılar və bu adamların işləri bütün dünyaya aydındır ki, bunlar bu sözləri deyəndə bütün xalq bilir ki, bu adamlar həmişə öz mənfəətləri üçün böhtan atdıqları bu sözləri də böhtan olaraq deyiblər. London radiosu bizim nümayəndələrimiz Tehran dövləti ilə danışıq apardığı vaxtda bizim dilimizcə radioda yayıblar ki, guya biz İrandan ayrılmaq istəyirik. Dehli radiosu da bu sözü təkrar edib və Tehranda nəşr olunan "Ettelaat" qəzeti və sair qəzetlər də bu sözü şişirdərək dərc edibdir.

Bizim xoşbətliyimiz burasındadır ki, bütün İran xalqı bilir ki, bu cür adamlar haradan ilham alırlar və xarici qüvvələr bu cür şayiələr yayırlar ki, Xuzistanı işğal etməyə söz olmasın. Biz də deyirik – "**İt hürər, karvan keçər**".

Bizim gördüyümüz işlərin sayı çoxdur, hələ dünən iki böyük müəssisə açmışıq. Birisi mamalıq

fakültəsidir, o birisi də İranda analoqu olmayan milli orkestrin açılışıdır. Bunlar söz deyil, əməldir və həmişə də əməl sözdən qüvvətli olar.

Bizim gördüyümüz işlərin əsası firqəmizdir, biz o vaxt firqə mühitini hesaba aldıq, xalqın ehtiyaclarını düşünərək “12 Şəhrivər” bəyanatını yazıb, nəşr etdik. Biz fikir etdik ki, xalqa dayanmalıyıq. Çünki mən bilirdim ki, firqə tək özbaşına iş görə bilməz, xalqı gərək dalınca aparsın, xalq ona inansın. Biz “12 Şəhrivər” bəyanatını yazıb 12 maddədən ibarət olan şüarlarımızı meydana atdıq, İran və Azərbaycanın vəziyyətini izah etdik. Orada böyük məsələ Azərbaycanın daxili **muxtariyyət məsələsi** idi. Biz fikir edirdik, əgər Azərbaycanın muxtariyyəti olmasa, xalqın ehtiyaclarını təmin edə bilmərik, yalnız xalq hökuməti xalqın ehtiyaclarını təmin edə bilər.

**Biri də Azərbaycanın milliyət məsələsidir**. Bu məsələ də təzə bir məsələ deyildi. Hətta əgər Məşrutə tarixinə baxsaq, Məşrutə fərmanı və teleqraflar Azərbaycan millətinin adına verildi. Lakin onu silib aradan aparmışdılar. Bunu aradan aparan iki qüvvə idi: biri fars təəssübkeşləri ki, fikir edirdilər, əgər Azərbaycan xalqı özünü idarə edərsə, onların hakimiyyətinə xələl gələcək, ona görə də istədilər ki, xalqın fikrini boğsunlar.

Bir tərəfdən də Azərbaycan mürtəceləri qorxurdular ki, onların məqamları aradan getsin və Tehranın irticaçı qüvvəsi də onların dalında durmuşdur.

**Azərbaycanda olan mürtəcelər hər kəsdən artıq**

**bizim əleyhimizə çıxırdılar. Çünki onlar qorxurdular ki, xalqın müqəddəratı onların əlindən çıxsın. Ona görə bizi separatçı adlandırırdılar**. Bir surətdə ki, biz İranı parçalamaq istəyirdik, əgər bizim daxili muxtariyyətimiz olsa idi, İranın mərkəziyyəti möhkəmləşərdi. Bizim bəyanatımızın əsasını təşkil edən İranın istiqlalıdır.

Məşrutəni Azərbaycan xalqı alan zaman mürtəcelər deyirdilər ki, Azərbaycan cümhuriyyət təşkil vermək istəyir. O vaxt Tehran qorxurdu. **Həqiqətdə isə Məşrutəni alan Azərbaycan xalqı oldu**.

O zamanın əyalət əncüməni[1] indiki əyalət əncüməninə bənzəyirdi. O zaman mərkəzi hökumət əyalət əncüməndən qorxurdu. O zaman Əsas Qanunu Təbrizə göndərmişdilər ki, Azərbaycan xalqı onu təsdiq etsin.

Üç-dörd nəfərdən artıq olmayan xainlər bizim hərəkatımızı boğmaq istəyirdi, Azərbaycan xalqının dilini inkar etməyə çalışırdı.

Halbuki, **Azərbaycan xalqının dili və ədəbiyyatı vardır. Eyni zamanda da ki, iranlıdır. Dil məsələsi böyük məsələdir, bunu almaq və mürtəcelər ilə mübarizə etmək iradə istəyirdi. Biz o iradəni göstərdik və qorxmadıq** (*Gurultulu alqışlar*).

Bu bir siyasi məsələ idi. Əvvəl dəfə Tehran bunun mənasını başa düşmürdü. Ümumi danışıqlar və sözlər kimi bilirdi. O fikir edirdi ki, bu bəyanat

---

[1] "əyalət əncüməni" – yerli dövləti idarəetmə orqanı, yerli parlament

və teleqraflar qabaqkı kimi söz aləmində qalacaq. Bunlara cavab verməк istəmirdilər. Deyirdilər, bunlar məchul adamlardılar.

Tehran bizim **əyalət əncüməni məsələsini** aradan getmiş bir qanun hesab edirdi. Biz bu gün onu **rəsmi surətdə almağa müvəffəq olduq**.

**İkinci səadətimiz dil məsələsi idi. Bu məsələ bizim üçün ölüm və dirim məsələsidir.**

Dil məsələsi ilə eliyə bilərdik, xalqı öz tərəfimizə toplayaq. Ona görə dil məsələsini birinci dəfə ortaya qoyduq, çalışdıq ki, uşaqlarımızı yad dildən qurtaraq. O tarixçilər ki, bizim dilimizi aradan aparırdılar və deyirdilər ki, "bunların dili yoxdur, bunların dili fars dilinin şöbəsidir", biz isbat etdik ki, bizim dilimiz müstəqil bir dildir.

Azərbaycan dili fars dilinin şöbəsi deyil, xüsusi bir dildir. Bu dili danmaq həqiqəti danmaq kimidir. Bizim içimizdə bir qrup adamlar vardır ki, özü fars dilini bilməz, deyəndə də deyir ki, mənim dilim fars dilidir.

Mən fars dilini yaxşı bilirəm. **Deyirəm ki, fars dili pis deyil, lakin mənim dilim Azərbaycan dilidir. Öz dilini danan azərbaycanlı xain deyildir, kimdir?**

Bizim də özümüz üçün iftixarımız vardır. Biz bütün bizə böhtan atanlar ilə mübarizə edib və onları həmişəlik məğlub etdik. Biz Tehran ilə danışdıqda müvəffəq olduq ki, bütün orta və hətta ali məktəblərdə və idarələrdə Azərbaycan dilincə yazılsın.

Biz böyük iş görmüşük. İllər boyu kök salan qara təbliğatın üstünə qırmızı xətt çəkmişik.

Bizim dilimizi hərəkatdan qabaq o qədər məhdud etmişdilər ki, teatrlar da fars dilində olurdu. O vaxt xalq teatra rəğbət etmirdi. Xalq indi musiqi və teatra çox rəğbət edir. Çünki indi öz dilində eşidir.

Bizim bu böyük inqilabi hərəkat xalqı cəlb edirdi. Bizim hərəkatımızın milli xasiyyətindən birisi dil məsələsi idi. Bizim hərəkatımız dil vasitəsilə dünyada nüfuz və şöhrətə malik ola bildi. **Dünya bildi ki, 5 milyonluq bir xalq var ki, öz dillərində yazıb və oxuyur.** Bunu isbat etmək qəhrəmanlıqdır. İndi dünyanın yazıq millətləri bizi alqışlayırlar və bizə nicat verən bir millət kimi baxırlar.

**İndi Sülh Konfransında[1] Yaxın Şərqdən yox, həm də Əlcəzair və Tunisdən gələn mətbuat nümayəndələri də bizim nümayəndələrə demişlər ki, onlar da bizim böyük işimizi alqışlayırlar.**

Biz indi hər cür güzəşt etsək də, dil məsələsindən keçmədik, siyasi mübarizədə dala, qabağa getmək olar, lakin əsas səngər əldən verilsə, məğlub olmaq olar. **Bizim də dil məsələmiz əsas bir məsələdir. Buna sərsəri baxmaq olmaz**..."

Müraciətimizdə irəli sürdüyümüz **məsələlərdən birisi də torpaq məsələsidir**. Biz səy etdik ki, tezliklə xalisə yerlərini[2] bölək. İndiyə kimi İranın əksəriyyətini təşkil edən kəndlidir, Konstitusiya qanunundan

---

[1] 29 iyul-15 oktyabr tarixlərində Fransanın Paris şəhərində keçirilən Sülh Konfransı nəzərdə tutulur.

[2] dövlət torpaqlarını

istifadə etməyib. Maliklər[1] rəiyyətlərin[2] rəyi ilə deputat olurdular. Lakin Parlamentdə onlar əleyhinə danışırdılar. Hətta kəndliyə kiçik bir daxma belə vermək istəmirdilər. Bu hərəkatda onlara göstərdik ki, kəndlinin öz evi yox, həm də xalisə yerlərinin hamısı gərək kəndlilərin olsun. Biz bu hərəkatda kəndliləri jandarmların əlindən qurtardıq. Məşrutə inqilabı kəndli üçün heç bir şey ala bilməmişdi. Biz onların haqqını aldıq.

Məşrutə qanununda hamı qanun qarşısında bərabərdir, biz onu əməli etdik. Ərbab ki, kənddə hakimi-mütləq idi, onun hüquqlarını məhdud etdik və jandarmlar ki, ərbabdan artıq kəndlərə zülm edirdilər, onları da aradan apardıq. Bizim hərəkatımız kəndlilərin vəziyyətini hər cəhətdən təmin etdi.

"12 Şəhrivər" bəyanatının mühüm maddələrindən birisi də **dərəbəylik üsulunu aradan qaldırmaq** idi.

Bizim "12 Şəhrivər" şüarlarımızın təsirindən idi ki, bütün xalq firqəmizin ətrafına toplandı. Biz "12 Şəhrivər" bəyanatını nəşr edəndə, onu 48 nəfər imza etmişdi.[3] Hətta onlardan bir parası da bəzi bəhanələrə görə dalı çəkildilər. Lakin "12 Şəhrivər" bəyanatı nəşr olunduqdan sonra bizim 20 min firqə üzvümüz oldu və Hizbi Tudə və fəhlə təşkilatları bizə birləşdilər. Bir aydan sonra da biz qurultayımı-

---

[1] Mülkədarlar
[2] Kəndlilərin
[3] M.Çeşmazər "Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti. Cənbi Azərbaycan, 1945-1946-cı illər." (Bakı, "Elm", 1986) kitabında 78 nəfər göstərir, bax: s.38

zı təşkil etdik və bu qurultayı yaxşı idarə etdik. [1] Qurultay təşkil olanda firqə üzvlərinin sayı yüz minə yaxın idi. Bu qurultayda bizə 300 sual verdilər. Firqə onların ətrafında müzakirə etdi.

O zaman biz bir tərəfdən azadixahları cəlb etməyimizi, bir tərəfdən də dediklərimizi həyata keçirirdik. Bizim bir iftixarımız da bu idi ki, o zaman içərimizdə xain adamlar tapılmadı. **Bizim hər işimiz plan üzərində idi. Hətta 21 Azər qiyamımız da plan üstündə idi.** Bir para adamlar da fikir edirdilər ki, biz iş görmürük. O zaman biz ciddiyət edirdik ki, Milli Məclisimiz London konfransından qabaq olsun və elə də London konfransından qabaq Milli Hökumətin təsisini elan etdik. Sonra biz 700 nəfərdən ibarət[2] böyük bir Xalq Konqresi təşkil etdik.[3] Bu konqresdə Milli Məclis[4] və Milli Hökumətimizin binasını qoyduq[5]. Beləliklə, böyük hərəkatımız müəyyən nəticəyə çatmış oldu.

Biz Məclis seçkilərində **xanımlara seçib-seçilmək haqqı verməklə** böyük addım atdıq. Biz Tehran ilə danışanda da şərt etdik ki, bu qanun layihə surətində Məclisə verilsin və təsdiq olsun.

---

[1] 1945ci il oktyabrın 2də Təbriz şəhərində Azərbaycan Demokrat Partiyasının birinci qurultayı açıldı.
[2] M.Çeşmazər.ADF... kitabında 724 nəfər göstərir, bax: s.61
[3] 1945-ci il noyabrın 20-də (1324-cü il aban ayının 29-da) Təbriz şəhərində Azərbaycan Xalq Konqresi (AXK) təşkil olundu
[4] 1945-ci il dekabr ayının 12-də (1324-cü il azər ayının 21-də) Təbriz şəhərində Azərbaycan Milli Məclisi açıldı.
[5] Azərbaycan Milli Məclisinin 1945-ci il dekabrın 12-də (1324-cü il azər ayının 21-də) ikinci (günortadan sonrakı) iclasında Azərbaycan Milli hökuməti təşkil edildi.

Biz **cavanların seçki haqqını da 27 yaşından 21 yaşına endirdik**.[1] Qanun keçirdik ki, **Azərbaycanın Məclisdə 42 nümayəndəsi olsun**. Bizim iftixar etməli işlərimizdən birisi də **təhlükəsizliyi qorumaq** idi. Bu dünyada görülməyən bir işdir. Sonra **şəhərlərin abadlığı**na başladıq və **ərzaq mallarının qiymətini aşağı gətirdik**. Bu işlərimizin nəticəsində bütün xalq bizə tərəfdar oldular: əgər verdiyimiz vədələrə əməl etməsəydik, heç kəs bizim firqəmizin ətrafına toplanmazdı. İndi başımız ucadır. Dediklərimizə əməl etmişik. Ona görə xalq bizə inanır və etimad edir (*alqışlar*).

Möhtərəm məsləkdaşlar, bizim vəzifələrimiz qurtarmayıb. Biz gərək indi xalqın səadətini daha artıq təmin edək və xalqı fəlakətdən qurtaraq. Çünki, onda deyirdik, bizim əlimizdə qüdrət yoxdur, amma indi ki, bizim əlimizdə qüdrət var, gərək xalqın səadətini və xoşbəxtliyini təmin edək. **Burada gərək bir şeyi də nəzərimizdən çıxarmayaq ki, bizim hərəkatımızda Tehranda olan bəzi azadixah qəzetlər, məsələn, "Rəhbər", "İran-e ma", "Zəfər" və sairləri əvəzsiz olaraq bizə kömək edirdilər. Demək, onlar bizim hərəkatımızın ikinci sütunu idilər.** İndi gərək biz onlara təşəkkür edək və onları düşündürək ki, bizim xalqımız haqqı tanıyan bir xalqdır. Hər kimsə onun mənfəəti yolunda bir addım atarsa, o onun əvəzində 10 addım atar və hər

[1] M.Çeşmazər. ADF... kitabında seçmək hüququnun 20 yaşa endirildiyi göstərilir, bax: s.62

kəs də onun əleyhinə bir iş görsə, xalq ona nifrət göstərib, onu aradan aparmağa çalışar.

**İndi bizim qabağımızda iki şüar durur: birisi**, aldığımız azadlığı qanuni şəklə salmaq və təşkilatlarımızı genişləndirmək. **İkinci şüarımız** isə aldığımız azadlıq və demokratiyanı bütün İranda həyata keçirməkdir."

**Sonra cənab Pişəvəri öz əlilə demokrat firqəsində fəaliyyət göstərən şəxslərə "Səttarxan medalı" verdi. Medal ilə təltif olunanlar bunlardır: Badiqan, Biriya, Qiyami, general Kaviyan, general Kəbiri, general Qulam Danişyan, Vilai, Dehqani, Çeşmazər və dr. Cahanşahlı.**

Pişəvəri nitqini "Yaşasın firqəmiz", "Yaşasın qəhrəman xalqımız" şüarları ilə qurtardı.

*"Azərbaycan" qəzeti (ADF orqanı), say 1( 290), 5 sentyabr 1946-cı il*

## SÜLH UĞRUNDA

**Əsas mətləbi başlamadan əvvəl müsafirətimin bir neçə müxtəsər yaddaş və xatirələrinə işarə etməyə məcburam və xəyal edirəm ki, bu qismət oxucuların diqqətini cəlb edəcəkdir...**

**Ana dilimizin düşmənləri**

Mənim pasportum Təbriz polis idarəsi tərəfindən verilmiş və nəticədə Azərbaycan dilində yazılmışdır. Ona görə mən bu pasportu həmişə bir əziz yadigar kimi saxlayacağam.

Tehrandan Parisə getməkdən ötrü Fransa vizasından əlavə İraq, Suriya, İordaniya, Livan, Fələstin və Misir tranzit vizalarına da ehtiyac var idi. Bu iş adətən Xarici İşlər Nazirliyinin əli ilə olmalı idi. Ona görə mən Xarici İşlər Nazirliyinin pasport və viza şöbəsinə müraciət etdim. Bu nazirlikdə uzun illərdən bəri mühüm və həssas postları tutub, bürokratizmin daşlaşmış fiqurlarına çevrilmiş idarə işçiləri mənim pasportumu Azərbaycan dilində gördükdə ildırım vurmuş kimi mat qaldılar: "Ağa, bağışlayın, biz bu pasportu qəbul edə bilmərik, çünki Azərbaycan dili rəsmi dil deyil", - deyə pasportu əldən-ələ verib müxtəlif və çoxlu sayda şöbələrdə gəzdirdilər. Nəhayət, pasport idarəsinin rəisi cənab Ərdəşir mənim dəlillərimi eşitdikdən sonra, göstərilən dövlətlərin səfirliklərinə notalar hazırlayıb göndərdi. Pasportun Azərbaycan dilində yazılması Xarici İşlər Nazirliyi üçün həllolunmaz bir məsələ açmış və ömürlərini

idarə mizinin dalında çürütmüş bürokratlar üçün əngəl olmuşdu.

Bunlar Azərbaycan dilində yazılan pasportu rəsmiyyət ilə tanımaq istəmirdilər, lakin həmin şəxslər İran xalqının xəzinəsini talayanlar və məşhur qaçaqçılar üçün siyasi, ya xidməti pasportu hazırlayıb iki əlli onlara təqdim edir və bu oğrular üçün İrandan xaricdə hər cür diplomatik toxunulmazlıq şəraiti yaradırdılar.

Azərbaycan dili mərkəzi hökumət tərəfindən rəsmi bir dil kimi tanınmağına baxmayaraq, Xarici İşlər Nazirliyini özləri, ya ailələri üçün daimi "tiyul"a çevirən məmurlar Azərbaycan dilinə müxalifət və düşmənçilik göstərməkdən çəkinmədilər. **Lakin orada da Azərbaycan dili öz mövcudiyyətindən müdafiə edib qalib çıxdı.**

## Piramidlər ətəyində vətənimizin adı

Bizi Parisə aparan böyük hərbi təyyarə çərşənbə günü 16 mordad (7 avqust 1946-cı il) tarixində saat 7-də "Mehrabad" aeroportundan uçub saat 9-da "Həbaniyə" (Bağdad) aeroportuna yetişdi.

Burada biz İngiltərə əsgərləri ilə rastlaşdıq. Müsafirlər iki kamyunda[1] oturub səhər yeməyindən ötrü yola düşdülər. 3 kilometrdən artıq bir məsafədə İngiltərə qüvvələrinin çadırları nəzərləri cəlb edirdi.

[1] əsgərləri daşımaq üçün hazırlanmış yük maşınları nəzərdə tutulur

İraqda ingilislər rəqibsiz bir surətdə hökumət edirlər. İraq istiqlaliyyətindən heç bir əsər görmək mümkün deyil. Aeroportun ərazisindən çıxmaq "qəti qadağan" idi. Aeroportun ərazisində bir neçə libassız uşaqlardan savayı bir şey görmədik.



***1946. Tehran. Mehrabad aeroportu. Firudin İbrahimi Parisə gedərkən (ön cərgədə sağdan ikinci)***

Bir saatdan sonra təyyarə hərəkət edib İraq, Cənubi Suriya, Mavəra, İordaniya, Cənubi Fələstin və

Süveyş kanalının üstündən keçib saat 4-də[1] Helio polis aeroportu "Əl-Məza"ya yetişdi. Müsafirlər pasportları polis dairəsinə təhvil verdikdən sonra kobud və tərbiyəsiz gömrük məmurlarının əlindən qurtarıb, "Helio Polis palas" mehmanxanasına tərəf aparıldılar. Planım bu idi ki, bu dayanacaqdan istifadə edib dərhal məşhur piramidləri görməyə gedəm. Taksi Helio Polis və Qahirə arasındakı məsafəni arxada qoyub, Nil çayının üstündəki böyük körpülərdən keçərək piramid şossesində irəli gedirdi. Piramid ətəyində mən bir neçə nəfər cavan tələbə ilə tanış oldum. Onlardan fransız dilinə bələd olan birisi məni azərbaycanlı bildikdən sonra mənə çox maraqla yaxınlaşdı və müxtəlif tarixi abidələr barədə şərh verdi... Piramid barəsində yeni bir izharata ehtiyac görmürəm, amma bu tarixi yerdə eşitdiyim sözlər heç vaxt yadımdan çıxmayacaqdır.

Mənim Misir cavanlarının siyasi həyatına dair verdiyim suallara misirli cavan çox ehtiyatla cavab verirdi. Dediyinə görə, xalqın fikir və əqidələrini təftiş edənlərdən çəkinirdi.

Misirdə mütərəqqi və demokratik hərəkat açıq surətdə fəliyyət göstərməyə imkan tapa bilmir. Əsas Qanun "hazırkı vəziyyəti" pozan hər bir hərəkəti qadağan etmiş və cinayət qismində tanımışdır.

Mən cavan misirli üçün əldə etdiyimiz müvəffəqiyyətlər barəsində danışdım. Azərbaycan xalqının böyük hərəkatı, kəndlilər arasında yer bölgüsü

[1] günortadan sonra saat 4 nəzərdə tutulur, yəni saat 16-da

məsələsi, universitet təsisi və xüsusilə Təbriz radiosu onu ciddi surətdə maraqlandırırdı.

"Biz Təbriz radiosunun xəbərlərini maraqla dinləyirik. Fransa proqramı az və müxtəsər olduğuna görə türk dilinə bələd olan yunanlılar bu işdə bizə kömək edirlər", - deyirdi...

Xalqımız özünün böyük qəhrəmanlıqları nəticəsində Yaxın Şərqdə azadlıq pioneri yeri almağa müvəffəq olmuşdur.

**Xalqımızın azadlıq vədəsi verən nidası bütün Yaxın Şərq ölkələrini bürümüş və piramid ətəklərində öz vətəninin həqiqi azadlığını arzu edən misirli cavana mübarizə dərsi öyrətmişdir.**

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
***say 56 (345), 9 noyabr 1946***

## Təxliyədən əsər yoxdur!

Cavan tələbə mənimlə bərabər şəhərə qayıtdı. Piramidlərin əfsanəvi şöhrəti, onların qonşuluğunda gözə çarpan öldürülmüş on minlərcə qulların məqbərələrinin təsiredici mənzərəsi və onlardan bir az uzaq bu əsrin qulları, yəni ictimai hüquqdan məhrum edilmiş xalqların həyat şəraiti fikrimi şiddətlə özünə məşğul etmişdi. Qahirə Yaxın Şərqdə vüsət və cəmiyyət nəzərindən birinci yeri tutur. Helio Polis tikinti və memarlıq cəhətindən dünyanın ən gözəl şəhərlərindən hesab edilir. Amma bu yeni şəhərdə "can" yoxdur. Çünki bu şəhərin imarətlərinin böyük hissəsi qış fəslində burada öz istirahət və əyləncələrini təmin edən  xarici mülkədarlara məxsusdur.

Misir məmləkəti də İngiltərə qüvvələri tərəfindən işğal edilmişdir. Bu məsələ də Yaxın Şərqin ən mühüm və həssas problemlərindən hesab olunur. Misirdə İngiltərə işğalçı siyasətinə qarşı böyük nümayişlər daimi surətdə görünməkdədir. Mütərəqqi milli ünsürlər və bəzi siyasi partiyalar işğalçı qüvvələrə nifrətlə baxırlar. Onların nümayişləri bəzən təəssüfedici hadisələr yaradır. İngiltərə qüvvələri nümayişlərdə iştirak edən cavan tələbələrə avtomat silahla cavab verməkdən çəkinmirlər. Son zamanlarda uzun sürən "Sidqi Paşa – Bevin" müzakirələri də bir nəticəyə çatmamışdır. Demək olar ki, İngiltərə hökuməti Misirdən əl çəkmək xəyalında deyil və bu tezliklə də bu məmləkəti boşaltmayacaqdır.

## Hər kəs öz növbəsində

Səhər saat 6-da[1] "Əlməza" aeroportundan uçduq. Təyyarə Afrikanın şimal sahilləri istiqamətində Əl-Ələmin və Əl-Ədəm üstündən uçub saat 10-da "Bonqazi" aeroportuna çatdı. Burada biz birinci dəfə olaraq Alman və İtaliya müharibəsi əsirlərilə rastlaşdıq.

Onların özlərinə məxsus uniformaları yeni gələnlərin diqqətini cəlb edirdi.

Aeroportun restoranında alman və italiyan əsirlər xidmət edirdilər. Təyyarə sürən fransalı zabit üzünü bizə tərəf tutub dedi: "Hər kəs öz növbəsində!"

Təyyarə bir saat dayandıqdan sonra Aralıq dənizi üzərindən hərəkətinə davam edib saat 4-də[2] Tunis aeroportu "Əl-Eviniyə"də endi. Gecəni burada qalmalı idik.

## Bunlar azadlıq uğrunda şəhid olmuşlar

Aeroportla şəhər arasında Tunisin böyük xristian və müsəlman qəbiristanları öz xüsusiyyətlərilə bir tərəfdə və minlərcə avtomobil və təyyarə sınıqları o biri tərəfdə nəzəri cəlb edir. Bu qəbiristanlarda üç il bundan əvvəl azadlıq uğrunda şəhid olan xristian və müsəlman əsgərlər yatmışlardır.

Üç il bundan əvvəl "Biyaban qurdu" adlanan general Romel ağır zərbələri qəbul etdikdən sonra şimali Afrikanın Avropa sahillərinə yaxın olan Tunis

[1] 1946-cı ilin 8 avqust günü
[2] günortadan sonra saat 4 nəzərdə tutulur

məntəqəsinə pənah gətirmişdi. Burada “Azad Fransa Ordusu” adlanan xristian və müsəlman əsgərlər axırıncı zərbələri alman komandanlığının yorulmuş ordusuna endirmişlər. Görək, azadlıq uğrunda on minlərcə qurbanlıq vermiş Tunis xalqı bu fədakarlıqdan nə nəticə çıxarmışdır?

Mehmanxananın qapısında “Avenir” (Gələcək) adlı bir dərgi aldım. Bu dərginin içəri səhifələrində ağ yerlər diqqətimi cəlb etdi. Tunisin “Lioti” (Afrikanın böyük hissəsini fəth edən Fransa generalı[1]) adlanan böyük xiyabanında gedərkən, göstərilən dərginin idarəsini görüb bu məchulu həll etmək üçün daxil oldum. Bu demokrat dərginin idarəsində həm fransalı və həm də ərəb (tunisli) var idi. Dərgidə böyük bir hissənin ağ qalmağının səbəbini soruşduqda redaktorların birisi cavab verdi :

– Burada “azadlıq”, “demokratiya” sözləri qadağandır və senzor olur. “Milli” sözləri eşitmək mümkün deyil... “Əzilmiş xalq”, ya “azadlıq qalibiyyəti” kimi cümlələr ali dövlət orqanları tərəfindən çıxarılır... İstismar siyasəti əleyhinə heç bir şey yazmaq olmaz... Dövlət məmurları keçmiş qayda üzrə öz qorxulu missiyalarına davam edirlər...

Budur Tunis xalqının həyat şəraiti dördüncü Fransa Cümhuriyyəti dövründə!...

Redaktor öz qeydlərində tamamilə haqlı idi. Çünki bir neçə gün ondan sonra Parisdə çıxan “So-

[1] Louis Hubert Gonzalve Lyautey

suar" qəzetinin[1] müxbiri cənab J.F.Roland Tunisin vəziyyəti haqqında belə yazmışdı: "Tunisdə senzura bidad edir. Burada təkcə azadlıq və demokratiyaya aid olan istilahlar və kəlmələr senzor olmur, öz əsərlərində azadlıqdan danışan "Valter" (məşhur Fransa yazıçısı) də senzor olur... "Leninizm məsələləri" kimi məşhur siyasi əsərin nəşrinə icazə verilmir və Stalinin "Milli müstəmləkələr" əsərini Tunis mətbuatında çap etmək mümkün deyil... Tunisdə ana dilində, yəni ərəb dilində qəzet yoxdur. Amma müqabilində Vişi hökumətinin[2] nəzarəti altında olan qəzetlər azad surətdə nəşr edilir və Tunis mətbuatında və radiosunda anti-yəhudi təbliğatı davam edir..."

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 57 (346), 10 noyabr 1946***

[1] "Paris-soir"
[2] Alman faşist işğalçılarının Fransa ərazisində mövcud olan hakimiyyəti

## Ərəblər İttihadiyəsi[1] məsələsi şimali Afrikada

Müharibədən sonra şimali Afrikada olan Fransa müstəmləkələrində milli hərəkat genişlənməkdədir. **Tunis və xüsusilə Mərakeş xalqları böyük və qüdrətli bir milli hərəkat yaratmağa müvəffəq olmuşlar.** Əlcəzairdə siyasi səbəblərə görə milli hərəkat göstərilən iki ölkə kimi genişlənməmişdir. Müharibə nəticəsində meydana gəlmiş bu hərəkat Fransa dövlətinin daxili və xarici siyasətində böyük təsir buraxmaqdadır.

Bu keyfiyyət yalnız şimali Afrikada yox, eləcə də Fransanın Uzaq Şərq müstəmləkələrində də görünməkdədir.

Tunisdə mehmanxananın işçilərindən biri məni şəhərin böyük bir mərkəzində qurulmuş yığıncağa apardı. Burada Tunis xalqının hər təbəqəsindən olan adamları görmək mümkün idi. Natiqlər Fransa dövlətinin istismar siyasətinə son qoymaq və müstəqil bir ölkə yaratmaq barəsində danışırdılar. Ərəb dilində qəzet, kitab və mədrəsə tələb edirdilər. Onların bütün tələblərini məntiqi gördüm, amma bir məsələ məni fövqəladə qəmgin etdi: bu hərəkatın başçıları xalqın milli təmayüllərindən istifadə edərək, Fransa istismar siyasətinə qarşı üsyan etdikləri halda, Tunis xalqını ayrı bir istismar siyasətinin qucağına

[1] Ərəb Dövlətləri Liqası

atmaqda idilər. Onların hədəfi Tunisi Ərəb Dövlətləri Liqasına birləşdirmək idi. Bildiyiniz kimi Ərəb Dövlətləri Liqası həqiqətdə milli və istismara qarşı bir hərəkat yox, bəlkə imperializmin ərəb ölkələrində nüfuzunu möhkəmləndirən bir cərəyandır. Ərəb Dövlətləri Liqasının başçıları xalqların sadə hisslərindən istifadə edərək öz məqsədlərinə çatmaqdan ötrü hər cür təbliğat edə bilirlər.

Mən Tunisdə olarkən kütlə içərisində genişlənməkdə olan milli və istismara qarşı hərəkatdən sevindim. Amma hal-hazırdakı zəif Fransa istismar siyasətinin yerinə qüdrətli bir istismar siyasətinin zahir olmasından nigaranlığımı gizlədə bilmədim.

Parisdə olarkən Fransa mətbuatının müstəmləkələrdə meydana gələn milli hərəkat barəsində yazdıqları məqalələri maraqla oxuyurdum. Burada Hind və Çin məsələsi və Fransa dövləti ilə "Hoşimin" arasındakı müzakirələr və imza olunan müqavilə barəsində bəhs etməyə kifayət qədər fürsət olmadığına görə, yalnız Mərakeş məsələsi haqqında danışmaq istəyirəm.

Bildiyiniz kimi Mərakeşdə həmişə Fransa işğalçıları əleyhinə uzun sürən mübarizələr olmuşdur. "Asonsion" adasına sürgün edilmiş Əbdülkərimin Fransa istilasına qarşı mübarizələri unudulmamışdır.

1912-ci ildə "Əlcəziras" müqaviləsinə görə Fransa dövləti Mərakeşi öz himayəsi altına almış və o tarixdən Mərakeşin sultanı Fransanın ali komissarının göstərişlərini icra etməkdə idi. Keçmiş alman impe-

ratoru Vilhelmin Mərakeşə səfəri[1] burada bərbərlər və ərəblər arasında nifaq saldı, bu ölkədə daxili müharibələr üçün müxtəlif əlverişli şərait yaratdı, Mərakeşi üç müxtəlif məntəqəyə böldü (İspaniya Mərakeşi – Beynəlxalq Tanjer məntəqəsi – Cənubi Mərakeş) ki, bu da siyasi və hərbi nöqteyi-nəzərdən bu məntəqənin əhəmiyyətini göstərməyə kifayət edir. O tarixdən bəri, xüsusilə Əbdülkərimin sürgün edilməsindən sonra  Mərakeşdə milli hərəkat aradan getməkdə idi. Son müharibə illərində Mərakeş qüvvələri fransızlar ilə birlikdə Alman və İtaliya əleyhinə müharibələrdə iştirak etmişlər.

Müharibə illərində yeni siyasi şərait, xüsusilə Kasablanka müzakirələrindən sonra (Ruzvelt – Çerçil – De Qol arasında müzakirələr) Mərakeş məsələsi özünə yeni bir siyasi keyfiyyət aldı.  Cənab Ruzvelt Mərakeş sultanı ilə görüşdükdə Mərakeşin istiqlaliyyətinin təmin edilməsini vəd etmişdi. Bu tarixdən Mərakeşdə olan istiqlaltələblər "İstiqlal" adlı bir partiya təşkil etdilər. Bu partiyanın məramnaməsinin birinci maddəsi Mərakeşin istiqlaliyyətinə və ikinci mühüm maddəsi Ərəb Dövlətləri Liqası ilə birləşməsinə aiddir. Mərakeşdə bütün mütərəqqi

---

[1] Alamniya imperatoru II Vilhelmin Mərakeşə bu səfəri 1905-ci ilin yazında baş  vermişdir. II Vilhelm mart ayının 31-də Tanjerdəki  nitqində Mrakeşin müstəqilliyi ideyasını dəstəklədiyini bəyan etməklə, Fransanın bu ölkədəki mövqeyinə əslində əks çıxmışdı. Bu hərkəti ilə Vilhelm göstrmək istəyirdi ki, aralarındakı mübahisələri həll etmiş Britanih ya və Fransa arasındakı ittifaqın onun üçün heç bir əhəmiyyəti  yoxdur.

ünsürlər bu ölkənin istiqlaliyyətini tələb edirdilər. Mərakeş Kommunist Partiyasının heyəti keçmiş avqust ayının 26-da[1] Mərakeş sultanı tərfindən qəbul olunduqda, Mərakeşin müstəqil olmasını açıq şəkildə qeyd etmişlərdir.

İndi Mərakeşdə milli hərəkat ciddi surətdə genişlənmişdir. Amma Ərəb Dövlətləri Liqasına birləşmək xülyası Mərakeşdə olan mütərəqqi demokrat ünsürləri narahat edir. Ərəb Dövlətləri Liqasının nəşrləri sel kimi Mərakeşə axmaqdadır. Burada da Tunis kimi Ərəb Dövlətləri Liqasını öz iqtisadi və siyasi mənafeyi üçün alət edən imperialist siyasəti milli və istiqlaltələb hərəkatı öz əsas hədəfindən azdırmaq fikrindədir.

Mərakeşin Atlantik sahilindəki limanları (port "Lioti" – Kasablanka – Tanjer) Amerika Birləşmiş Ştatlarının gündən günə diqqətini cəlb etməkdədir. Çoxlu həssas yerlərdə ingilislərin canişini olan Amerika dollar siyasəti Mərakeşə müştəri gözü ilə baxmaqdadır.

Ona görə, böyük əhəmiyyətə malik olan Mərakeş məsələsi yaxın gələcəkdə Fransa – İngiltərə və Amerika əlaqələrində böyük rol oynayacaqdır.

*"Azərbaycan" qəzeti, say 58 (347),*
***11 noyabr 1946***

[1] 26 avqust 1946-cı il tarixi nəzərdə tutulur

## Bir saat Mərakeş Istiqlal Partiyasının Parisə göndərilən nümayəndələri ilə

Mərakeş Istiqlal Partiyası Fransa dövlətilə lazımi danışıqlardan ötrü "Ömər Abdulla" adlı bir şəxsin rəyasəti altında bir heyəti Parisə göndərmişdi. Bunlar avqustun 30-da[1] Fransa mətbuat nümayəndələrilə bir müsahibə əsnasında bəyan etmişlər ki, protektorat rejimi altında yaşamaq Mərakeş xalqının tarix, mədəniyyət və heysiyyətinə uyğun deyil və ümid etdiklərini bildirmişlər ki, Fransa dövləti protektorat rejimindən əl çəkib, Mərakeş xalqı və Mərakeş hökuməti üçün vicdanlı bir müşavir olacaq... Fransa Milli Müəssisan Məclisində "Yunion Fransez"[2] məsələsi müzakirə olunarkən bu heyət öz nəzəriyyəsini aydın surətdə Milli Müəssisan Məclisinin deputatlarına bildirmişdir.

Sentyabrın 19-da[3] "Lutsiya" otelində mən bir demokrat qəzet yazarının vasitəsilə Mərakeşin İstiqlal Partiyasının nümayəndə heyəti ilə tanış oldum. Otelin salonunda biz bir saatdan artıq söhbət etdik.

**Azərbaycan hərəkatı haqqında geniş məlumatları var idi. Amma təəccüb edirdilər ki, bir müsəlman millət,** Ərəb Dövlətləri Liqasının **köməyi olmadan necə öz azadlığını əldə etməyə müvəffəq olmuşdur.**

[1] 30 avqust 1946-cı il tarixi nəzərdə tutulur
[2] Union Francaise
[3] 19 sentyabr 1946-cı il tarixi nəzərdə tutulur

Danışıqdan başa düşdüm ki, Mərakeş Istiqlal Partiyası nümayəndələri Ərəb Dövlətləri Liqasının başında duranları və imperialist dövlətlərin planlarını icra edənləri tamamilə tanımamışlar. Məşhur Alman casusu olan "Müfti Əzəm"in keçmişindən bixəbərdirlər. Ərəb Dövlətləri Liqası onların nəzərində böyük bir milli qüvvə kimi görünürdü və ona görə, belə düşünürdülər ki, bütün müsəlman xalqlarının nicatı bu qüvvədən asılıdır.

Mən Ərəb Dövlətləri Liqasının nə olduğunu və həqiqi mahiyyətini onlar üçün izah etdim ki, **hər bir millət həqiqi azadlıq əldə etmək və öz müqəddəratına sahib durmaqdan ötrü yalnız bir qüvvəyə söykənməlidir. O da millətin birliyi və bu birlikdən əmələ gələn qüvvədir.**

İndi hər vaxt fikir edirəm ki, Atlantik okeanının həssas bir məntəqəsində azadlıqdan məhrum edilmiş bir xalq öz azadlığını əldə etmək üçün böyük milli bir qüvvə yaradıb, sevinirəm, amma hər vaxt fikir edirəm ki, imperialist siyasəti təqib edən dövlətlər Ərəb Dövlətləri Liqası, ya dollar siyasətilə bu qüvvəni öz doğru hədəfindən azdırmağa çalışırlar, kədərlənirəm.

## Sülh Konfransının birinci iclası

Səhər saat 7-də Tunis aeroportundan hərəkət etdik. Şimali Afrika məsələsi və azadlığı həsrətlə arzu edən xalqların fikri məni məşğul edirdi.

"Sardiniya" və "Korsika" adalarını keçdikdən

sonra Fransanın cənub sahilləri göründü.

Burada mənzərə tamamilə dəyişirdi. Afrikanın quraq və hamar səhrasına oxşar mənzərəni daha görmək mümkün deyil. Təkcə iqlim şəraiti yox, mədəniyyət də bundan bu yana ayrı xüsusiyyətlərə malikdir. Fransa torpağı yaşıl və çox zəngin görünürdü.

Saat 11-də təyyarəmiz "Burje" aeroportuna yetişdi. Yolçuluğumuz burada qurtarırdı. Polis şöbəsində və gömrükdə lazımi protokol qaydalarını yerinə yetirdikdən sonra böyük "Omnibus"lar[1] ilə şəhərə tərəf yollandıq...



*Paris. Konkord (Concorde) meydanı, 1946-cı il*

**Avqustun 10-da[2] səhər saat 9-da Lüksemburq qəsrində hazır olub xarici mətbuat şöbəsinə müraciət edib və lazımi sənədləri təqdim etdikdən son-**

[1] çoxnəfərlik karetalar
[2] 10 avqust 1946-cı il tarixi nəzərdə tutulur

**ra Sülh Konfransının iclaslarında iştirak etmək üçün xüsusi kartı alıb və o tarixdən konfransın axırına qədər bütün iclaslarda Azərbaycan mətbuat nümayəndəsi kimi hazır olurdum.**



*Firudin İbrahimi Parisdə. 1946*

Paris Sülh Konfransı Fransanın məşhur tarixi qəsrlərindən olan və müharibədən əvvəl Senat məclisi adlanan Lüksemburq qəsrində təşkil olurdu. Qəsr hər tərəfdən silahlı polis qüvvələri tərəfindən mühafizə olunurdu. Qəsr ərazisinə daxil olmaq, ya ərazisi daxilində bir yerdən ayrı yerə getmək lazım-

lı etibarlı sənədlər olmadığı halda qeyri mümkün idi. Şayiədir ki, konfransın ilk günlərində Fələstində böyük təxribatçılıq işlərinə girişən terror dəstələri İngiltərə Xarici İşlər naziri cənab Bevinə məktub göndərmiş və onu ölümlə hədələmişlər. Ona görə, Bevin Parisdə olan zaman həm "Beşinci Jorj"[1] adlı mehmanxana (İngiltərə nümayəndələrinin məskəni), həm də Lüksemburq qəsri ciddi surətdə mühafizə olunurdu.

Bir gün bir fransız jurnalist Sülh Konfransının ümumi iclasında İngiltərə Xarici İşlər naziri cənab Bevini rəyasət mizi dalında mənə göstərib gülə-gülə dedi: "Doğrudan da hədə öz işini görmüşdür!..."

Bevin xüsusilə rəyasət mizi dalında çox həyəcanlı və nigaran görünürdü. Konfransın ümumi iclasları gözəl mücəssimələr və tablolar ilə bəzədilmiş böyük bir "Home skill"də təşkil olunurdu. Mən birinci iclasa daxil olanda, Avstraliya nümayəndəsi Avat danışırdı. O şəxsi gələcək məqalələrdə təqdim edəcəyik.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
***say 59 (348), 12 noyabr 1946***

[1] Four Seasons Hotel George V, Paris



*Paris Sülh Konfransı.*
*2 avqust 1946-cı il tarixli plenar iclas*

## Konfransın müqəddəmati işləri

Paris Sülh Konfransı başlamazdan əvvəl keçmiş iyul ayında[1] dörd böyük dövlətin Xarici İşlər nazirləri Parisdə toplantı təşkil edib, keçmişdə Almaniya ilə müttəfiq olan beş düşmən dövlətlər ilə bağlanacaq sülh müqavilələri barəsində müfəssəl surətdə müzakirələr aparmışlar.

Bu müzakirələrin əsası Tehran, Yalta, Potsdam və Moskva konfranslarında qəbul olunan qərarlar olmuşdur. İyulun 9-da dörd nazirlər heyəti bu qərara gəlmişlər ki, 17 dövlət Sülh Konfransına dəvət olunsun.

Dörd Xarici İşlər Nazirləri konfransında Sülh Konfransının daxili gündəliyi həll olunmalıydı, çünki bu gündəliyi Sülh Konfransının ümumi iclasının öhdəsinə qoymaq, konfransın işlərində təxirə nail ol-

[1] 1946-cı ilin iyul ayı nəzərdə tutulur

maq deməkdir. Dörd nazirlər iclasında bu xüsusda qərar qəbul etmək təbiətən asan idi. Sovet Xarici İşlər naziri Molotovun dörd nazirlər iclasında bəyan etdiyi möhkəm və məntiqi dəlillərə baxmayaraq, məsələ konfransın ümumi iclasına həvalə olunmuşdu.

Konfransın daxili gündəliyi məsələsi çox əhəmiyyətə malik olan bir məsələ olduğu üçün, Sülh Konfransından öz mənfəətlərini təmin etmək və öz iradələrini yeritmək xəyalında olan Amerika və İngiltərə nümayəndələri, bu məsələni öz nöqteyi-nəzərləri ilə həll etmək istəyirdilər.

Daxili gündəlik məsələlərindən çox əhəmiyyətə malik olan bir məsələ də danışıqları və təklifləri təsdiq etmək üçün rəy almaq qaydası idi. Bu xüsusda Molotovun təklifi belə idi ki, qərar qəbul etmək üçün nümayəndələrin üçdə iki əksəriyyəti lazımdır, lakin İngiltərə və Amerika nümayəndələri bu təklif ilə razılaşmamış və axırda bu məsələnin həll edilməsi ümumi iclasın öhdəsinə qoyulmuşdur.

Paris Sülh Konfransı qərar üzrə 29 iyulda[1] təşkil oldu. Birinci iclası Fransa Baş naziri Jorj Bido açmış, lakin iclasları idarə etmək üçün nümayəndələr arasında fikir ayrılığı üz vermişdir. Amerika nümayəndəsi cənab Birns bu xüsusda öz iradəsini yeritməyə can atırdı. Nəhayət, qərar oldu ki, 5 böyük dövlətlərin Xarici İşlər nazirləri iclasları idarə etsinlər.

Konfransın birinci həftəsində 21 dövlətin nümayəndələri ümumi bir şəkildə öz dövlətlərinin

---

[1] 29 iyul 1946-cı il tarixi nəzərdə tutulur

baxışlarını bağlanacaq sülh müqavilələri haqqında bəyan etmişlər. Bu bir həftənin ərzində beş məğlub dövlətlər ilə bağlanacaq sülh müqavilələrinin 4 Xarici İşlər nazirləri tərəfindən hazırlanmış layihələri beş cilddə nəşr oldu. Bu layihələr bir il zəhmətdən sonra hazırlanmış və qəti surətdə icraya qoyulmaqdan ötrü Sülh Konfransının təsdiqinə verilmişdir.



***Parisdə 21 ölkənin iştirakı ilə təşkil olunmuş Paris Sülh Konfransının açılış günü, 29 iyul 1946***

## İş rejimi mübarizəsi

Rəy almaq məsələsi, həqiqətdə demək olar ki, Sülh Konfransın işə başladığı günlərdə böyük maneələr törətmişdir. Bu xüsusda məxsusən Avstraliya

nümayəndəsi Avatın[1] təhrikedici çıxışlarına işarə etməyi lazım görürəm.

Yuxarıda qeyd etdiyimiz kimi, Molotov təklif etmişdi ki, qərarlar nümayəndələrin üçdə iki əksəriyyətilə təsdiq olmalıdır. Bu təklif tamamilə məntiqi bir təklif idi. Fransa Sosialist Partiyasının orqanı "Populer" qəzeti bu xüsusda yazmışdır: "Sadə əksəriyyət qətiyyətlə Sovet dövlətinin zərərinə olacaqdır...". Molotov demişdir: "Bizim rəy almaq qaydası barəsində ciddi fikirlərimiz vardır. Üçdə iki əksəriyyəti tərəfindən alınan qərarlar sadə əksəriyyətin qərarlarından daha dəyərlidir...".



***1946: Paris. Fransa prezidentinin qəbulunda. Soldan sağa: A. Avat - Avstraliya Xarici İşlər nazirinin müavini, Corc Marşal - ABŞ-ın dövlət katibi, Vensan Oriol - Fransanın prezidenti, Ernest Bevin - İngiltərənin Xarici İşlər naziri, A. Y. Vişinskiy - SSRİ Xarici İşlər nazirinin müavini, Robert Şuman - Fransa Xarici İşlər naziri***

[1] Awat

Bu hissədə Amerika və İngiltərə nümayəndələrindən başqa müxalifət edənlərdən Avstraliya nümayəndəsi Avat və Yunan nümayəndəsi Tezaldaris göstərilməlidirlər.

Avat İngiltərə dominionu Avstraliyanın Xarici İşlər naziri "iş rejimi" mübarizəsində sadə əksəriyyətin müvafiq nəticələrini öz ağaları olan anqlo-saksonların xeyrinə nəzərə alaraq, üçdə iki əksəriyyətilə kəskin surətdə müxalifətə başlayıb və Sovet nümayəndələri əleyhinə bir daimi əksəriyyətin yaradılması planından açıq surətdə tərəfdarlıq etdi. Avstraliyada həqiqi hökm sürən 7 məşhur beynəlxalq Trotların[1] nümayəndəsi olan Avatın bu təhrikedici təklifini Hollandiya, Cənubi Afrika və Yunan nümayəndələri də müdafiə etdilər. Çox təəssüflə demək lazımdır ki, İngiltərə və Amerika nümayəndələri iki həftə bundan əvvəl qəbul etdikləri qərara (üçdə iki əksəriyyətə) etinasız baxmaqla, Sülh Konfransının işlərində sabotaj etmək xəyalında olmaq niyyətlərini açıqladılar.

Nəhayət, rəy almaq qaydası barəsində iş rejimi qəbul etmək və konfransın daxili işlərinin gündəliyinə yetişmək üçün bir komisyon seçildi. Bu komisyonun da [1946-cı il] iyulun 30-dan avqustun 9-a qədər davam edən müzakirələrdə Sovet nümayəndələr heyətinin rəisi Molotovun məntiqi və möhkəm dəlillərinə rəğmən, Ukrayna, Yuqoslaviya və Polşa nümayəndələrinin çıxışlarına qarşı komisyon nisbi əksəriyyəti qəbul etdi.

[1] International Trot – beynəlxalq vaşaqlar mənasında

**Avqustun 10-da mən birinci dəfə Sülh Konfransının ümumi iclasında hazır olan zaman Avstraliya nümayəndəsini bir təhrikedici və "demaqoq" nitq söyləyərkən gördüm.**

Bu toplantıda konfransın ümumi iclası dəlil və məntiq üzrə deyil, iradəsiz və həqiqi istiqlala malik olmayan dövlətlərin nümayəndələrinin rəyləri ilə nisbi əksəriyyəti qəbul etdi. Bu yolla Sülh Konfransının etibarına birinci ağır zərbə dəydi.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
*say 60 (349), 15 noyabr 1946*




*Kanada nümayəndələri Paris Sülh Konfransında (29 iyul - 15 oktyabr, 1946), Lüksemburq Sarayı (soldan sağa): Norman Robertson, Villiam Lyon Makenzie King, Brooke Klakston, Arnold Haney*

# Nə üçün konfrans iki ay yarım davam etdi?

Paris Sülh Konfransı 29 iyuldan 15 oktyabra qədər[1], yəni iki ay yarım davam etdi. Amma konfrans təşkil olunan zaman siyasi və mətbuat dairələrində xəyal edirdilər ki, konfransın müddəti maksimum bir aydan artıq davam etməyəcəkdir. Çünki 5 məğlub dövlətlərlə bağlanacaq sülh müqavilələri böyük zəhmətlərdən sonra 4 xarici işlər nazirləri konfranslarında hazırlanmış və buna əsasən əsas məsələlər həll edilmişdir, lakin sülh layihələri nəşr olunduqdan sonra məlum oldu ki, bəzi məsələlər qəti surətdə həll edilmişlərsə də, bir neçə əhəmiyyətli məsələlər tamamilə həll edilməmiş və 4 xarici işlər nazirləri konfranslarında bu məsələlər haqqında fikir razılığı hasil olmamışdır. 4 böyük dövlətlərin xarici siyasətlərinin əsas mahiyyətilə əlaqədar olaraq bu məsələlər Sülh Konfransının daha çox əhəmiyyətə malik olan məsələlərini təşkil etmiş və demək olar ki, konfransın işləri bu əsas sütun üstündə cərəyan etmişdır.

**Ona görə bu qeydlərdə mən Konfransdan əvvəl həll olunan və Konfransın səlahiyyətdar komisyonlarında və ümumi iclaslarında qəbul edilən mövzular barəsində yox, böyük dövlətlərin xarici siyasətlərində və Sülh Konfransının ümumi cərəyanında əsas yer tutan məsələlər haqqında danışacağam.**

---

[1] 1946-cı ilin 29 iyulundan 15 oktyabrına kimi

Eyni zamanda bu məqamı qeyd etmək lazımdır ki, dörd böyük dövlətlərin xarici siyasətlərinə rəhbərlik edən əsas amilləri bilmədən və tanımadan bu məsələləri düşünmək olmaz.

Müharibədən sonra, müharibə dövründə böyük müttəfiq dövlətlərin son qələbəyə rəhbərlik edən möhkəm və sıxı münasibətlərində bəzi dəyişiklik olmuş və bu dəyişiklik bəzi mövqe ixtilaflarına səbəb olmuşdur. Sülh Konfransı təşkil olmadan əvvəl, ya Sülh Konfransının fəaliyyətə başladığı zaman və xüsusilə avqust ayı ərzində (4 Xarici İşlər nazirlərinin iclasına qədər) bir qrup müharibə dəllalları, aldadıcı Qərb demokratiyası pərdəsi dalında fəaliyyət edən və beynəlxalq "kartel"lərin, ya "trost"ların planlarını icra edən köhnə diplomatlar bu fikir ayrılığından istifadə edərək sülh işlərini pozmaq məqsədində idilər. Ona görə lazım görürəm ki, Sülh Konfransının əsas məsələlərinə işarə etməkdən əvvəl oxucuları sülh layihələrini hazırlayan 4 böyük dövlətlərin xarici siyasətlərilə tanış edəm.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
***say 61 (350), 17 noyabr 1946***

## **İngiltərə nümayəndələri sülh konfransında**

Müharibədn sonra İngilistanda hökumət zahirən Mühafizəkarlar Partiyasından Fəhlə Partiyasına keçdi. İngilistanın daxili siyasətində bir neçə cüzi dəyi-

şikliyə səbəb olan bu zahiri dəyişiklik İngiltərə xarici siyasətində heç bir dəyişikliyə səbəb olmamışdır.

Yeni İngiltərə hökuməti Atlantik Xartiyasına və Birləşmiş Millətlər Nizamnaməsinə və bu nizamnamələrə görə bütün xalqlara verilən azadlıq və öz iradələri ilə hökumət qurmaq haqqına, faşizm və onun bütün təzahürünə qarşı amansız olmaq qərarlarına rəğmən, keçmiş hökumətin imperialist siyasətini davam etdirərək, əzilmiş xalqların boğazından çıxan azadlıq səslərini, mütərəqqi xalq hərəkatını boğmağa və aradan aparmağa davam etdi və faşist hökumətlərini (İspaniyada, Yunanıstanda), ya faşist təşkilatlarını (xain Lehistan generalı Andersi – İtaliyada neofaşistləri) öz himayəsi altına aldı və mütərəqqi xalq hərəkatlarını İndoneziyada, Yaxın və Orta Şərqdə məhv etməyə başladı.

İngiltərə hökuməti müharibədən sonra faşist Almaniyasının istilası, ya nüfuzu altında əzilib aradan getməkdə olan ölkələr və xalqlar arasında həqiqi demokratiya hərəkatının genişləndiyini gördüyü halda, bu qüdrətli hərəkatı dayandırmaq və geri qaytarmaq istəyirdi. Burada biz İngiltərə hökumətinin dünyanın müxtəlif nöqtələrində apardığı siyasət barədə bəhs etmək istəmirik, əksinə, İngiltərə nümayəndələrinin Paris Sülh Konfransındakı təqib etdiyi hərəkət xətti ilə əlaqədar olaraq, o dövlətin Avropa siyasəti barədə danışmalıyıq.

Sülh Konfransının əvvəlində İngiltərə hökuməti Avropada öz tənəzzüldə olan prestijini artırmaqdan

ötrü Baş nazir Etlini İngiltərə nümayəndə heyətinin başçısı təyin etmişdi. Buna görə İngiltərə Xarici İşlər naziri Bevin avqustun 12-dən qabaq Parisdə hazır ola bilməmişdi.

Etli və Bevin Fəhlə Partiyası adından İngilistanda hökumət edirlər. Amma həqiqətdə bunlar imperialist planların icraçılarıdılar. Keçmiş oktyabr[1] ayının əvvəlində İngilistan Fəhlə Partiyasının qurultayında indiki hökumətin faşist İspaniyası haqqında siyasəti gözlənilməz bir əksəriyyət və böyük bir həyəcan və nifrətlə rədd edildi. Bu isə onu göstərir ki, Bevinin xarici siyasətdə təqib etdiyi hərəkət xətti İngilistan milləti tərəfindən təsdiq olunmur.

Bu məğlubiyyət mütərəqqi hərəkatları boğmaq fikrində olan və imperialist planları, hər cür olur olsun, həyata tətbiq etməyə çalışan İngiltərə diplomatları üçün mənalı bir cavabdır.

## İngilislər Avropada

Oktyabrın 23-də İngiltərə Xarici İşlər naziri Bevin İngiltərə hökumətinin ümumi siyasəti barəsində İcmalar palatasında bir hesabat verdi. Bu nitq Amerika Xarici İşlər naziri Birns və Sovet Xarici İşlər naziri Molotovun nitqlərindən sonra (onlara) irad olduğuna görə, Bevinin ən mühüm nitqi hesab edilirdi. Bu nitqdə demək olar ki, **Bevin İngiltərə hökumətinin siyasətini Uzaq Şərqdə İndoneziya və**

[1] qeydlər 1946-cı ilin noyabr ayında yazıldığı və çap olunduğu üçün F.İbrahimi "keçmiş" ifadəsini işlətmişdir

**Çin haqqında, Yaxın və Orta Şərqdə İran, Fələstin və Dardanel barəsində və Avropada Alman, Avstriya, Fransa, Triyest və Yunan xüsusunda şərh edir**. Burada biz ingilislərin Avropa ölkələrində irəli sürdüyü siyasət haqqında danışacağıq.

Ümumiyyətlə, Bevinin nitqindən belə məlum olur ki, İngiltərə dövlət xadimləri keçmiş dünya müharibəsindən sonrakı dövrdə məğlub Almaniya barəsində işlətdikləri siyasi səhvlərdən ibrət almamışlar.

Çünki Bevin öz məruzəsində Birnsin Ştudqartda Almaniyanı "qüdrətləndirmək" xüsusunda söylədiyi təhrikedici fikirlərini təsdiq edərək, Almaniyanın iqtisadi gələcəyi haqqında demişdir: "Biz Potsdam müqaviləsinin İngilistan üçün əlverişsiz olan maddələrini icra etməyə hazır deyilik. Biz Almaniyanın gələcəkdə Avropanın iqtisadi həyatında öhdəsinə götürdüyü böyük və əhəmiyyətli rola inanırıq…"

Potsdamda Almaniyanı demokratikləşdirmək və Almaniyada nasizmi kökündən qazımaq barədə qəbul olunan qərarları qəsdən icra etməmək, social-demokrat maskası altında keçmiş faşist dəstələrini - "SS" və "SA"ları məşhur mürtəce Şumaxerin rəhbərliyi altında mütərəqqi fəhlə hərəkatına qarşı mübarizə etmək məqsədilə təchiz etmək tamamilə isbat edir ki, İngiltərə hökuməti Birinci dünya müharibəsindən sonrakı dövrdə Hitleri gücləndirmək və Almaniyanın ağır sənayesini bərpa və qüdrətləndirmək siyasətini yenidən təqib və təkrar etməkdədir.

Almaniya məsələsi Avropa təhlükəsizlik məsələsi hesab olur. Avropanın sülhsevən xalqları anqlo-saksonlar Almaniyasında hökm sürən hazırkı şəraitdən vəhşətdədirlər. Almaniya bu xalqlar üçün həmişə bədbəxtlik və müsibət mənbəyi olmuşdur. Ona görə bu məğlub edilmiş birincinin dişlərini çəkmədən onu azad surətdə buraxmaq dünya üçün yeni bədbəxtliklər və yeni müsibətlərin yaradılmasına imkan vermək deməkdir.

İngilis siyasəti Avstriyanı (Otriş) Mərkəzi Avropada daimi xaos mərkəzinə çevirmək istəyir və Avstriyada xalqını, xüsusilə mütərəqqi fəhlə hərəkatını boğmaq nəticəsində bu ölkənin Hitler Almaniyasının qucağına düşməsinə əlverişli şərait yaradan Şuşnik kimi inanılmış amilləri gücləndirmək və onlar üçün azad fəaliyyət mühiti yaratmaq anqlo-saksonların bu xətərli mövqelərini isbat etməkdədir.

İngiltərə hökuməti müharibədən əvvəlki dövrdə Balkan ölkələrində apardığı siyasətdən əl çəkmək istəmir. Müharibədən əvvəl Avropanın bu mühüm məntəqəsi ingilislər üçün iqtisadi baxımdan böyük və mənfəətli bir bazara, siyasi baxımdan Sovet dövləti əleyhinə həssas dayaqlara və bazalara çevrilmişdi. Müharibə dövründə bu ölkələr Almaniya tərəfindən işğal və ağır müsibətlərə məruz qalmışlar.

Müharibədən sonra bu ölkələrdə əzilmiş xalqlar demokratik hökumətlər yaratmağa müvəffəq olmuşlar.

İndi xalqların azadlığına qarşı baş qaldıran siyasətçilər bu vəziyyəti görmək istəməyib, burada öz keçmiş mövqelərini əldə etmək üçün çalışmaqdadırlar.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
***say 62 (351), 18 noyabr 1946***

| **Ölkə** | **Paytaxtı** | **Ərazisi (km²)** | **Ölkə əhalisi** |
|---|---|---|---|
| Albaniya | Tirana | 28.748 | 2.831.741 |
| Bosniya və Herseqovina | Sarayevo | 51.197 | 4.613.414 |
| Bolqarıstan | Sofiya | 110.879 | 7.351.234 |
| Xorvatiya | Zaqreb | 56.594 | 4.290.612 |
| Monteneqro | Podqorica | 13.812 | 620.145 |
| Kosovo | Priştina | 10.887 | 1.733.872 |
| Makedoniya | Skopye | 25.713 | 2.052.722 |
| Rumıniya | Buxarest | 238.391 | 21.498.616 |
| Serbiya | Belqrad | 77.474 | 7.120.666 |
| Sloveniya | Lyublyana | 20.273 | 2.056.262 |
| Türkiyə | Ankara | 783.562 | 74.724.269 |
| Yunanıstan | Afina | 131.957 | 11.305.118 |

***Balkan ölkələri***
***(bölgü və rəqəmlər günümüzə aiddir)***

## Yunanda nə keçir?

Yunan hadisəsi iki il bundan əvvəldən dünyanın ən təsiredici hadisələrinin birini təşkil etməkdədir. İki ildir qədim və parlaq mədəniyyətə malik olan bu ölkədə yunan xalqı ingilislərin müdaxiləsi nəticəsində qan dəryasına çevrilmiş bu məntəqədə yaşamaqdadırlar.

İtaliya və Almaniyanın faşist orduları Yunan demokrat qəhrəmanlarının müqaviməti sayəsində məğlub olarkən, İngiltərə qüvvələri Yunan limanlarında enib, alman və italyan işğaıçıları ilə həmkarlıq edən alçaq ünsürləri yenidən siyasi işlərə təhkim edib, xalqın müqəddəratını onlara tapşırdılar. Yeni faşist Yunan hökuməti ingilislərin açıq-aşkar himayəsi nəticəsində öz mövqelərini möhkəmləndirdikdən sonra mütərəqqi xalq hərəkatını boğmağa başlamışlar. İki ildən bəri Yunanda hökm sürən qanlı hadisələr İngiltərə xarici siyasətinin ən çirkin qiyafəsini göstərməkdədir. Vaxtilə Çerçil və İden, indi də Etli və Bevin Yunanıstanın işlərinə müdaxilə etmək nəticəsində yüz dəfələrlə İcmalar Palatasında demokrat deputatların həmlələrinə məruz qalmış, amma bu alçaq siyasətdən əl çəkməmişlər.

Bevin oktyabrın 23-də[1] söylədiyi nitqində Yunan hadisələrinə işarə edərək demişdir : “Biz bu qədər silahdaşlıqdan sonra Yunanı öz halına qoya bilmərik... Gərək Yunanda xarici müdaxilələrə son qoyul-

[1] 23 oktyabr 1946-cı il tarixi nəzərdə tutulur

sun!..” Əcəba, Yunanın xarici işlərinə hansı xarici dövlət müdaxilə etməkdədir? Bu sualın cavabı demokrat deputatlar tərəfindən verilmişdir: “Yunanı öz halına qoyunuz...”. Bevin bu şiddətli müstəqim həmlədən iztiraba düşərək, “mən, yaxud hökumət Yunan işlərinə müdaxilə etmirik. Mən bu hərəkətləri təkzib edirəm... Biz qoşunlarımızı tezliklə Yunandan çəkmək xəyalındayıq” demişdir.

Bevinin bəyanatı hansı dərəcədə həqiqətə uyğundur? Aya, İngilis demokrat deputatları dediklərində haqlıdırlarmı?

Bütün dünya bilir ki, əgər İngiltərə qoşunları Yunanda olmasaydılar, əgər İngiltərə hökuməti Tezaldarisin faşist hökumətindən himayət etməsəydi, əgər Çerçilin yolu ilə gedən Bevin Yunan xalqı tərəfindən iki dəfə sürgün edilmiş sabiq Prussiya zabitini (Yunan kralını) yenidən Yunan xalqına hakim təyin etməsəydi, Yunandakı indiki terror şəraiti yaranmazdı və bu qanlı faciənin məsuliyyəti ingilislərə aid olmazdı...

Əsl mətləb burasındadır ki, İngiltərə hökuməti özünün artıq dərəcədə silaha sarılmış ordularını Yunan padşahını xalqa hakim təyin etdikdən sonra da bu ölkəni boşaltmaq istəmir.

Tezaldaris açıq surətdə Amerikanın dollar və atom siyasətinə və İngiltərənin silahlı qüvvələrinə arxalanaraq təkcə Yunanda azadlıq və demokratik hərəkatı boğub, vətənpərvər ünsürləri sürgün, terror və zindana salmaqla kifayətlənmir, eyni zaman-

da da Sülh Konfransında və yaxud Bolqar və Albaniya sərhədlərində bu iki millətə qarşı heç bir provokasiyadan çəkinmir.




***Paris Sülh Konfransı (29 iyul - 15 oktyabr, 1946). Yunanıstan nümayəndəsi Rodop dağlarına (Bolqarıstan) iddia edir.***

Bildiyiniz kimi, oktyabr ayının əvvəlində Yunanda rejim barəsində “referendum” keçirildi. Tezaldaris hökuməti terror və təzyiq sayəsində Yunan xalqının yüzdə altmış rəylərini əldə etməyə müvəffəq oldu. O tarixdən bəri İngiltərə kralının yaxın qohumu, keçmiş Prussiya zabiti Jorj doktor Georq özünün etimadlı tərəfdaşı olan faşist Tezaldaris

hökuməti ilə əlbir olub Yunanı "demokratlardan təmizləmək" siyasətini icra etməkdədir və hər gün vətənini qəhrəmancasına italyan və alman işğalçılarından azad edən yüzlərcə demokrat ünsürlər aradan gedirlər.

Mən Parisdə olarkən heç bir qəzetdə, hətta sağ qəzetlərdə Yunan hökumətinin rəhmsizcəsinə icra etdiyi siyasətə tərəfdar görə bilmədim. Yunan nümayəndələrinin başçısı Tezaldaris Sülh Konfransında Avstraliya nümayəndəsi ilə birlikdə istismarçı siyasətin "vasitələri" rolunu ifa etməkdə idi. Bir gün konfransın ümumi iclası təşkil olmadan əvvəl salonda "Umanite"[1] qəzetinin siyasi redaktoru Man Bon, Yuqoslaviya "Nanberq" xəbər müxbiri Saviç və "Unita" qəzetinin müxbiri italyan Kavalo kimi jurnalistlər ilə birlikdə Yunan vəziyyəti barəsində danışırdıq. O günlərdə məşhur Yunan demokrat jurnalisti Vialis Yunan terrorçu hökuməti tərəfindən öldürülmüşdü.

Bu əsnada italyan yoldaşımız salonun bir guşəsində bir dəstəni göstərib dedi:

"General Zervas adlı bu şəxs məşhur Yunan faşisti və sabiq italyan casusudur ki, indi Yunanda istila dövründə almanlar və italyanlar ilə həmkarlıq edən ünsürlərdən qüdrətli bir dəstə təşkil edib. Bu dəstə Tezaldaris hökumətinin terror planlarının icraçılarıdırlar.

[1] Humanite

“Kutas” adı və casusluq maskası altında Yunanda xətərli fəaliyyətlər edən general Zervas keçmişdə öz vətənini alman və italyan işğalçılarına təqdim edərək onlar ilə həmkarlıq etmiş və indi yenidən Yunan xalqının cəlladı olmuşdur. Bu şəxs Epir məntəqəsində qonşu Albaniya sərhədlərində geniş intriqalara girişmişdir və bu şəxsin əməliyyatı ilə son günlərdə Albaniya sularında üz verən anqlo-sakson gəmiləri hadisəsi arasında açıq bir əlaqə görmək mümkündür.

*“Azərbaycan” qəzeti (ADF orqanı),*
*say 63 (352), 19 noyabr 1946*






*1946. Paris Sülh Konfransında müzakirə mövzusu olan Dunay çayı*



## Məqsəd nədir?

Bir nəfər jurnalist İngiltərə hökumətinin Yunanda təqib etdiyi siyasəti Mussolininin İspaniya haqqında icra etdiyi siyasətlə müqayisə edərək yazmışdır: "İngiltərə sosialist naziri Bevin Tezaldarisi gücləndirməklə Mussolininin Franko barəsində öhdəsinə götürdüyü vəzifəni daşımaqdadır".

Yunanın daxili vəziyyəti demokrat və sülhsevən dünyanın diqqətindən gizli qalmışdır. Dünya mədəniyyətinin və ümumi sülhün dayağı olan Sovet hökuməti Yunanda hökm sürən dözülməz şərai-

tin üstündən pərdəni qaldıraraq Yunan məsələsini Təhlükəsizlik Şurasında gündəmə gətirməyə cəhd etmişdir. Ukrayna Xarici İşlər naziri Manuilskiy bu məsələni Təhlükəsizlik Şurasının proqramında yerləşdirməkdən ötrü Parisdən Amerikaya getmişdir.

Paris Sülh Konfransında Sovet hökumətinin bu alicənab hərəkəti humanist, sülhpərvər və azadlıqsevər nümayəndələr və jurnalistlər arasında böyük razılıq törətmişdir.

Gün olmaz ki, dünya demokrat qəzetlərində Yunanda keçən faciəli, dəhşətli hadisələr barəsində məqalələr, əkslər və müvafiq xəbərlər nəşr olmasın.

Sentyabrın 12-də Yuqoslaviyanın fövqəladə və səlahiyyətli səfiri Parisdə bir geniş mətbuat konfransında Yunan terroristləri barəsində etibarlı və mötəbər sənədlər təqdim edərək qeyd etdi ki, Ynanda 15 min silahlı terrorist fəaliyyətdədir.

Amma İngiltərə hökuməti nəinki Yunandan əl çəkmək və bu ölkəni tərk etmək xəyalında deyil, həm də öz ordularını şimali Yunana göndərmək və Albaniya sərhədlərində cəmləşdirməklə geniş planlarını açıqlamaqdadır.

Əgər Sülh Konfransında Yunan dövlətinin qonşu Bolqar və Albaniya əleyhinə apardığı fitnəli təxribatlara baxılarsa, əgər bu konfransda anqlo-sakson nümayəndələrinin Balkanda yaranan demokratik hərəkata və demokratik dövlətlərə qarşı tutduğu yola diqqət verilərsə və bu nümayəndələrin təklifləri üzrə Dunay çayına beynəlxalq status verilməsi

və bu yolla Balkan ölkələrinin istiqlalının pozulması nəzərə alınarsa, anqlo-saksonların məqsədləri məlum olar.

Ayrı bir mühüm məqsəd Dardanel məsələsini ayırmaqla aşkar ola bilər.

İngiltərə qüvvələri Yunanda olmaqla təkcə şərqi Aralıq dənizini, xüsusilə Süveyş kanalını kontrol etmir, həm də Dardanel və Bosfor boğazlarını da müstəqim surətdə kontrol etməkdədir.

**Buradan anlamaq olar ki, Türkiyə dövləti nə üçün Sovet hökumətinin məntiqi təklifinə cavab verməkdən əvvəl, boğazlar məsələsi xüsusunda İngiltərə hökuməti ilə müşavirə etməyə və o dövlətin mənafeyini qorumağa maraq göstərir.**

İngiltərə hökuməti Yunanda "monarxo-faşist" dəstələrinin hakimiyyətini möhkəmləndirmək və gücləndirməklə Yunanıstanı göstərilən siyasi, hərbi və iqtisadi hədəflərə yetişmək üçün baza kimi seçmişdir.

## Avropa Birləşmiş Dövlətləri nə deməkdir?

Avropa Birləşmiş Dövlətləri planı müharibədən sonra qaldırılmasına baxmayaraq, yeni bir məsələ deyil. Bu həmin müharibədən əvvəlki "Münix" siyasətidir ki, müharibədən sonra yeni formada ortaya çıxmışdır. Amma Avropanı həmin uçuruma sövq etməkdədir.

"Münix" siyasətinin tərəfdarları yeni Çexoslovakiyanı parçalayıb və iki əlli Hitlerə təqdim edən və bu yolla təkcə Avropanı yox, həm də bütün dünyanı qorxulu təhlükəyə məruz qoyan siyasətçilər hələ də aradan getməyib və "Qərbi Avropa bloku" ya "Avropa Biləşmiş Dövlətləri" planını təqib etmək və onun həyata keçirilməsi üçün çalışanlar, Sovet dövlətinə qarşı təbliğat aparmaqdadırlar.

**Bunlar bir az da öz planlarından yuxarı gedib, təkcə Sovet hökumətini Avropa işlərindən uzaq saxlamaq istəmirlər, həm də "Sovet mədəniyyətini" "Avropa mədəniyyətindən" ayırmaq istəyirlər.**

Məşhur Sovet yazıçısı və Fransa xalqının məşhur dostu İlya Erenburq Parisdən ayrılarkən "səfirlər klubu" tərəfindən düzənlənmiş böyük bir yığıncaqda Fransa xalqının əsas təbəqələrinin nümayəndələri qarşısında "Mədəniyyət və sovetlər ittifaqı" xüsusunda məruzəsində qüdrətli bir məntiq ilə bu planı ifşa edərək gurultulu alqışlar arasında dedi: "Mədəniyyət bir ölkəyə, yaxud bir millətə aid ola bilməz. Mədəniyyət inhisarda saxlamalı, ya gizlətməli bir şey deyil. Böyük rus xalqının dünya, xüsusilə Avropa mədəniyyətinə bö-



*İlya Erenburq.*
*1891-1967*

yük təsiri olmuşdur və habelə rus xalqı avropa mədəniyyətindən geniş surətdə istifadə etmişdir.

Ona görə “Qərb mədinyyəti”, “Avropa mədəniyyəti”, “Atlantik mədəniyyəti”, “Şərq mədəniyyəti” demək olmaz... Biz əminik ki, Tolstoy dünya mədəniyyətinə atom bombasından artıq xidmət etmişdir...” (*uzun sürən gurultulu alqışlar*).

Burada qeyd etmək lazımdır ki, bu kimi “antisovet” planların xalqlar içərisində heç bir tərəfdarı yoxdur. Bu planları irəli sürənlər çerçillər, idenlər və birnslər və bevinlər kimi müharibə dəllallarıdırlar.

***“Azərbaycan” qəzeti (ADF orqanı), say 64 (353), 20 noyabr 1946***

## Çerçil Hitlerin taxtında

Müharibə dəllalları keçmiş sentyabr ayında öz fitnəli propaqandaları üçün geniş bazar yaratmış və var qüvvələri ilə öz kəsif məqamlarını hərraca qoymuşlar.

Sentyabrın 19-da[1] Vinston Çerçil Sürix universitetində bir məruzə etmiş və bütün ürək sözlərini son dərəcə mükəmməl mikrofonlar vasitəsilə dünyaya bildirmişdir.

[1] 19 sentyabr 1946-cı il tarixi nəzərdə tutulur




*Sürix Universiteti*



Bu sözlər Paris Sülh Konfransında olan 21 dövlət nümayəndələri və bütün dünya mətbuat nümayəndələrinin də qulaqlarına yetişdi.

Çerçil öz planını belə bəyan etmişdi: "Bu gün mən sizin üçün Avropa faciəsi haqqında danışmaq istəyirəm. Bu nəcib qitə dünyanın ən mədəni bir hissəsini təşkil edir.

**Bura Qərb millətlərinin məskəni və bütün ali irqlərin beşiyidir**...

... Biz Avropada sülh və təhlükəsizlik şəraiti yaratmalıyıq. Ona görə **"Avropa Birləşmiş Dövlətləri"** kimi bir qurum yaratmalıyıq... Almaniyanı da yeni hücum qüvvəsindən məhrum etmək lazımdır. Amma **gərək keçmişi yaddan çıxardıb və cəzadan vaz keçək**... Birinci addım Avropa daxilində yaşayan ailənin əsasını möhkəmləndirmək üçün **Fransa və Alman arasında ittifaq yaratmaqdır**... Əgər biz

Avropa Birləşmiş Dövlətlərini təşkil etməliyiksə, gərək təcili işə başlayaq. Çünki indi **"Atom bombası"** ixtiyarımızda var və bu əziz fürsəti əldən verməməliyiz...".

Çerçilin bu məruzəsində Avropanın gələcək səadəti üçün hər bir şey tapmaq mümkündür. Bu məruzədə Hitlerin çürümüş baxışlarını, "Avropa ailəsi", "Qərbi Avropanı bolşevizm təhlükəsindən xilas etmək" haqqında və Münix siyasəti tərəfdarlarının **"Almanı azad və öz halına qoymaq"** barəsində sözlərini görmək və oxumaq olar.

Qoca tülkü öz fitnə törədən nitqində Vatikanın diktə etdiyi sözləri, müharibə tələb edən trostların arzularını tamamilə yaxşı və aydıncasına bəyan etmişdir. Rozenberq və Gebbelsin "irqi üstünlük" barəsində nəzəriyyələrini indi müharibə dövründəki İngiltərə Baş nazirinin ağzından eşitmək olur.

Rozenberq bu nəzəriyyələri icra etmək məqsədilə törətdiyi cinayətlərə görə ölüm cəzasına məhkum edildi və asıldı. Amma dünyanın sülhünü və təhlükəsizliyini pozmağa çalışan və həmin faciələrin yenidən təkrar edilməsinə səbəb olan çerçillər azad surətdə fəaliyyət göstərməkdədirlər və onların bu kimi cinayətkar sözlərini hər gün bir şəhərdən və hətta İngiltərə parlamentindən eşitmək olur.

Çerçil bu mənhus missiyanı yerinə yetirməkdə tək deyil, onun yaxın həmkarlarından Antoni İden və marşal Esmotz[1] da bu işdə onun təsirli köməkçiləri hesab olunurlar.

[1] Yan Smets

Neçə gün bu hadisədən sonra sentyabrın 23-də[1] sabiq İngiltərə Xarici İşlər naziri İden Vanfurtda[2] nitq edərkən "Birləşmiş Avropa Dövlətləri" planını yenidən təklif və bu planın icra edilməsini tələb etdi. İden xüsusilə qeyd etdi ki, "Avropa Birləşmiş Dövlətlərinin yaranması Qərbi Avropada olan dövlətlərin müştərək və xüsusi mənafeyini qorumaq üçün mütləq və zəruridir..."

Eyni zamanda İden Yunanda, Fələstində, Hindistanda, İranda, İndoneziyada keçən hadisələri unudaraq, İngiltərə hökumətinin "imperialist" siyasəti yeritdiyini təkzib etmişdi.

İngiltərə Mühafizəkarlar Partiyasının liderlərindən sonra Cənubi Afrikanın Baş naziri adlanan marşal Esmotz da Qərbi Avropanın ziyarətinə gələrkən İngilistanda (İrvin şəhərində), Parisdə və xüsusilə Hollandiya parlamanında söylədiyi nitqlərdə həmin fikirləri və həmin planları təbliğ etməyə başlayıb və anqlo-saksonların əsas planlarını Almaniyanı gücləndirmək barəsində aydıncasına şərh edərək, "Almaniyanı tezliklə bərpa etmək və bu dövlətlə Fransa arasında möhkəm dostluq əlaqəsi yaratmaq təcili və qüvvətli bir məsələdir" – demişdir.

Esmotz öz nitqində Avropa Birləşmiş Dövlətləri planını daha aydın söyləmişdir. Onun əqidəsinə görə (məqsəd ağasının əqidəsidir), "Avropanın bu mühüm həyati işindən ötrü nə üçün Böyük Britani-

[1] 23 sentyabr 1946-cı il tarixi nəzərdə tutulur
[2] Çox güman ki, müəllif Frankfurt şəhərini nəzərdə tutur

ya başda olmasın? Onun heç bir xüsusi məntiqi və baxışı olmadığına görə, hər bir istənilən sifətlərə[1] malik olduğu üçün, bu böyük vəzifəni öhdəsinə götürməyə səlahiyyəti vardır. İngilis imperatorluğu bu üzdən də millətlər arasında əlaqə yaratmaq üçün bir model və nümunədir..."

Biz Sülh Konfransında bu sözləri eşidərkən Qərbi Avropanın millətlərini aldatmaq üçün necə boş və mənasız sözlər ilə təchiz olmuş bu siyasi "kukla"ların bəyanatlarına gülürdük.

* * *

Bevin İngiltərə xarici siyasətini tamamilə Çerçilin baxışlarına uyğun olaraq təqib edir. Ona görə İngiltərə Fəhlə Partiyası adından hökuməti idarə edən Etlinin xarici siyasətilə Çerçil hökumətinin xarici siyasətində heç bir ixtilaf görmək mümkün deyil.

Son günlərdə Bevin parlamentdə öz siyasəti barəsində danışarkən müxalif partiyanın güvənini tamamilə əldə edə bildi və Mühafizəkarlar Partiyasının liderləri öz nəzəriyyələrinin həyata tətbiq olduğunu gördükdə, Bevini tənqid yox, əksinə, alqışlamış və tərifləmişlər.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
***say 65 (354), 21 noyabr 1946***

[1] "Keyfiyyət", "xüsusiyyət" mənasında işlənmişdir



*ABŞ prezidenti Franklin Ruzvelt*
*(4 mart 1933 — 12 aprel 1945)*



*ABŞ Prezidenti Harri Trumen*
*(12 aprel 1945 — 20 yanvar 1953)*

## Amerika Birləşmiş Ştatları Sülh Konfransında

Paris Sülh Konfransında Amerika nümayəndələrinin təqib etdiyi siyasət o dövlətin beynəlxalq mühitdə və xarici siyasətdə apardığı siyasətlə əlaqədardır. Ona görə Sülh Konfransında Amerika nümayəndələrinin irəli sürdüyü siyasəti düşünmək üçün bu dövlətin xarici siyasəti haqqında danışmalıyıq.

Amerika nümayəndələr heyətinə Paris sülh konfransında Xarici Işlər naziri Birns[1] başçılıq edirdi.

Cənab Trumenin prezidentliyi dövründə Xarici İşlər naziri Stettiniusun[2] yerinə təyin olunan Birnsi mən çox əsəbi və az hövsələli bir şəxs gördüm. Bu şəxs Sülh Konfranslarının ümumi iclaslarını idarə edən zaman daima rəyasət mizinin üstündəki çəkic və ya zəng ilə oynayırdı və xitabət kürsüsündən istifadə edərək öz hüququnu müdafiə edən demokrat nümayəndələrin nitqlərini kəsməyə və kürsü azadlığına məhdudiyyət qoymağa xüsusi maraq göstərirdi.

Konfransın ümumi iclaslarında mən Birnsi irad olunan məruzələrə münasibətdə çox etinasız görürdüm.

Birns atom siyasətinin məşhur tərəfdarlarından hesab olur və onun həmkarları və məşvərətçiləri də bu qəbil siyasətçilərdən təşkil olunmuşlar.

---

[1] Ceyms Frensis Birns 1945-1947-ci illərdə ABŞ-ın dövlət katibi olmuşdur

[2] Edvard Reyli Stettinius 1 dekabr 1944 – 27 iyun 1945-ci il tarixlərində ABŞ-ın dövlət katibi olmuşdur

Konfransın əvvəllərində Amerika Xarici İşlər nazirinin müşavirləri arasında hamıdan artıq fəaliyyət göstərən Bohlen idi. Amma avqustun ikinci yarısında Birns atom siyasətinin məşhur müdafiəçiləri senator Vandenberg[1] və senator Konnollini[2] də köməyə çağırdı. Bu iki senator Amerikada "Münix" siyasətini müdafiə edən nümayəndələr və Amerika iqtisadi və siyasi imperializminin genişlənməsinin tərəfdarları kimi tanınmışlar. Bunlardan əlavə Vallas[3] hadisəsinə qədər Amerikanın Moskvadakı sabiq səfiri Averell Harrimanın[4] adını çəkmək olar.

Amerika Xarici İşlər Nazirliyində Vatikanın nüfuzu gündən-günə artmaqdadır. Ona görə, Sülh Konfransında belə bir şayiə yayılmışdı ki, kardinal Spellman[5] Birns üçün məşvərətçi göndəriləcəkdir. Spellman konfransa gəlmədi, amma papa sarayındakı Amerikanın fövqəladə səfiri Braun Tayler avqust ayında Lüksemburq qəsrindən bir görüş etdi.

Konfransdakı ayıq və məlumatlı şəxslər Vatikanın Amerika Xarici İşlər nazirinə göndərdiyi xüsusi məktuba işarə edirdilər.

Amerika nümayəndəliyi rəy almaq siyahısında birinci növbədə qeyd olunmuşdu. Ona görə rəy alınan zaman hər bir məsələ haqqında Amerika nümayəndəsinin nəzəri birinci növbədə məlum olurdu.

---

[1] respublikaçı senator Artur Vandenberq
[2] demokrat senator Tomas Konnolli
[3] Wallace
[4] Moskvada səfir sifəti ilə 1943-1946-cı illərdə işləmişdir
[5] Fransis Cozef Spellman Amerika kardinalı, 15.04.1939-02.12.1967-ci illərdə Nyu-Yorkun arxiyepiskopu olmuşdur

Əgər Amerikanın gündən-günə artmaqda olan müdaxiləçi işləri nəzərə alınarsa, Amerika nümayəndəsinin birinci növbədə rəy verməsinin təsir və nəticəsini çətin siyasi məsələlər barəsində kifayət qədər məlumata sahib olmayan dominyonlar və iradəsiz dövlətlərin nümayəndələri üstündə bilmək olar. Demək, Amerika nümayəndəliyi konfransda hökm sürən səhv cərəyanlara rəhbərlik edirdi.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
***say 66 (355), 22 noyabr 1946***

## Ruzvelt siyasəti

Müharibə dövründə Amerika Birləşmiş Ştatlarının xarici siyasətinin əsas hərəkət xətti 14 avqust 1941-ci ildə imza edilmiş 8 maddədən ibarət "Atlantik Xartiyası"nda qeyd olunmuşdur.

Bu Xartiyaya görə Amerika və İngiltərə hökumətləri xarici siyasətdə öz gələcək hərəkət xəttlərini aydın surətdə bildirmişlərdir. Birinci maddədə belə yazılmışdır ki, "iki dövlət öz torpaqlarını genişləndirməyə çalışmayacaqlar". Həmin Xartiyanın 3-cü maddəsində qeyd olunmuşdur ki:

"İki dövlət bütün millətlərin istədikləri və ixtiyar etdikləri rejim altında yaşamaq haqlarını möhtərəm tutacaqlar...".

Atlantik Xartiyasının ayrı maddələri də xalqların azadlığından, faşizmi aradan qaldırmaqdan, gələcəkdə davamlı və ədalətli bir sülh yaratmaqdan danışır...

Bu Xartiya tamamilə nəzərə alınmaqla 26 iyun 1945-ci ildə 111 maddədən ibarət məşhur "Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi" San Fransisko şəhərində nəşr oldu.

Bu Nizamnamədə də sülhsevən və azadlıq arzusunda olan xalqların istəkləri və idealları görünməkdə idi.

Birinci maddədə "ekspansionist" siyasəti, istila ya təcavüzkarlıq məfkurəsi və yeni bir müharibə xülyası nifrətlə pislənmişdir. 2, 3 və 4-cü maddələrdə xalqın iradəsindən doğan və hər xalqın azad surətdə istədiyi rejimi qurmaq haqqından söhbət olunur və müstəqil ölkələrin daxili işlərinə müdaxilə etmək, ya zor və təzyiq ilə bir hökuməti bir millətə qəbul etdirmək qəti surətdə rədd edilmiş və pislənmişdir...

Ruzvelt öz xarici siyasəti haqqında danışarkən həmişə demişdir ki, Amerika xarici siyasəti bu üsul üzrə təyin edilmiş və "heç vaxt bu idealların xilafına olmayacaqdır".

Xarici iqtisadi siyasətdə Ruzvelt ayrı ölkələrə maddi köməklik etmək vədəsi vermişdir.

Bu iki sənəddən – Atlantik Xartiyası və BMT Nizamnaməsindən əlavə Ruzveltin müharibə zamanı Tehran və Yalta görüşlərində, ya Amerika Birləşmiş

Ştatlarının keçmiş Xarici İşlər naziri cənab Velzin[1] Moskva konfransında qəbul etdikləri qərarlar Ruzveltin xarici siyasətində açıq baxışlarını bildirməkdədir.

Demək, Ruzvelt Amerika dövlətinin keçmiş müharibədən sonra icra etdiyi "izolyasionizm" (enziva) siyasətini[2] tamamilə tərk edib və keçmiş siyasətin əksinə olaraq Amerikanın xaricindəki siyasi məsələlər ilə maraqlanırdı. Ruzvelt öz öhdəliklərini icra etməyə çalışırdı və gələcək dünya sülhünə maraq göstərirdi. Ruzvelt öldükdən sonra Amerika Birləşmiş Ştatlarının yeni prezidenti Trumen nitqlərində Ruzvelt siyasətini təqib etməyi vədə verirdi. O, 1946-cı ilin aprel ayının 6-da demişdir ki, "Amerika xarici siyasətinin əsas hərəkət xəttlərində heç bir dəyişiklik əmələ gəlməmişdir...".

Bu açıq və aydın vədələrə baxmayaraq, Trumen Ruzveltin daxili və xarici siyasətində qəbul etdiyi prinsiplərə vəfalı olmamağını çox tez bir zamanda isbat etdi.

Trumen Amerika xarici siyasətini qüdrətli trostların nümayəndəsi olan "birns"lərə və Münix siyasətinin tərəfdarları senator "konnolli"lərə tapşırmaqla Ruzveltin "tradisional" siyasətindən sapdığını bilindirdi. Bu tarixdən Amerikanın prezidenti öz hədsiz-hesabsız hakimiyyətinə dayanaraq, Amerikanın daxilində kapitalizm diktatorluğunu və Amerika

[1] cənab Uelsin
[2] təcrid siyasətini

xaricində Amerika siyasi və iqtisadi imperializmini genişləndirməyə başladı. Trumen daxildə tətil edən fəhlələri bu qanuni haqlarından məhrum etmək üçün Amerika Konqresinin aldığı hüquqlara arxalanaraq Amerikada belə bir şərait yaratmışdır ki, demokratik üsullara tərəfdarlıq etmək iddiasında olan bir hökumət üçün bu iş yaramaz. Trumenin bu kimi avtoritar təcrübəsi nəticəsində indi Amerikada "irqi üstünlük" nəzəriyyəsi əsasında faşist məfkurələri həyata keçirilməkdədir.

Amerikanı gəzən böyük demokrat yazıçıların dediklərinə və yazdıqlarına görə, Amerikada yaşayan 9 milyon qaralara qarşı böyük təzyiqlər əmələ gəlir. Onlara münasibətdə "şallaq" qanunu tətbiq olunur. Qaralar ancaq təhqirlərə məruz qalmışlar. Həyat şəraiti onlar üçün çox ağır və çətindir.

Amerika demokrat jurnalistlərdən olan cənab Con Petimanın Amerika daxili vəziyyəti, xüsusilə fəhlələrin ağır həyat şəraiti haqqında qeydlərini eşitdikdə, insan heyrətə düşür və bu isə Şərq aləmində Amerikanı süni və həqiqətdən uzaq filmləri üzrə tanıyan millətlər üçün, məncə, çox lazım və zəruridir.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 67 (356), 23 noyabr 1946***

## Trumen – Birns siyasəti

Amerikanın xarici siyasəti Birnsin dövründə özünə tamamilə bir imperialist və istilaçı mənzərə almışdır.

Birns bu siyasəti var qüvvəsi ilə həyata tətbiq etmək üçün Ruzveltin imza və qəbul etdiyi qərarları "ayaqlayaraq" yeni hərəkət xətti nəticəsində şiddətli siyasi bir böhran və nigarançılığa bais olmuşdur.

Paris Sülh Konfransı işlərini komissionlar arasında böldükdən sonra Birns sentyabrın 6-da (1946) "Ştutqart" operasında "vəziyyətlərində heç bir dəyişiklik hasil olmayan bir qrup almanlılar" hüzurunda Avropa siyasi məsələləri, xüsusən "Birləşmiş Almaniya" məsələsi haqqında öz həqiqi məqsədlərini bəyan etmək üçün fürsət əldə edə bildi. Bu nitq dünya siyasi mühitində böyük bir hay-küyə səbəb oldu. Çünki bu tarixə qədər xarici siyasətdə əldə olunan dəyişikliklər bu aydınlıqda ifadə edilməmişdi. Bu nitqdə Birns Alman xalqına böyük və çoxlu vədələr verdi. Ona görə Sülh Konfransındakı mətbuat nümayəndələri arasında belə bir fikir yarandı ki, Birns bu cür açıq vədələri verməklə isbat edir ki, əsas əhəmiyyətə malik olan siyasi məsələləri həll etməkdə dörd böyük dövlətin haqqını özünə aid etmişdir…

Öz dediyinə görə, Birns Almaniyanın vəziyyətini müşahidə etmək məqsədilə Avropaya getmişdir. Amma onun Ştutqartda söylədiyi məruzə yalnız bir neçə saat Almaniyaya daxil olduqdan sonra öncədən güclü mikrofonlarla təchiz olunmuş opera salonundan yayıldı. Doğrudan da, Amerika Xarici İşlər nazirinin huş və zəkası hər cəhətdən təriflərə layiqdir. Çünki o bir neçə saat ərzində Almaniyanın həqiqi şəraitinə özü şəxsən diqqət yetirməyə müvəffəq olmuşdur…

Birns Almaniya haqqında danışarkən, Almaniyanı bir məğlub dövlət kimi deyil, bir dost ölkə kimi təqdim edir və böyük müttəfiq dövlətlərin diqqətini cəlb etmədən, Almaniya xalqının azad şəraitdə istədikləri və seçdiyri rejimi bilmədən Almaniya üçün Mərkəzi Avropada bir federalist hökumət üsulu düşünür və keçmişdə Mərkəzi Avropanı qan dəryasına və daimi fitnəli qarşıdurmalar ocağına çevirən "Federasyon Jermanik"dən[1] bəhs edir. Almaniyaya verdiyi böyük və əhəmiyyətli vədlərlə, xüsusən Potsdam konfransında qəti şəkildə həll edilmiş "Silezi"[2] və Lehistan[3] sərhədləri məsələsini irəli sürməklə Birnsin planı Almaniyada etibar və nüfuz qazanmaq üçün tamamilə aydınlaşmaqdadır. Almaniyanın Amerika kontrolu altında olan zonasında Potsdam konfransında

[1] Federal Almaniyadan
[2] Sileziya
[3] Polşa

"denazifikasyon"[1] haqqında qəbul olan qərarın həyata keçirilməsindən heç bir əsər görmək mümkün deyil. Anqlo-saksonlar öz məntəqələrində açıq-aşkar bir surətdə faşizmi yenidən bərpa etməkdədirlər. "Dayli Mail" qəzetinin yazdığına görə, İngiltərə və Amerika zonalarında "Almaniyada faşizm bərpa olunmaqdadır. Bu məntəqələrdə nasist cavanlar təşkilatı açıq və ardıcıl surətdə gündən-günə genişlənməkdədir. "Qerinq xaçı" Almaniya üzərinə kölgə salmaqdadır...".

Almaniyada bu vəziyyəti mütaliə etdikdə və anqlo-saksonların Almaniya barəsində təqib etdiyi hərəkət xəttini nəzərə aldıqda, dünya təhlükəsizliyini və sülhü ağır təhlükələrə məruz qoyan planlar tamamilə aydınlaşır. Ona görə, Birnsin Ştutqartda etdiyi nitq Sülh Konfransının işlərində böyük soyuqqanlığa səbəb olmuşdu və bu konfransın işlərini nəticəsiz qoymağa can atanları sevindirdi.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 68 (357), 25 noyabr 1946***

[1] Nasistlərdən təmizləmə (Alman: ʻʻ Entnazifizierung ʻʻ), II Dünya Müharibəsinin ardından Müttəfiq dövlətlər tərəfindən Almaniya və Avstriya cəmiyyətlərində tətbiq olunan və nasyonal sosializmin təsirini mədəni, ictimai, iqtisadi, mətbuat, hüquq və siyasi sahələrdən silmək üçün tətbiq olunan siyasətdir. Bu siyasət daxilində məsul təşkilat liderləri və əlaqədar təşkilatlar birbaşa vəzifədən kənarlaşdırılmış və bağlanmışdır. Bu siyasət müharibədən dərhal sonra toplanan Potsdam Konfransında qərara alınmışdır.



*Ceyms Frensis Birns*
*(1945-1947-ci illərdə ABŞ-ın dövlət katibi olmuşdur)*

Amerika Birləşmiş Ştatlarının xarici siyasəti Almaniyadan başqa ayrı qitələrdə də özünə məxsus qiyafədə görünür.

Birns Balkan ölkələrində nüfuz qazanmaqdan ötrü hər bir vasitə ilə ilgilənir. Paris Sülh Konfransında Amerika nümayəndəsi Balkan ölkələri haqqında öz planlarını oxutdurdu.

Amerika xarici siyasəti Yuqoslaviya cümhuriyyətlərinə qarşı böyük hücumlara keçmişdir. Sülh Konfransında Amerika və Yuqoslaviya nümayəndələri bir yerdə sülh məsələləri haqqında müzakirə edən zaman Amerikanın hərbi təyyarələrinin endirilməsindən sonra, o dövlətin Yuqoslaviya cümhuriyyətlərinə verdiyi "ultimatum" atom siyasətinin nümunələrindən hesab olunurdu. Yuqoslaviya və Amerika münasibətlərində üz verən bu hadisə yeni müharibə tərəfdarları üçün geniş bir fəaliyyət meydanı yaratmaqda idi. Vaşinqton siyasətçilərinin bu bacarıqsız əməlləri bütün dünyanı güldürəcək qədər yüngül və məsxərə idi.



***Paris Sülh Konfransında. Belarus Xarici İşlər Naziri Bolqarıstan məsələsi üzrə komissiyaya rəhbərlik edir***

Amerika siyasətçiləri Yuqoslaviya cümhuriyyətinin, Bolqar cümhuriyyətinin, Albaniya və Rumıniyadakı demokratik hərəkatın ciddi müxalifləri kimi tanınmışlar.

Amerika nümayəndələri Paris Sülh Konfransında Çexoslovakiya cümhuriyyətini dollar diplomatiyasının nüfuzu altına sala bilmədiklərindən məyus olduqdan sonra Çexoslovakiya qəzetlərində Amerika iqtisadi siyasəti haqqında yazılan məqalələri bəhanə edərək, o dövlətin kreditini dayandırdı və bu yolla bir dəfə daha Amerika demokrat hakimlərinin mətbuat azadlığına olan maraqları isbat oldu.

Yuqoslaviya dövləti ağıllı bir siyasət nəticəsində atom siyasətini nəticəsiz qoyduqdan sonra da Amerikan siyasətçiləri öz planlarından əl çəkməmişlər. Dunay haqqında təqib etdiyi plan və Bolqar ilə Rumıniyanı iqtisadi təzyiq altında qoyma siyasəti, Yunanın indiki rejimini himayə etməsi, xüsusilə Triyest barəsində qəbul etdiyi üsullar bu dövlətin əsas planlarını göstərməkdədir.

Son günlərdə Amerika hərbi gəmilərinin şərqi Aralıq dənizindən, xüsusilə boğazlardan görüş etmələri və bu gəmilərin Albaniya və Yuqoslaviya sularında apardığı təhrikamiz əməliyyatı sadə bir hadisə hesab oluna bilməz.

Amerika dövləti şərqi Aralıq dənizinə çox maraq ilə yanaşmaqdadır. Türkiyə dövlətinin Amerika hərbi məqamlarına təqdim etdiyi imtiyazlar və Amerika qoşun hissələrinin Misirdə yerləşməsi bu fikri isbat etməkdədir.

Helio Polisdə iki təyyarə meydanı var. Birisi İngiltərə qüvvələrinin kontrolu altındadır, ikincisi Amerika qüvvələri tərəfindən idarə olunur və yalnız Amerika təyyarələri oradan istifadə edə bilər. Mən bu aeroportu tamamilə Amerika qüvvələrilə dolu gördüm.

Amerikanın "ekspansionist" siyasəti yalnız buraya aid deyil. Amerika qüvvələri demək olar ki, dünyanın geniş bir hissəsində həssas nöqtələri kontrol etməkdədirlər. Cənubi Amerikada Okeaniyada mühüm strateji nöqtələr, Afrikada Mərakeş və Liviya, Yaxın Şərqdə Misir və Ərəbistan, Asiyada Çin Amerika qüvvələri tərəfindən kontrol olmaqdadır.

Çin məsələsi Amerikanın siyasi və iqtisadi istila planlarından mühüm və konkret bir nümunədir. Demək, "Sity" iqtisadi mərkızlərində[1] planlaşdırılan və "Ağ Qəsr"də[2] təsdiq olunan planların əsas hədəfi dünyanı dollar siyasətinin nüfuzu altına almaq, dünyanı Amerika məhsulları üçün bazar etmək və bu vəziyyəti müdafiə etməkdən ötrü strateji nöqtələr axtarmaqdır.

Amerika nümayəndələri Sülh Konfransında bu məqsədlə iştirak etmiş və var qüvvəsilə göstərilən planların həyata keçməsinə çalışırdılar.

---

[1] "Sity" Londonda müasir kapitalizmin beşiyi və əsrlər boyu maliyə və ticarətin qəlbi hesab olunan bir rayondur.
[2] Ağ Evdə

## Birns siyasətinə ağır zərbələr dəyir

"Trumen – Birns" siyasəti mahiyyət və hədəf baxımından Ruzveltin siyasətilə fərqli olduğuna görə Ruzvelt siyasətinə marağı olan və bu siyasəti Amerika xalqının xeyrinə və gələcək dünya sülhü üçün faydalı göstərən siyasətçilər Birns əleyhinə qiyam etmiş və bu qorxulu siyasətin qarşısını almaq istəmişlər. Bu siyasətçilərin geniş kütlələr arasında böyük populyarlığı onların Birns siyasətinə qarşı apardıqları həmlələrə böyük bir güc və məna vermişdir.

Birinci dəfə olaraq Ruzveltin bütün səfərlərində və siyasi görüşlərində və müzakirələrində iştirak etmiş olan Elliot Ruzvelt (mərhum Ruzveltin oğlu) bu qorxulu siyasətin üzündən pərdəni götürərək, açıq surətdə elan etmişdir ki, "Trumen Ruzveltin siysətindən geri çəkilmişdir". Bir neçə gün sonra madam Eleonora Ruzvelt (mərhum Ruzveltin xanımı) eyni fikri verməklə oğlunun bəyanatını təsdiq etmişdir.

Bununla sülh məsələsi Amerikada demokrat ünsürlər tərəfindən başlandı və Birns siyasəti şiddətli və ağır həmlələrə məruz qaldı. Vallas hadisəsi Amerikada gündən-günə genişlənməkdə olan atom siyasətinə ən ağır zərbəni endirməyə müvəffəq oldu.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
*say 69 (358), 26 noyabr 1946*

## Vallas hadisəsi

Vallas hadisəsi dünya siyasətində ən böyük əhəmiyyətə malik olan hadisə olmaqla bərabər Amerika siyasi tarixində çox böyük bir hadisə kimi qeyd olunmuşdur.

**Harri Vallas[1] mərhum Ruzveltin müavini, ən yaxın və səmimi həmkarı kimi tanınmış və onun "tradisional" siyasətinə hamıdan artıq vəfalı qalmışdır**.

Vallas Amerika ticarət naziri (*müəllifin qeydində Vallasın vəzifəsinin adı belə getmişdir – S.B.*) və Amerika hökumətinin ən təsirli və fəal bir üzvü hesab olunurdu. Bu vəzifə və səlahiyyəti ilə əlaqədar olaraq Vallas Amerika xarici siyasətində meydana gələn dəyişikliyi dəqiq surətdə mütaliə etməyə müvəffəq ola bilmişdi.

Vallas yaxşıca başa düşmüşdü ki, Birns siyasəti Amerikanı müharibəyə sövq etmək deməkdir.

Birnsin Ştutqartda ortaya qoyduğu "Birləşmiş qüdrətli Almaniya" məsələsindən məqsədi Sovet dövlətinin qarşısında böyük bir güc yaratmaq və o dövləti Şərqi Avropada mühasirə halına salmaq hədəfi aydın surətdə görünməkdə idi. Bu barədə Amerikanın Berlindəki keçmiş səfiri Ceyms Jerar belə bir fikir söyləmişdir ki, "Birns Almaniyanı bərpa və gücləndirmək, o dövləti Sovet nüfuzu qarşısında səd etmək istəyir. Çünki Almaniya strateji baxımdan Fransadan daha artıq əhəmiyyətlidir...".

---

[1] Wallace, Henry Agard (Uolles Henri Eqard) – 1933-1940-cı illərdə ABŞ-ın kənd təsərrüfatı naziri və 1941-1945-ci illərdə isə vitse-prezidenti olmuşdur.

Birnsin məqsədləri Amerika irticaçı mətbuatında aydıncasına analiz və təhlil olunurdu.

Amerikada mətbuat azadlığı yoxdur. Çünki orada mətbuatın mühüm hissəsi dollar siyasətinə xidmət etməkdədir. Ona görə Amerika mətbuatı arasında, xüsusilə yeni müharibə tələb edənlərin orqanlarında yeni müharibə fikri gündən-günə genişlənməkdədir. İndi də antisovet blokunun birinci müxalifətçisi Valter Lipan tam azad bir surətdə yeni müharibədən danışmaqdadır.

Avstriyada olan Amerika hərbi qüvvələrinin komandanı general Mark Klark Mərkəzi Avropada hər gün bir növ təhrikata girişməklə Valter Lipanla bir hədəfə doğru müsabiqədə idi.

Belə bir qorxulu cərəyan Ruzvelt siyasətinə vəfalı qalan rəhbərlər üçün dözülməz bir şərait yaratmışdı. Vallas Amerika xarici siyasəti haqqında öz fikrini iyulun 13-də (1946) bir izahlı məktub formasında prezidentə bildirmişdir. Bu məktubun məzmunu ilə əlaqədar olaraq Vallas Trumenin nəzərini cəlb etdikdən sonra "T.A.U" (Amerika Fəhlələri Konqresi) tərəfindən təşkil edilmiş bir yığıncaqda Amerika xarici siyasəti haqqında məruzə etdi. Bu hadisə və onun təhlili barəsində məktubun nəşr edilməsi, eləcə də Vallasın istefası Amerika xarici siyasətində böyük bir hadisə kimi qeyd edilməkdədir.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 70 (359), 27 noyabr 1946***

Vallas özünün 16 sentyabr (1946) məruzəsində Birnsin Ştutqartda söylədiyi nitqə şiddətli bir surətdə həmlə edərək Amerika dövlətinə Sovet dövləti ilə "xoşməramlı" rəftar və "həmkarlıq" barədə bir siyasətin qəbul olunmasını tövsiyə edir. Amerika Ticarət naziri Tonnolli də möhkəm bir məntiqlə Sovet İttifaqı ilə Amerika dövləti arasında müharibə yaratmağa çalışanları ifşa edir və Amerikanı İngiltərə imperialist siyasəti dalınca sürüdənlərin iç üzünü açır. O, öz nitqində Amerikada olan sülhtələb xalqların tərəfindən demişdir ki: "Sovet İttifaqı ilə müharibədən danışmaq cinayətkaranə bir dəlilik deməkdir..." Atom bombasına dayanaraq müharibədə Amerika üçün qalibiyyət yuxusu görənlərə Vallas demişdir ki: "Kim atom bombasına etimad edirsə, tez ya gec onun qurbanı olacaqdır..."

Amerikada yeni müharibə tələb edənlərin qüdrətli silahı atom bombasıdır. Onlar bu silaha arxalanaraq öz təbliğatlarını gündən-günə genişləndirməkdədirlər.

Vallas onların bu böyük ümidlərinə göstərilən ağır zərbəni endirdikdən sonra belə demişdir: "Davamlı və möhkəm bir sülh yaratmaq üçün gərək Amerika ilə Sovet İttifaqı arasında möhkəm dostluq yaransın. Biz gərək icazə verməyək, Amerika xarici siyasətinə Sovet İttifaqı əleyhinə müharibə tələb edənlər tərəfindən rəhbərlik olunsun...

Xarici siyasətin açarını İngiltərə hökumətinin ixtiyarında qoymaq, məncə, böyük divanəlikdir. Biz İngiltərə imperatorluğunu xilas etmək üçün və o dövlə-

tin Yaxın Şərqdə neft mərkəzlərini qorumaqdan ötrü gərək Amerika əsgərlərini təhlükəyə məruz qoyaq...".

Vallas Amerika xarici siyasəti haqqında çox açıq danışmışdır. Onun nitqi Amerikada geniş kütlələr içərisində böyük müvəffəqiyyət qazandığı kimi dünya mətbuatında da böyük bir təsir qoymuşdur.

Onun nitqi Amerika və İngiltərə xarici siyasəti üçün bir "İddianamə" kimi möhkəm idi. Xüsusilə, Vallas Yaxın Şərqdə İngiltərə imperialist siyasətini tamamilə pisləmişdir.

**Əcəba, dünya siyasətinin sirlərinə vaqif olan bu siyasətçinin bu qiymətli sözü Şərq ölkələrində, məxsusən böyük neft mənbəyi olan İranda təsirli olmuşdurmu?**

"Star" qəzeti bu xüsusda yazmışdır ki, "Vallasın Yaxın Şərqdə İngiltərə imperialist siyasətinə yönəltdiyi ittiham o qədər möhkəmdir ki, o barədə heç bir izahata ehtiyac görünmür..."

Vallasın bu nitqi Trumen tərəfindən təsdiq olduğuna görə, bu nitqin İngiltərə siyasətinə də çox ağır bir zərbə olduğunu hamı təsdiq edirdi.

Vallasın nitqindən sonra senator Piyer[1] elektrik sənayesi fəhlələrinin yığıncağında demişdir ki: "Əgər Ruzvelt diri olsaydı, bizimlə Sovet İttifaqı arasında anlaşma yaranardı... Amerika Qərbi Avropa imperializminin qoruyucusu olmamalıdır..."

Həmin günlərdə Amerika Xarici İşlər naziri cənab Velz[2] öz məruzəsində demişdir ki: "Birnsin tək-

---

[1] senator Pierre
[2] cənab Uels

lifi üzrə Almaniyada qüdrətli birləşmiş bir hökumətin yaradılması Almaniyada militarizmi diriltmək deməkdir və bu isə Amerika və İngiltərə hökumətlərinin Sovet ittifaqına qarşı planını ifşa etməkdir..."

Bu yolla Birnsin siyasəti Amerikanın daxilində və xaricində böyük həmlələrə məruz qalmış və bu cərəyanın təsiri Paris Sülh Konfransına qədər yetişmişdir. Həmin günlərdə Amerika və İngiltərə nümayəndələrinin simalarında böyük bir ruhi sarsıntı oxunmaqdadır.

"Vallas" hadisəsi Amerika və İngiltərə xarici siyasətlərinin nüfuzunu endirdiyinə görə, vaxtı itirmədən Amerika və İngiltərə Xarici İşlər nazirləri arasında Parisdə uzun müzakirələr oldu və bu vaxtı kompensasiya etmək üçün qərar oldu ki, Trumen "qusduğunu yenidən yesin". Ruzveltin yadigar qoyduğu həftəlik müntəzəm mətbuat konfransını təhlil edən Trumen iki gün hadisədən sonra bir mətbuat konfransı çağırıb və bu konfransda demişdir ki, "Vallas nitqi haqqında bildirdiyim fikirdə məqsədimi lazımınca yetirə bilməmişəm. İstəyirəm deyim ki, mən ticarət nazirinin (*müəllifin qeydində Vallasın vəzifəsinin adı belə getmişdir – S.B.*) məruzə etmək haqqına razı olmuşam... Bizim xarici siyasətimizdə dəyişiklik olmamışdır və mən Xarici İşlər nazirinin siyasətini təsdiq edirəm..."

***"Azərbaycan" qəzeti (ADF orqanı), say 71 (360), 28 noyabr 1946***



*Uolles Henri Eqard*
*(1933-1940-cı illərdə ABŞ-ın kənd təsərrüfatı naziri, 1941-1945-ci illərdə isə vitse-prezidenti olmuşdur)*

Demək, bu yolla mürtəcelər Vallas hadisəsindən doğan reaksiyaları ört-basdır etmək istəyirdilər. Amma Amerika hökumətinin başçıları arasında hər an gərginləşməkdə olan böhranın qarşısını almaq mümkün olası bir iş deyildi.

Trumen özünəməxsus diktatorluq ruhu ilə Vallası üzr istəməyə məcbur etmək istəyirdi. Lakin Vallas öz fikirlərinin nə qədər məntiqi və düzgün olduğunu isbat etmək üçün iyulun 23-də (1946) yazdığı məktubu çap etdirdi. Vallas bu məktubda Amerika xarici siyasətini daha güclü və açıqcasına tənqid etməklə xüsusi qeyd etmişdir ki, Amerikada "Sovet hökumətinin Avropada və Orta Şərqdə öz təhlükəsizlik zonasını genişləndirmək üçün çalışdığını tənqid edirlər. Halbuki, Amerikanın "Qrenland" və "Okinava"[1] və minlərlə kilometr Amerika sahillərindən uzaq çoxlu yerlərdə hərbi bazalar yaratmasını unudub və danışmaq istəmirlər…"

Bu məktubda Vallas Amerika və Sovet İttifaqı arasında dostluq və həmkarlıq lüzumunu tam israrla tələb etmişdir. Bu zaman anqlo-sakson nümayəndələri Paris Sülh Konfransının aidiyyatı komisyonlarında Dunay çayının beynəlxalq status alması üçün böyük fəaliyyət göstərməkdə idilər. **Eyni zamanda**

[1] 1945-ci ilin aprel-iyul ayları ərzində "Okinava döyüşü" baş vermişdir. Döyüşün sonunda Okinava adası ABŞ tərəfindən işğal edilir. Ada 1972-ci ilə qədər ABŞ-ın inzibati nəzarətində olmuşdur. Həmin ildən sonra isə Amerika adanın 18 % ərazisinə nəzarəti əlinə alır və baza təşkil edir. Burada tez-rez yerli əhali ilə ABŞ ordu qüvvələri arasında münaqişələr baş verir.

**Dardanel barəsində Sovet hökumətinin Türkiyə dövlətinə verdiyi Nota gündəlik bir məsələ idi**. Anqlo-saksonlar "Montrö" müqaviləsinə[1] yenidən baxış etməyə hazır olmaqla bərabər oranı da Dunay çayı kimi beynəlmiləlləşdirmək istəyirlər.

Vallas bu iki mühüm siyasi məsələ haqqında söhbət edərək demişdir ki: "Dunay və Dardanelin beynəlmiləlləşməyi Süveyş və Panama kanallarının beynəlmiləlləşməyi və tərk-silah edilməsi yanında məntiqdən uzaqdır...".

Anqlo-saksonlar Sülh Konfransında rəy almaqla Dunay çayına beynəlxalq status verməyə nail oldular. Bu qərar özlüyündə "Birns-Bevin" siyasətinin hansı ölçüdə müstəqil Balkan ölkələrinə qarşı müdaxiləçi olduğunu isbat edir.

Vallas Sovet hökumətinə uzun müddət kredit vermək və iqtisadi baxımdan o dövlətə kömək etmək təklifini irəli sürür və xüsusilə atom qüvvəsinin inhisarda qalmasını təklif edir.

Vallasın ağıllı təklifləri müharibədən cana gəlmiş kütlələr tərəfindən müsbət qarşılandı, amma Trumen Birns siyasətini gücləndirmək üçün onu istefa verməyə məcbur etdi və onun yerinə Amerika bankçılarından Averell Harriman (Sülh Konfransında Birnsin müşaviri – Amerikanın Moskvada keçmiş səfiri) ticarət naziri təyin olundu.

[1] 1936-ci ildə 20 il müddətinə imzalanan "Montrö" müqaviləsi Türkiyənin Qara dənizdən Aralıq dənizinə çıxışı təmin edən Bosfor və Dardanel boğazları üzərində suverenliyini bərpa etdi, daha sonra bu müqavilə "Montrö Boğazlar Konvensiyası" kimi qüvvəsini davam etdirdi.

Vallas işdən kənara çəkildisə də öz istefa ərizəsində yazdığı kimi, "sülh uğrunda mübarizəsini davam etdirir".

## Birns geri çəkilir

Vallasın sülh həmləsi mürtəceləri tamamilə məğlub etməyə müvəffəq ola bilmədisə də, onların hərəkət xəttində xüsusi bir dəyişikliyə səbəb olmuşdur.

Generalissimus Stalin 14 sentyabrda (1946) "Sunday Times" müxbiri Aleksandr Vernin suallarına cavab verərək yeni müharibə fikrini rədd etdiyinə görə, son aylarda yeni müharibə yaratmaqdan ötrü güclənməkdə olan neft mübarizsinə qəti bir zərbə endirməyə müvəffəq olmuşdur. Ona görə də Birnsin oktyabrın 3-də (1946) Parisdəki Amerikan klubunda söylədiyi məruzədə səsinin ahəngində bir az dəyişiklik hiss etmək olar.

Bu hadisələrdən sonra, xüsusilə Amerikada Konqresə seçkilərin başlanması ilə bağlı Amerika Xarici İşlər nazirinin ruhiyyəsində yox, amma səsinin ahəngində dəyişiklik tapılmışdır.

O, Paris Sülh Konfransından Amerikaya qayıtdıqdan sonra və Birləşmiş Millətlər Şurasının ümumi iclası başlamadan öncə yeni bir məruzə söyləmiş və bu məruzədə Vallasın dediyinə görə, Birns bir az ağıllanmış və birinci nitqi ilə müqayisədə tərəqqi etmişdir. Amma ümumiyyətlə Amerikada demokratiya və azadlıq sevən ünsürlər Birnsdən söz yox, həm də əməl tələb edirlər. Birns axırıncı nitqini söyləyən

zaman özünü Ştutqartda Alman kapitalistləri, ya Parisdə olan Amerika klubundakı diplomatların hüzurunda deyil, müharibədən yorulmuş müttəfiqlərin müqabilində hiss edərək Molotov və Vişinskinin qüvvətli məntiqlə Sülh Konfransında söylədikləri məruzələrdən sonra bu şəkildə səsinin ahəngini dəyişməyə məcbur olmüşdür.

*"Azərbaycan" qəzeti (ADF orqanı), say 72 (361), 29 noyabr 1946*

## Amerika böyük siyasi və iqtisadi xətərlərə məruz qalacaqdır

Amerika xarici siyasəti haqqında qeyd etdiyim fikirlər nəzərə alınmaqla oxucular neçə əsas məsələni dərk etməyə müvəffəq ola bilərlər.

Amerikada trostların və sənaye padşahlarının istəklərinə rəğmən, Amerika xalqları da ayrı xalqlar kimi həmişə və möhkəm bir sülh arzu etməkdədirlər.

Ona görə də bu arzunu xətərə salan amillərə qarşı geniş daxili bir cəbhə yaratmağa çalışırlar.

Amerikada həqiqi demokrat və azadixah ünsürlər "respublikaçı" və "demokrat" partiyaların dünya sülhü və təhlükəsizliyinə, Amerika zəhmətkeşlərinin müqəddaratına etinasızlığını gördükdə, bu qərara gəlmişlər ki, Amerika zəhmətkeşlərini və demokrat ünsürlərini üçüncü bir partiya rəhbərliyi altında birləşdirsinlər. Bu böyük milli hərəkat gün-

dən-günə qüvvətlənməkdədir və Vallas kimi Ruzvelt siyasətinə vəfadar qalan siyasətçiləri gücləndirməklə böyük prestij əldə etməyə müvəffəq olmuşdur.

Amerikada fəhlə sinfi siyasi məfkurə və şüura malik olmadığına görə öz sinfi mənafeyini lazımınca düşünməmişdir. Amma müharibə dövründə əsgər sifətilə dünyanın böyük bir hissəsini gəzmiş olan Amerika fəhlələrinin indi bu hərəkat fikri Amerika hakimləri üçün çətin əngəllər törətmişdir. Son zamanlarda öz hüquqlarını müdafiə etmək üçün böyük tətillərə başlayan fəhlə hərəkatı Amerikada şiddətli nigarançılıq yaratmışdır.

Ağır sənaye sahibləri bu əzəmətli hərəkatın qarşısında işsiz durmamışlar. Onlar Konqres tərəfindən təsdiq olunmuş bir qanunda bu tətilləri lazım gəldikdə hərbi qüvvələr vasitəsilə yatırmaq üçün Trumenə hədsiz-hesabsız səlahiyyətlər vermişlər.

Bu hərəkatın qarşısını almaqdan ötrü Amerika hakim dairələri ayrı planları da icra etməyə müvəffəq olmuşlar. O cümlədən yüz minlərcə əsgərləri dünyanın müxtəlif uzaq nöqtələrində silah altında saxlayıb və bu yolla on vahiddə üç hədəf gözləyirlər:

1- Gündən-günə genişlənməkdə olan işsizlik və iqtisadi böhranın qarşısını almaq;

2- Siyasi narazılar qrupunun artmasının qarşısını almaq;

3- Amerikadan xaric strateji nöqtələri əldən verməmək.

Trumen 1947-ci il büdcəsində hərbi xərclərdən

ötrü Konqresdən 16 milyard dollar istəmişdir. Bu rəqəm Amerika tarixində görünməmiş bir rəqəmdir. Amerikada hərbi istehsalat tətil olmamış və dayandırılmamışdır. Atom bombalarının hazırlanması özlüyündə ağır xərc tələb edir...

Bunlar hamısı Amerikada böyük bir narazılığın yaranmasına səbəb olmuş və göstərdiyimiz kimi üçüncü partiya gündən-günə artıq tərəfdar qazanmağa müvəffəq olur. Xüsusilə bu hərəkatın 9 milyon qaralar içərisində fövqəladə bir nüfuzu var.

Amerika demokrat jurnalistlərindən olan Con Petiman bu barədə mənə demişdir ki: "1948-ci il Amerikadakı prezident seçkilərində üçüncü partiya böyük rol oynamağa müvəffəq olacaqdır."

O ümid edirdi ki, ondan sonrakı seçkilərdə üçüncü partiyanın namizədi qəti surətdə prezidentliyə seçiləcəkdir.

Mən bu nəticəni tamamilə məntiqi və düzgün görürəm. Çünki keçmiş müharibədən acı nəticələr almış Amerika fəhlələri yeni bir müharibənin qarşısını almaq üçün şübhəsiz, üçüncü partiyanı gücləndirib və onun həqiqi demokratiya qələbəsinə rəhbərlik edəcəklər.

Onda daha birnslər, vandenberqlər, konnollilər yeni müharibədən danışmağa imkan tapa bilməyəcəklər.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 73 (362), 1 dekabr 1946***

## Sülhün qüdrətli müdafiəçiləri

Anqlo-saksonların nümayəndələri Paris Sülh Konfransında göstərdiyimiz hədəfləri təqib edərək sülhdən də dəm vurmaq istəyirdilər. Amma onların aldadıcı planları heç bir kəsin nəzərindən gizli deyildi.

Amerika dövləti müharibə dövründə 300 milyard dollardan artıq qazanmışdır. Pis müamilə deyil. Çünki bu müamilədən Amerikan sənaye padşahlarına böyük mənfəətlər aid olub. Müharibənin dağıdıcı təsirlərindən də Amerikada heç bir şey görmək mümkün deyil. Belə olduğu halda yeni bir müharibə nəticəsində artıq mənfəətlər gözləyən dövlətlərin nümayəndələrindən ədalətli, düzgün və demokratik bir sülh yaratmaq şəraitini gözləmək olmazdı.

Paris Sülh Konfransında sülhsevən və sülh yaratmaq uğrunda çalışan nümayəndələr quduz faşist dəstələrinə qarşı müharibələrdə milyonlar cavanların qanı bahasına qələbəni əldə edən dövlətlərin nümayəndələri idilər. Sosialist quruluşunun əsas mahiyyəti ilə əlaqədar olaraq Sovet hökuməti xalqlar arasında dostluq yaratmaq və davamlı bir sülh yaratmaq siyasətini təqib etməkdədir. Sovet nümayəndələri Paris Sülh Konfransında demokratik və ədalətli bir sülh yaradılması yolunda böyük fədakarlıqlar göstərmişlər.

Sovet nümayəndələri üç böyük dövlətlər arasında qəbul olunan qərarlara vəfalı qalıb və bu qərarlara əsaslanaraq sülh düşmənlərinə qarşı ciddi

mübarizə aparırdılar. Sülh konfransı qurulan zaman böyük Sovet hökumətinin sülh tələbi siyasətinə qarşı geniş təbliğat gedirdi. Bu cür təbliğatlardan məqsəd sülh konfransını nəticəsiz qoymaq və gələcək sülh və təhlükəsizliyin əsaslarını zəiflətmək idi. Bu qorxulu hədəfə çatmaq üçün bütün mürtəce mətbuat təchiz olunmuşdu. Sovet hökuməti, Sovet xalqları artıq dərəcədə maraqla konfransın gedişini izləyirdilər. Yalnız Sovet mətbuatında konfransın bütün müzakirələrini görmək olurdu.

Bir gün İndoneziya xalqını silah gücü ilə qul etmək xülyasında olan mürtce Hollandiya jurnalistlərindən biri deyirdi: "Sovet İttifaqında icazə verilmir, dünya hadisələrindən xəbərdar olsunlar..."

Bixəbər Hollandiya jurnalistini konfransın beynəlxalq mətbuat bürosuna aparıb sülh konfransının gedişinə aid yazılan hesabatları nümunə olaraq ona göstərdikdə, məyus qalmışdı.

Sovet qəzetlərində konfransın bütün gedişi çap edilmişdi. Halbuki, hətta Paris qəzetlərində (demokrat qəzetlərdən başqa) konfransın işlərinə aid yarım sütundan artıq yazılmırdı.

Paris Sülh konfransında anqlo-sakson nümayəndələri "4 Xarici İşlər nazirləri konfransında" və yaxud "Potsdam və Moskva konfranslarında" qəbul edilən qərarları etinasızlıqla qarşılayırdılar. Bu sədaqətsizlik nəticəsində konfrans neçə böyük səhvlərə düçar olmuşdur ki, gələn qeydlərdə o barədə söhbət edəcəyik.

Sovet nümayəndələri, əksinə olaraq, demokratik bir sülhün əsas amillərini və prinsiplərini müdafiə etməklə sülh və təhlükəsizlik qəhrəmanları kimi tanınmışdılar.

Molotov, ya Vişinski komisyonlara, ya ümumi iclaslara daxil olan kimi  bütün nümayəndələrin, jurnalistlərin, ya diplomat qonaqların diqqətləri onlara tərəf  yönəlirdi.

Onlar sülhün gözətçiləri, dünya təhlükəsizliyinin müdafiəçiləri kimi tanınmışlar. Onlar qüdrətli məntiq, açıq alın və uca səslə sülhü təhlükəyə məruz edən siyasətləri ifşa edirdilər. Kiçik xalqların istiqlal və haqlı hakimiyyətlərinə uyğun olmayan təkliflərə qarşı mübarizə aparırdılar.

Paris Sülh Konfransında anqlo-sakson nümayəndələri aydın surətdə iki müxalif cəbhə təşkil edilməsinə çalışırdılar. Onlar konfransda artıq rəyə malik olduqları üçün əksər hallarda bu məqsədə nail və nəticədə sülhün əsasına ağır zərbələr endirməyə müvəffəq  olurdular.

Sovet nümayəndələri sarsılmaz bir iradə ilə yeni müharibə tələb edənlərin planlarını ifşa edirdilər.

Yeni müharibə tələb edənlərin qorxulu təbliğatı bütün Qərbi Avropanı bürüyüb və Sülh Konfransını zəhərləyən zaman generalissimus Stalinin məşhur müsahibələri nəşr edildi.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 74 (363), 2 dekabr 1946***

## Sülhsevən xalqların ümidi

Amerika Xarici İşlər nazirinin Almaniya barəsində nitqi, İngiltərə Mühafizəkarlar Partiyası liderlərinin bu haqda zəhərli təbliğatı və göstərilən bu iki dövlətin və yaxud iradəsiz dominyonların Sülh Konfransında fitnəkar hərəkətləri nəticəsində yaranmış və gündən-günə gərginləşməkdə olan siyasi böhran sülhsevən xalqlar arasında nigarançılıq yaratmış və keçmiş müharibədən doğan hesabsız bədbxtliklər onların fikirlərini məşğul etməkdə idi. İrticaçı qəzetlər Sülh Konfransını təhqir etməkdən və onu qiymətdən salmaqdan ötrü bu konfransı "müharibə konfransı" adlandırırdılar. Çünki konfransda demokratik dövlətlərin nümayəndələri öz, ya ayrı xalqların hüququndan ciddi surətdə müdafiə edib, imperialist planlarına təslim olmaq istəmirdilər.

Mürtəce qəzetlər belə təsəvvür edirdilər ki, imperialist dövlətlərin iradəsi gərək sözsüz qəbul olunsun. Amma onların zəhərli təbliğatına baxmayaraq, Sovet nümayəndələri Sovet hökumətinin sülhpərvər siyasətilə əlaqədar olaraq kiçik dövlətlərin hüququndan müdafiə edirdilər.

Paris Sülh Konfransında demokratik və ədalətli bir sülhə qarşı geniş mübarizə gedirdi.

Birinci cahan müharibəsindən sonrakı Versal Konfransının səhvləri təkrar olmaqda idi. Anqlo-saksonlar rəqibsiz bir surətdə dünyaya hökumət etmək istəyirdilər. Müharibənin dözülməz aqibətləri bir dəfə daha sülhsevən xalqları dəhşətə salmışdı...

Belə bir şəraitdə sentyabrın 17-də (1946) generalissimus Stalinin "Sunday times" müxbiri Aleksandr Vernin suallarına verdiyi cavablar nəşr oldu.

Bu müsahibənin ruhi nöqteyi-nəzərdən təsiri barədə hər nə qədər danışılsa, kifayət deyil.

Bu müsahibənin müharibədən cana gəlmiş Fransa xalqı içərisində nə qədər təsir bağışladığını mən yaxşıca hiss etdim. Paris Sülh Konfransının işlərində bu müsahibənin böyük təsiri oldu. Hamı bu bəyanatın artıq dərəcədə əhəmiyyətə malik olduğunu qeyd edirdi.

Stalinin dedikləri sülh nəğməsi kimi qarşılandı. Xalqlar içərisində gələcək sülh və təhlükəsizliyə böyük və möhkəm etimad yaratdı. Yeni müharibə tərəfdarlarının ağzı bağlandı və onların bu zəhərli fikirləri ağır və qüdrətli zərbələrə məruz qalaraq, öz acı təsirlərini əldən verməyə başladı. Amma müharibə dəllalları öz işlərini davam etdirirdilər.

Çerçil və onun tərəfdarlarının təhlükəli işlərinin qarşısı alınmamışdır. O, İngiltərə parlamanında yenidən öz fitnəkar əməllərinə davam etmişdir. Oktyabrın 23-də (1946) Stalinin ikinci müsahibəsi "Assoşieyted press" agentliyinin Moskvadakı rəisi tərəfindən çap olundu.

Bu iki müsahibədə Sovet hökumətinin xarici siyasəti çox aydın, sadə və güvənverici bir surətdə qeyd olunmuşdur.

Stalin bu sadə müsahibələrində dünya demokratiyasının böyük rəhbərinə yaraşan bir sədaqətlə

dünya siyasi məsələlərinə aid öz baxışlarını bəyan etmişdir.

Onun sözləri o qədər sadə, möhkəm, güvənli idi ki heç bir güc onun təsirlərini azaltmağa müvəffəq ola bilmirdi.

"Times" qəzeti öz baş məqaləsində yazmışdı ki, beynəlxalq münasibətlərin yaxşılaşmasında bu çıxışların böyük bir təsiri olacaqdır. Nyu-Yorkda azadlıqsevər dairələrdə böyük sevincə bais oldu.

Onlar bu bəyanatın olduqca təşviqedici və güvənc verən olduğunu bildirərək, Stalinin sözlərini yeni müharibə tələb edənlərin əleyhinə möhkəm dəlil kimi eşitmişlər. Amerikada yeni müharibə fikri bütün yerlərdən artıq dərəcədə şiddətli olduğu üçün orada Stalinin sözləri daha artıq əhəmiyyətə malik olmuşdur.

Bu sözlərin Amerika bürosunda, böyük beynəlxalq trostlar mərkəzi olan "Sity"də geniş təsirlər buraxmağı tamamilə təbii bir məsələdir. Çünki Amerikan trostları atom bombasından, yeni müharibədən danışdıqda dünyada yeni imtiyazlar və yeni bazarlar tapmaq fikrindədirlər. Stalinin cavabları onların qara siyasətini tamamilə ifşa edir. Ona görə trostlar öz qəzetlərində və yaxud Vatikan əlilə Vatıkanın orqanı olan «Osservatore Romano" qəzetində bu sözlərin qiymətini endirmək istədilər.

*"Azərbaycan" qəzeti (ADF orqanı),*
*say 75 (364), 3 dekabr 1946*

Stalin Aleksndr Vernə verdiyi cavablarında "Yeni müharibə təhlükəsi olduğuna" həqiqətən inanmadığını çox aydın surətdə bəyan etmişdir.

Bu şəraitdə yeni müharibə fikrini gündən-günə yaymaqdan məqsəd nədir? Bu suala qəti cavab olaraq Stalin demişdir ki:

1- Bəzi sadəlövh siyasətçiləri müharibə vahiməsilə qorxutmaq və bu yolla rəqibi artıq güzəştlərə vadar etmək;

2- Hərbi büdcənin azalmasının qarşısını bir müddət öz ölkələrində almaq;

3- Orduların buraxılması nəticəsində işsizliyin sürətlə artmasının qarşısını almaq.

Stalin yeni müharibə təhlükəsinin olmadığını isbat etdikdə, sülhsevər xalqlar içərisində ümid və etimad yaranmış və müharibə tələb edənlərə ağır zərbə vurmuşdur.

Amerikada sülh tərəfdarı olan Vallas Stalinin sözləri haqqında demişdir: "Bu sözlər bütün dünyada sülh təşnəsi olan milyonlarca xalqlarda gələcəyə ümid və etimad yaratmışdır".

Senator Piyer[1] demişdir: "Stalinin sözləri etimad yaradıcı bir əsasda qüvvətlidir".

Senator Valter Corc qeyd etmişdir ki, "Sovet İttifaqından sülhdən başqa bir şey eşitmirik".

Stalin atom bombasına arxalanaraq yeni müharibə yaradılması yolunda çalışanlara cavab olaraq demişdir ki, "atom bombası əsəbləri zəif olanla-

---
[1] senator Pierre

rı qorxutmaq üçündür. Bu bombalar müharibənin müqəddəratını həll edə bilməyəcəkdir...”.

Yapon müharibəsinin son günlərindən, yəni “Naqasaki” və “Xirosima” şəhərləri Amerika hərbi təyyarələri tərəfindən atom bombası ilə viran olan gündən bu silahın dağıdıcı gücü barəsində geniş təbliğat getməkdədir.

“Bikini” adasındakı keçilər hekayəsinin atom bombasına vurduğu zərbəyə baxmayaraq, bu silah müharibənin müqəddəratında əsas rol oynayan bir amil kimi tanınmışdı.[1] Stalinin atom bombası haqqında söylədiyi fikirlərdən sonra bu silah öz dəyərini hiss olunacaq dərəcədə əldən vermişdir.

Əvvəlki hissələrdə Almaniya məsələsi haqqında qeyd etdiyim notlar nəzərə alınarsa, Stalinin bu haqda verdiyi izahatın əhəmiyyəti daha artıq aydın olar.

Bir neçə müddət bundan əvvəl Almaniya məsələsi Avropa siyasi məsələləri arasında çox əhəmiyyət tapmışdır.

Anqlo-saksonların Almaniya barəsində Potsdam qərarlarına müxalif olaraq təqib etdikləri hərəkət xətti Ştutqart nitqindən sonra daha aydın olduğu üçün, son zamanlarda Almaniya məsələsi daha ma-

[1] Amerika ilk sualtı atom sınağını 25 iyul 1946-cı ildə Bikini adası hövzəsində həyata keçirmişdir. Atom bombası partlayışının nəticəsini müəyyənləşdirmək məqsədilə təcrübə üçün öncədən buraya 5400 siçovul, keçi və donuz gətirilmişdi. Adanın 176 nəfər sakini isə digər qonşu ərazilərə köçürülmüşdü.

raqlı olmuşdur. Stalin bu barədə Potsdam qərarlarının icra olunmasına işarə edərək, Sovet hökumətinin öz öhdəliklərinə vəfalı qalmağını bir dəfə daha isbat etmişdir. Halbuki, İngiltərə və Amerika hökumətləri Potsdam qərarlarına laqeyd baxırlar və Almaniyanı "hərbi gücdən salmaq" və "demokratlaşdırmaq" qərarlarını tamamilə unutmuşlar.

Stalin "ideoloji ayrılığın mövcud olmasına baxmayaraq, Sovet İttifaqının Qərb demokratları arasında dostcasına və uzun sürən əməkdaşlıq imkanına şəksiz inanmağı" Sovet hökumətinin son dərəcədə həmkarlıq və dostluğa münasibətdə marağını isbat etmişdir.

Sovet nümayəndələri Sülh Konfransında həmin proqramı düzgün surətdə təqib etməyə müvəffəq olmuşlar. Demokratik və ədalətli bir sülhün yaradılması onların məqsədini aydıncasına göstərirdi.

Oktyabrın 9-da Molotov konfransın ümumi iclasında Leninin dilindən demişdir: "**Öz müqəddəratına hakim olan millətə heç bir qüvvə qalib gələ bilməz...**"

Bu formul Paris Sülh Konfransında Sovet nümayəndələrinin şüarı olmuşdur. Onlar bütün xalqların azadlıq və istiqlalından müdafiə edirdilər və kiçik xalqların hakimiyyət haqqına müxalif olan təhriklərə qarşı ciddi mübarizə aparırdılar.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 76 (365), 4 dekabr 1946***

## Sülh Konfransında Fransa nümayndələrinin rolu

Fransa Qərbi Avropada ən mühüm bir mövqeyə malik olduğu üçün həmişə Avropa siyasi həyatında əsas bir rol oynamışdır. Amma son müharibədən əvvəlki dövrlərdə Almaniya və İtaliya faşist dövlətləri ilə əlaqədar olan ünsürlərin Fransada hakim olması və onların əlilə Fransanın Münix siyasəti qucağına atılması o dövlətin siyasi etibarında böyük təsir buraxmış və Fransa dövlətini üçüncü dərəcəli bir dövlət səviyyəsinə endirmişdir.

Müharibə dövründə Almaniya orduları Fransanı işğal edən zaman faşist ordularına qarşı təşkil edilmiş olan **Müqavimət hərəkatı** Fransa xalqı üçün gələcək Avropa və dünya siyasi həyatında yüksək bir mövqe yaratmışdır.

Fransa azad edildikdən sonra bütün dünya dövlətlərinin ona münasibətdə göstərdiyi maraq və etimad Fransanın böyük dövlətlər cərgəsinə daxil olmağına səbəb oldu, Fransanın dünya siyasi həyatında tarixi mövqeyinə yaraşan bir rol oynamağına əlverişli şərait yaratdı. Amma təəssüflə demək olar ki, müharibədən sonra Fransada iş başına gələn hökumətlər bu tarixi vəzifəni şərəflə yerinə yetirə bilməmişlər.

General De Qoll böyük bir etibar qazanmışdır, amma o, özünə məxsus olan qürur ilə bu etibarı israf ilə xərcləməyə başlamış və **Müqavimət hərəkatının** proqram və arzularını həyata keçirə bilməmişdir.

Fransa azad olduqdan sonra xalq xainlərin cəzalandırılmasını, yeni hökumət ilə həmkarlıq edən ünsürlərin dövlət idarələrindən uzaqlaşdırılmasını ciddi surətdə tələb edirdi. Amma De Qoll hökuməti bu arzulara layiqincə diqqət yetirmədi. Ona görə satqın Vişi hökuməti dövründə işləri idarə edən məqamlar öz işlərini davam etdirərək, ciddi təmizləməyə imkan verməmişlər. İşğalçılar ilə həmkarlıq edən böyük sənaye sahibləri beynəlxalq trostlara dayanaraq Fransa xalqı üzərində hakimiyyət sürməyə müvəffəq olmuşlar.

De Qoll işdən kənarlaşdırıldıqdan sonra koalisiya hökumətləri dövründə də **Müqavimət hərəkatının** proqramı nəzərə alınmamışdır və qəti olaraq demək olar ki, koalisiya hökumətləri dövründə yalnız Kommunist Partiyasının nazirləri **Müqavimət hərəkatının** proqramına vəfalı qalmışlar.

Mən Parisə daxil olduqda "Toulon" faciəsini törətmiş olan admiralların mühakiməsi gedirdi. Fransa hökuməti Vatikan və Vişi hökumətinin qalan nüfuzlu məmurlarına bəraət qazandırmaq üçün çalışmaqda idilər. Fransa Ali məhkəməsində olan demokrat hakimlər admiralların bəraət qazanması üçün aparılan hazırlığı gördükdə istefa vermişdilər. Ona görə bu hasidə Fransa xalqı içərisində böyük bir həycan yaratmışdır. Məhkəmənin sifarişlə olduğu müttəhimlər barəsində çıxarılan rəydən görünürdü. Ona görə Lui Maren kimi bitərəf hakim də bu hadisədən sonra özünü kənara çəkməyə məcbur oldu.

Demək, Fransada mürtəce ünsürlər bu vəziyyətdən istifadə edərək öz mövqelərini möhkəmləndirməyə müvəffəq olmuşdular.

Əgər Fransanın müharibədən sonrakı vəziyyətində bir yaxşılaşma görünürsə, Fransa xalqı onu Kommunist Partiyasının rəhbərliyi altında təşkil olunmuş fəhlələr sinfinə borcludur. Fransada fəhlələr həyat şəraitinin ağırlığına baxmayaraq, Kommunist Partiyasının çağırışına yekdilliklə cavab verərək istehsalatın səviyyəsini yüzdə yetmişə (müharibədən əvvəl dövrə nisbət) yetirmişlər.

Koalisiya hökumətləri dövründə Fransanın Xarici İşlər Nazirliyinin tərkibində heç bir dəyişiklik əmələ gəlmədiyinə görə, Fransa xarici siyasəti xalqın istəklərini həyata keçirməyə müvəffəq olmamışdır.

Bu nazirliyin başında əvvəlki Münix siyasətinin havadarları Jorj Bido, Pol Reyno və Daladyenin adamları öz xarabedici əməllərini davam etdirməkdədirlər. Fransa Xarici İşlər Nazirliyi böyük sərmayədarlar və zadəgan ailələri tərəfindən idarə olunur. Ona görə də Paris Sülh Konfransındakı Fransa nümayəndələrinin mənafeyi beynəlxalq trostların mənafeyinə bağlı olduğundan, Fransa nümayəndələri Fransa xalqının istədiyi hədəflərə münasibətdə maraq göstərirdilər. Onların əksəriyyəti Triyestə gətirib çıxaran dəmir yollarında və yaxud Rumıniya neft mədənlərində payları olduğu üçün şəxsi mənfəətlərini daha artıq nəzərə alırdılar. Ona görə Paris Sülh Konfransının səhv cərəyanlarının məsuliyyəti bir qədər də Fransa nümayəndələrinə aiddir.

Fransa dövləti xarici siyasətdə özü üçün əsas bir hərəkət xətti seçə bilməmişdir. Paris Sülh Konfransında hər komisyonda Fransa nümayndəsinin hərəkət xətti o nümayəndənin şəxsi baxışı ilə əlaqədar idi. Məsələn, hərbi komisyonda general Katro, İtalyan siyasi və ərazi komisyonunda Guerdo Morrobel öz nəzərlərini icra etməkdə idilər.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 79 (368), 9 dekabr 1946***



## Birinci hissənin sonu

Fransanın xarici siyasətində ən mühüm yer tutan mövzulardan biri anqlo-saksonlar ilə fransızların münasibətləridir. Anqlo-saksonlar Vatikan və katolik kilsələrinin Fransa burjuaziya cəmiyyətində sahib olduqları nüfuzundan istifadə edərək, irticaçı cərəyanları gücləndirməkdədirlər.

Fransız irticası mütərəqqi və demokratik təşkilatları parçalamaq məqsədilə böyük vasitələrə malikdir. İrticaçı mətbuat Fransada çox boldur. İşğal dövründən və Vişi hökumətindən qalan yadigarlar Fransada tam demokratik bir vəziyyətin yaranmasının qarşısında böyük maniələr törədirlər.

Hələ indiyə kimi Paris və Fransanın bəzi ayrı şəhərləri anqlo-sakson hərbi qüvvələri tərəfindən

boşaldılmamışdır. Dollar siyasəti Fransada öz rolunu ifa etməkdədir.

Bu siyasətin amilləri Fransada istehsalat səviyyəsinin yüksəlməsinə qarşı geniş mübarizə aparmaqdadırlar.

Fransada mütərəqqi demokratik hərəkat Fransanın Amerika məhsulları üçün bazar olmaması və Fransada işsizliyin artmaması üçün daxili sənayeni var qüvvələri ilə gücləndirməkdədirlər. Amma Fransanı Amerika üçün bazara döndərmək istəyənlər daxili sənayenin genişlənməsinin qarşısını ciddi surətdə alırlar və bu yolla Amerika iqtisadi imperializminin Fransada nüfuz qazanmasına münasib şərait yaradırlar.

De Qoll son zamanlarda tamamilə anqlo-saksonların qucağına düşmüşdür. Onun aparatında böyük nüfuza malik olan kapitanlar, daladyelər və reynolar, yəni Münix siyasətinin birinci tərəfdarları Fransada blok siyasəti aparmaqdadırlar. Onlar Çerçil və Bevin siyasətindən ilham alaraq Fransanı İngiltərə dominyonuna çevirmək istəyirlər. Fransa xalqı çox təəssüf edir ki, general De Qoll kimi nüfuzlu bir sima tamamilə Münix siyasəti tərəfdarlarının nüfuzu altında qərar tutmuşdur.

Fransa üçün Almaniya məsələsi böyük əhəmiyyətə malik olan bir məsələdir. Fransa xalqı bir əsr müddətində üç dəfə Almaniya işğalçı orduları tərəfindən həmləyə məruz qalmışdır. Ona görə Fransa xalqı həmişə nigarançılıq ilə öz şərq qonşusuna

baxır. Fransada Macarstan və Rumıniya məsələləri barəsində və habelə Rur nahiyyəsinin daş kömürləri barəsində müfəssəl bəhslər olur. Bu məsələlər qəti surətdə olmadığına görə Fransa xarici siyasətində böyük təsir buraxmaqdadır.

Təəssüflə demək olar ki, Almaniyanın fransız zonasındakı vəziyyət Fransa xalqının gözlədiyi kimi deyil. Bu məntəqədə həssas postlar Vişi zabitlərinin və Vişi dövlət məmurlarının ixtiyarında olduğuna görə Almaniyanın demokratikləşməsindən heç bir əsər görmək mümkün deyil. Bu məntəqədə də anqlo-saksonlar məntəqəsi kimi faşizm bərpa olmaqdadır.

Fransa xalqı içərisində Sovet xalqlarına münasibətdə böyük dostluq və etimad hissi var və bu hiss gündən-günə möhkəmlənməkdədir. Fransa xalqı qəhrəman Sovet xalqlarını dünya sülh və təhlükəsizliyinin ən qüdrətli dayağı bilir. Fransa xalqı Sovet ali mədəniyyətinə çox maraq göstərir. Xalqın Sovet hökumətinə münasibətdə göstərdiyi dərin maraq və etimad iki il bundan əvvəl general De qoll və Jorj Bidonun Moskvaya getmələrinə və Sovet İttifaqı ilə Fransa arasında dostluq və ittifaq müqaviləsinin imza edilməsinə səbəb oldu.

Bu müqavilənin 5-ci maddəsi ilə əlaqədar olaraq fransa hökumətinin anti-sovet bir blokda iştirak etməsi qəti olaraq rədd edilmişdir. Amma Jorj Bido əməldə öz imza etdiyi müqaviləyə vəfalı qalmamış və Paris Sülh Konfransında Fransa nümayəndələri anti-sovet blokda iştirak etmişdilər.

Fransa irticaçı hakim dairələrinin bu hərəkətlərinə baxmayaraq, Fransa xalqı Sovet xalqlarını ürəkdən sevir.

İlya Erenburq Fransadan ayrılarkən etdiyi məruzənin axırında dedi: **"Mən Moskvaya qayıtdıqda məndən soruşacaqlar, yaxşı, de görək, Fransada bizim düşmənimiz çoxdurmu? Cavab verəcəm, əlbəttə çox-çoxdur. Bizim Fransada minlər, on minlər, yüz minlərlə düşmənimiz var... Sonra soruşacaqlar, heç dostumuz yoxdurmu? Cavab verəcəm ki, bir dostumuz var, o da Fransa xalqıdır..."**

Fransa xalqının müxtəlif təbəqələri arasında bu sözlərin nə qədər dəyərli olduğunu səfirlər klubunda olanların alqışları isbat edirdi.

Fransanın müstəmləkələrində meydana gələn milli hərəkatlar Fransa xarici siyasətində şiddətli böhran əmələ gətirmişdir. Fransada yalnız Kommunist Partiyası bu böhranı rəf etməyə öz ləyaqətini göstərə bilmişdir. Amma ümumiyyətlə, Fransa mürtəceləri gündən-günə artmaqda olan bu milli hərəkatların qarşısını almağa və xalqların azadlığını boğmağa çalışırlar.

Fransa nümayəndələrinin Paris Sülh Konfransında apardıqları hərəkət xəttinə gəldikdə qeyd etmək lazımdır ki, bu nümayəndələrin hərəkət xətti tamamilə Fransa xalqının istəklərinə uyğun deyil. Onlar Paris Sülh Konfransında İngiltərə və Amerika nümayəndələrinin hazırladıqları layihələri Fransa adından təklif etməkdən (Triyest barəsində Fransa

nümayəndəsinin təklifi) və əsas məsələlərdə anqlo-saksonların nümayəndələrinin dalısınca sürünməkdən başqa bir iş görmürdülər.

* * *

Bura kimi biz Almaniyanın keçmiş müttəfiqləri ilə bağlanacaq sülh müqavilələrinin layihələrini hazırlayan və Paris Sülh Konfransının hazırlıq işlərini təşkil edib, konfransın iki ay yarım davamı müddətində gedişinə rəhbərlik edən dörd böyük dövlətlərin xarici siyasətilə tanış olduq.

Hörmətli oxucuların diqqətinə yetirməliyəm ki, qeydlərimizin birinci hissəsi qurtardı.

İkinci hissəsi Paris Sülh Konfransının nəticələri haqqında gələcəkdə kitab formasında çap ediləcəkdir.

***"Azərbaycan" qəzeti (ADF orqanı),***
***say 80 (369), 10 dekabr 1946***

# INDEKSLƏR:

"12 Şəhrivər" – 23, 25, 29
21 Azər – 2, 4, 30
"Ajir" qəzeti - 7
Aleksandr Vernin - 102
Andersi - 59
Antoni İden - 75
Arnold Haney - 56
Artur Vandenberq - 81
Asonsion - 43
"Assoşieyted press" - 110
Atlantik Xartiyası – 59, 83
Avat (Awat) – 50, 54, 55
"Avenir" dərgisi - 40
Averell Harriman – 81, 101
Avropa Birləşmiş Dövlətləri – 71, 74, 75, 76
Azad Fransa Ordusu - 40
"Azərbaycan" qəzeti – 4, 7, 9, 11, 12, 13, 14, 16, 17, 18, 19, 32, 37, 41, 45, 50, 56, 58, 63, 68, 73, 77, 83, 85, 88, 93, 95, 98, 103, 105, 108, 111, 114, 118, 122
Azərbaycan Demokrat Firqəsi (ADF) – 4, 6, 9, 12, 14, 19, 30, 31
Azərbaycan Xalq Konqresi (AXK) - 30
Azərbaycan Milli Hökuməti – 1, 2, 4, 5, 6, 10, 14, 23
Azərbaycan Milli Məclisi - 30
"Beşinci Jorj" mehmanxanası - 50
Bikini - 113
Elliot Ruzvelt - 93
Epir - 68
Ernest Bevin - 38, 50, 54, 60, 61, 64, 65, 69, 73, 77, 101, 119
Etli – 60, 64, 77
Əbdülkərim – 43, 44
"Əlcəziras" müqaviləsi - 43
Əl-Ədəm - 39

Əl-Ələmin - 39
“Əl-Məza” aeroportu – 15, 36
Ənvər Xamei – 11, 12
Ərdəşir – 14, 33
Ərəblər İttihadiyyəsi (Ərəb Dövlətləri Liqası) – 18, 42, 44, 45, 46, 47
Fatimə Müəzzi - 11
“Federasyon Jermanik” - 87
Fəhlə Partiyası – 58, 60, 77
Four Seasons Hotel George V - 50
Franklin Ruzvelt – 44, 78, 82, 83, 84, 86, 93, 94, 95, 97, 98, 104
Franko - 69
Fransa Sosialist Partiyası - 54
Fransis Cozef Spellman - 81
general Katro - 118
general Mark Klark - 95
general Romel - 39
general Zervas – 67, 68
Guerdo Morrobel - 118
“Gülüstan” bağı - 21
“Home skill” - 50
Harri Trumen – 79, 80, 85, 86, 93, 95, 97, 98, 100, 101, 104
Harri Vallas - Henry Agard (Uolles Henri Eqard) – 94, 99
Helio Polis – 15, 36, 92
“Helio Polis Palas” mehmanxanası – 15, 36
“Həbaniyə” aeroportu – 15, 34
Hoşimin - 43
“Xavər-e nou” (Yeni Şərq) qəzeti - 7
Xirosima - 113
İlhami Qulamrza - 5
İlya Erenburq – 72, 121
“Intiqam komitələri” - 22
“İran-e ma” qəzeti - 31

**İran Xalq Partıyası (İXP) – 7, 20, 21**
**İrvin - 76**
**Jorj Bido – 52, 117, 120**
**Jorj doktor Georq - 66**
**Kasablanka – 44, 45**
**Korsika - 47**
**Kutas - 68**
**“Qerinq xaçı” - 88**
**“Qərbi Avropa bloku” - 72**
**Qrenland - 100**
**Lehistan (Polşa) – 55, 59, 87**
**Lioti – 40, 45**
**London konfransı - 30**
**Louis Hubert Gonzalve Lyautey - 40**
**Lui Maren - 116**
**“Lüksemburq” qəsri – 10, 48, 49, 50, 56, 81**
**“Lutsiya” oteli – 18, 46**
**Man Bon - 67**
**Manuilskiy - 70**
**marşal Esmotz (Yan Smets) - 75**
**“Mehrabad” aeroportu – 15, 34**
**Məhtaş - 5**
**Mərakeş İstiqlal Partiyası – 18, 46, 47**
**Mərakeş Kommunist Partiyası - 45**
**“Mərdom” qəzeti - 7**
**Mirzə Rəbi Kəbiri - 5**
**Molotov – 52, 54, 55, 60, 103, 108, 114**
**“Montrö Boğazlar Konvensiyası” - 101**
**“Montrö” müqaviləsi - 101**
**Mussolini - 69**
**Müfti Əzəm - 47**
**Mühafizəkarlar Partiyası – 58, 76, 77, 109**
**“Münix” siyasəti – 71, 72, 81**
**Müqavimət hərəkatı – 115, 116**
**Naqasaki - 113**

**"Nanberq" - 67**
**Norman Robertson - 56**
**Okeaniya - 92**
**Okinava - 100**
**"Okinava döyüşü"**
**Ourəngi (Övrəngi) – 5, 23**
**Ömər Abdulla - 46**
**"Paris-soir" ("Sosuar") qəzeti – 40, 41**
**Paris Sülh Konfransı – 1, 4, 6, 10, 11, 12, 16, 17, 49, 51, 52, 53, 56, 57, 59, 66, 69, 70, 74, 80, 86, 89, 90, 91, 98, 100, 102, 106, 107, 108, 109, 110, 114, 117, 118, 120, 121, 122**
**Pişəvəri S.C. – 5, 16, 32**
**Pol Reyno - 117**
**"Populer" qəzeti – 54**
**Potsdam konfransı – 51, 87, 88, 107**
**Potsdam müqaviləsi - 61**
**"Rəhbər" qəzeti - 7**
**Robert Şuman - 54**
**Rodop dağları - 66**
**Roland J.F. - 41**
**Rozenberq - 75**
**Sardiniya - 47**
**Saviç - 67**
**senator Piyer (senator Pierre) – 97, 112**
**Senator Valter Corc - 112**
**Səttarxan – 21, 32**
**Sidqi Paşa - 38**
**Silezi (Sileziya) - 87**
**"Sity" iqtisadi mərkızləri – 92, 111**
**"Star" qəzeti - 97**
**"Sunday Times" - 110**
**Sürix universiteti – 73, 74**
**Süveyş kanalı – 15, 36, 71**
**Ştudqart - 61**
**Şumaxer - 61**

**"T.A.U" (Amerika həmkarlar ittifaqları) - 95**
**Tezaldaris – 55, 65, 66, 67, 69**
**Təbriz polis idarəsi – 13, 33**
**Təbriz radiosu – 16, 37**
**Tanjer - 44, 45**
**"Times" qəzeti - 111**
**Tomas Konnolli – 81, 84, 105**
**"Toulon" faciəsi - 116**
**Trotlar (International Trot) - 55**
**"Trumen – Birns" siyasəti - 93**
**"Umanite" (Humanite) qəzeti – 67**
**Vallas (Wallace) hadisəsi – 81, 93, 94, 95, 96, 97, 98, 100, 101, 102, 104, 112**
**Valter, Fransa yazıçısı - 41**
**Valter Lipan - 95**
**Vanfurt (Frankfurt) - 76**
**Velz (Uels) – 84, 97**
**Vensan Oriol - 54**
**Versal Konfransı - 109**
**Vialis - 67**
**Vilhelm (Alman imperatoru) - 44**
**Vinston Çerçil – 44, 64, 65, 73, 74, 75, 77, 110, 118**
**Vişi hökuməti - 41, 116, 118, 120**
**Vişinski (Vişinskiy A.Y.) – 54, 103, 108**
**Villiam Lyon Makenzie King - 56**
**"Yunion Fransez" (Union Francaise) - 46**
**Yusif Əzimi - 5**
**Zeynalabdin Qiyami - 5**
**"Zəfər" qəzeti – 7, 31**

## KİTABIN İÇİNDƏKİLƏR:

Firudin İbrahimi və azərbaycançılıq ................... 6
Firqəmizin bir illik bayramı münasibətilə dövlət teatrı salonunda cənab Pişəvərinin nitqi (3 sentyabr 1946-cı il) .............................................23
Sülh uğrunda ......................................................33
Ana dilimizin düşmənləri......................................33
Piramidlər ətəyində vətənimizin adı...................34
Təxliyədən əsər yoxdur!......................................38
Hər kəs öz növbəsində ........................................39
Bunlar azadlıq uğrunda şəhid olmuşlar .............39
Ərəblər İttihadiyəsi məsələsi şimali Afrikada....42
Bir saat Mərakeş Istiqlal Partiyasının Parisə göndərilən nümayəndələri ilə.... .............46
Sülh Konfransının birinci iclası ...........................47
Konfransın müqəddəmati işləri ...........................51
İş rejimi mübarizəsi ..............................................53
Nə üçün konfrans iki ay yarım davam etdi?.......57
İngiltərə nümayəndələri sülh konfransında......................................................58
İngilislər Avropada ..............................................60
Yunanda nə keçir?.................................................64
Məqsəd nədir? .......................................................69
Avropa Birləşmiş Dövlətləri nə deməkdir?...............................................................71
Çerçil Hitlerin taxtında..........................................73
Amerika Birləşmiş Ştatları Sülh

Konfransında ....................................................80
Ruzvelt siyasəti....................................................82
Trumen – Birns siyasəti ........................................86
Birns siyasətinə ağır zərbələr dəyir ......................93
Vallas hadisəsi ......................................................94
Birns geri çəkilir ..................................................102
Amerika böyük siyasi və iqtisadi xətərlərə
məruz qalacaqdır .................................................103
Sülhün qüdrətli müdafiəçiləri.............................106
Sülhsevən xalqların ümidi ..................................109
Sülh Konfransında Fransa nümayndələrinin
rolu ........................................................................115
Birinci hissənin sonu............................................118
İndekslər ..............................................................123

## TƏRTİBÇİ HAQQINDA



Səməd Zülfəli oğlu Bayramzadə 1974-1979-cu illərdə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin fars filologiyası şöbəsində ali təhsil almışdır. 1979-cu ildə Azərbaycanın görkəmli tarixçi və şərqşünas alimi, həmin vaxtlar Şərqşünaslıq fakültəsində imtahan komissiyasının sədri olan akademik Ziya Bünyadovun dəvəti ilə AMEA Şərqşünaslıq İnstitunun o zaman yenicə təşkil olunmuş Cənubi Azərbaycan şöbəsinə işə qəbul olunmuşdur. 1983-cü ildə həmin institutun direktoru Z.Bünyadovun təşəbbüsü ilə İnstitutun digər gənc elmi əməkdaşları ilə birlikdə Moskvaya keçmiş SSRİ EA Şərqşünaslıq İnstituna elmi təcrübə keçməyə göndərilmişdir. S.Bayramzadə orada böyük və tanınmış alimlərlə birbaşa ünsiyyət qurmaq, Moskvanın çox zəngin kitabxanalarında işləmək, tədqiqat mövzusuna aid elmi ədəbiyyat və arxiv materialları ilə tanış olmaq və onlardan istifadə etmək imkanı qazanmışdır. S. Bayramzadə 1988-ci ildə Tiflis şəhərində "Cənubi Azərbaycanın sosial və siyasi vəziyyəti (1947-1962-ci illər)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Çox yüksək səviyyədə yazılmış dissertasiya işi gürcü alimlərininin böyük marağı-

na səbəb olmuş, həmin işin müəllifinin birbaşa tarix elmləri doktoru elmi adı almağa layiq olduğunu xüsusi qeyd etmişlər.

S.Bayramzadə diplomatik fəaliyyəti və dövlət idarəsində işə təyin olunması ilə bağlı olaraq bir müddət AMEA akademik Z.Bünyadov adına Şərqşünaslıq institutundakı elmi fəaliyyətindən uzaqlaşmış, bununla belə Cənubi Azərbaycan mövzusunda elmi əsərlər yazmaqda davam etmişdir.

S.Bayramzadə 2014-cü ildə yenidən AMEA Şərqşünaslıq İnstitutunun Cənubi Azərbaycan şöbəsində işləməyə başlamış və 2015-ci ildən ona qədər həmin İnstitutun əməkdaşı, i.ü.f.d. Əkrəm Rəhimlinin(Bije) çox uğurla rəhbərlik etdiyi və böyük elmi uğurlara imza atmış Cənubi Azərbaycan şöbəsinə müdir təyin edilmiş və şöbənin elmi fəaliyyətinin daha səmərəli davam etməsi üçün böyük əmək sərf etməkdədir.

Səməd Bayramzadə son dərəcə bacarıqlı və istedadlı bir alimdır. O, elmi məsələlrdə çox ciddi, prinsipial olub şəxsi münasibətləri elmi məsələlərə münasibətlərdən kənar tutmaq prinsipinə əməl edən, daim yardım etməyə, xeyirxahlıq göstərməyə hazır olan bir alimdir.

**Dr. Vidadi Mustafa Kamal**

**Elm və təhsil" nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

**Kompüter dizayneri: Zahid Məmmədov**
**Kompüter tərtibatçısı: Tünzalə Tağıyeva**
**Texniki redaktor: Ruhiyyə Abbasova**

**Çapa imzalanmış 05.03.2018**
**Şərti çap vərəqi 26,6. Sifariş № 67**
**Kağız formatı 60x84 1/16. Tiraj 500**

**Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya**
**müəssisəsində səhifələnib çap olunmuşdur.**
**E-mail: elm.ve.tehsil@mail.ru**
**Tel: 497-16-32; 050-311-41-89**
**Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.**